11 oktyabr 2019-cu il
№38 (8853)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

***Təhsil millətin gələcəyidir!***
*Heydər Əliyev*

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı**

## Bu sayımızda

**Prezident İlham Əliyev Türkiyənin Təhsil nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib**
⇨səh.2

**Təhsilin hər kəs üçün əlçatanlığı təmin olunur**
⇨səh.3

**Müəllim əməyinə verilən ən yüksək qiymət**
⇨səh.5

**“Sabaha uzanan əllər - Robotexnika Mühəndisliyi Akademiyası”**
⇨səh.16

# 13-cü Azərbaycan Beynəlxalq Təhsil Sərgisi

## Dünyanın 22 ölkəsinin 150-dən çox təhsil strukturu sərgidə təmsil olunur



Paytaxt Bakımız növbəti dəfə beynəlxalq bir tədbirə ev sahibliyi edir. Artıq ənənəyə çevrilən və davamlı olaraq keçirilən Azərbaycan Beynəlxalq Təhsil Sərgisi bu il dünyanın 22 ölkəsindən 150-dən çox iştirakçını bir araya gətirib.

Son illərin təhsillə bağlı ən uğurlu layihələrindən biri sayılan adıçəkilən sərgi özünün ildən-ilə artan əhatə dairəsinin genişliyi, aktuallığı ilə ölkə ictimaiyyətinin, eləcə də xarici ölkələrin təhsil nümayəndələrinin böyük maraqla, eyni zamanda rəğbətlə qarşıladığı önəmli hadisələrdən biridir. 13-cü ildir ki, reallaşdırılan Azərbaycan Beynəlxalq Təhsil Sərgisi həm yerli, həm də xarici ali təhsil müəssisələrinə əsas hədəf auditoriyası - şagirdlər və onların valideynləri ilə görüşlərin keçirilməsi, eləcə də işgüzar əlaqələrin qurulması və möhkəmləndirilməsi üçün imkan yaradan unikal platformadır. Sərgi, həmçinin dünyanın bir çox ölkələrindən təhsillə bağlı insanlarını bir araya toplamaqla, mövcud təcrübənin öyrənilməsi, əməkdaşlıq perspektivlərinin müzakirə edilməsi, təhsil xidmətləri təklif etməsi baxımından da mühüm əhəmiyyətə malikdir.

Oktyabrın 10-da Bakı Ekspo Mərkəzində 13-cü Azərbaycan Beynəlxalq Təhsil Sərgisinin açılış mərasiminin iştirakçıları da növbəti dəfə təhsilin həyatımızda necə bir önəm daşıdığının bir daha əyani şahidi olmaq üçün toplaşmışdılar.

⇨Ardı səh.4

# Ekoloji təhsil və tərbiyə

## Yeni nəsildə vətəndaş şüurunun formalaşdırılmasının əsas istiqamətlərindən biri kimi

Ekoloji tərbiyə ətraf mühitin dərk olunması və təbiətə qayğı ilə yanaşmanın formalaşması proseslərindən keçir. Ekoloji cəhətdən savadlı insan dərk etməlidir ki, təbiət də onun özü kimi canlıdır. Təbiət güclüdür, ancaq bu güc tükənməz deyil. Təhsil ocaqlarında ekoloji təhsilin gücləndirilməsinin tərəfdarları hesab edirlər ki, uşağa kiçik yaşlarından təbiətə qayğı ilə yanaşmanı aşılamaqla biz onun şəxsiyyətinin formalaşmasına ciddi təkan vermiş oluruq. Başqa sözlə, yeni nəsildə vətəndaş şüurunun formalaşdırılmasının əsas istiqamətlərindən biri də məhz ekoloji təhsil və tərbiyə olmalıdır. Bu yolla gəncləri doğma torpağı və təbiəti sevməyə, ətraf mühitə biganəlikdən qaçmağa öyrədə bilərik.

### Təbiətə biganəlik dünyaya biganəlik deməkdir

Belə bir səhnənin şahidi çoxlarımız olmuşuq: kiçik yaşlı uşaq yediyi şokoladın kağızını açıb yerə atır, anası isə buna heç fikir də vermir. Bu nədir ki? Sadəcə kağız parçası. Həyat isə belə sadə və xırda problemlərin məcmusundan ibarətdir, çünki həmin uşaq böyüyüb bu dünyanın sakininə - istehlakçıya çevriləcək. Böyüyəndə onun küçəyə, yola atdığı tullantıların çəkisi və ölçüsü də artacaq. Ölkəmizdə avtomobildən yola hər hansı əşyanın atılmasına dair cərimə tətbiq olunur. Bununla belə, hamımız gün ərzində bir neçə dəfə bu qadağaya riayət etməyən sürücüləri görürük. Avtomobildən yola siqaret kötüyü atan sürücü həmin kiçik yaşlı uşağın gələcəyidir...

Antuan de Sent-Ekzüperi deyirdi ki, “biz hamımız Yer kürəsi adlı gəminin sərnişinləriyik. Deməli, bizim minəcək başqa nəqliyyat vasitəmiz yoxdur”. Mütəfəkkirin bu sözləri nə vaxt dediyini və ekoloji durumun indi hansı həddə olduğunu nəzərə alsaq, ekoloji təhsil və tərbiyənin necə vacib olduğunu dərk edə bilərik. Yer kürəsi elə bir inkişaf mərhələsinə çatıb ki, onun yaradıcı, məsuliyyətli sakinlərə daha çox ehtiyacı var. Əgər belədirsə və biz ən kiçik yaşlarımızdan hədsiz istehlakçı ruhunda tərbiyə olunuruqsa, hansı məsuliyyətdən söhbət gedə bilər? Bu gün sivil dünyada insan tərbiyəsi prosesində ekoloji tərbiyəni nəzərə almamaq mümkünsüz görünür. Təbiətlə biz ən kiçik yaşlarımızdan üz-üzə gəlirik. Və əslində, məhz təbiət də bizim ilk müəllimimizdir...

⇨Ardı səh.9

# 2019-cu ilin inqilabi kəşfləri

İsveçin paytaxtı Stokholmda Nobel Mükafatları Komitəsi ənənəyə uyğun olaraq ayrı-ayrı elm sahələrində 2019-cu il üçün Nobel mükafatı laureatlarının adlarını açıqlayıb. Oktyabrın 7-də ilk olaraq fiziologiya və tibb üzrə Nobel mükafatı laureatlarının adları məlum olub. *www.nobelprize.org* saytının məlumatına əsasən, İsveçin Karolinsk İnstitutu tərəfindən elan edildiyi kimi, **fiziologiya** və **tibb** üzrə Nobel mükafatına amerikalı alimlər Villiam Kaelin, Qreqq Semenza, britaniyalı Piter Ratkliff layiq görülüblər. Alimlər xərçəngin müalicəsi mümkün olmayan formalarının öhdəsindən gəlməyin metodunu işləyib hazırlayblar.

Alimlər oksigenin müxtəlif səviyyələrinə cavab olaraq genlərin fəaliyyətini tənzimləyən molekulyar mexanizmi müəyyən ediblər. “Nobel mükafatı laureatlarının səmərəli kəşfi həyat üçün ən vacib adaptiv proseslərdən birinin mexanizmini aydınlaşdırıb. Onlar oksigenin səviyyəsinin hüceyrə metabolizmasını və fizioloji funksiyaları necə idarə etdiyini başa düşməyimizə əsas veriblər. Bundan əlavə, onların kəşfləri anemiya, xərçəng və bir çox digər xəstəliklərlə mübarizə üçün yeni strategiyalar yaratmaqda bir yol açıb”, - deyə Komitənin rəsmi mətbuat şərhində qeyd olunur. Bildirilir ki, alimlər bir-birindən asılı olmayaraq öz tədqiqatlarını aparıblar, lakin hər üçü çox vədedici üsulların işlənib hazırlanmasına yol göstəriblər.

Alimlərin kəşfi onkoloji xəstəliklərin müalicə metodlarının təkmilləşməsində tətbiq olunur. Nobel komitəsinin açıqlamasında qeyd olunur ki, bu kəşf xərçəng və digər xəstəliklərlə mübarizədə yeni metod və üsulların tapılmasına kömək edəcək.

***

Oktyabrın 8-də **fizika** üzrə 2019-cu ilin Nobel mükafatı laureatlarının adları açıqlanıb. İsveç Kral Elmlər Akademiyası 2019-cu ildə fizika üzrə Nobel mükafatının “fiziki kosmologiya sahəsində nəzəri kəşflərə görə” Kanada əsilli amerikalı alim Ceyms Piblsə, eləcə də “günəş tipli ulduzun ətrafında fırlanan ekzoplanetin tapılması üçün” isveçrəli Mişel Meyir və Didier Queloza təqdim ediləcəyini bəyan edib. İsveç Kral Elmlər Akademiyası alimlərin kəşflərini astronomiya üçün inqilab adlandırıb. Beləliklə də Nobel komitəsi alimlərin Kainatın təkamülü və Yerin öyrənilməsinə verdikləri töhfələri yüksək qiymətləndirib.

Prinston Universitetinin professoru C.Pibls Böyük partlayışdan sonra Kainatı dolduran relikt radiasiyasının mövcudluğunu proqnozlaşdıranlardan biridir. M.Meyir və D.Queloz isə 1995-ci ildə “ 51 Pegasus B” ekzoplanetini kəşf ediblər. O vaxtdan dörd mindən çox ekzoplanet aşkar olunub.

⇨Ardı səh.8



# “Müəllim üçün tələbənin uğurları çox vacibdir”

*Tomris Bayramova:*
“Xaricdəki təhsil də insanı real həyata daha yaxşı hazırlayır”

Səh.13

# 425 tələbə sevindi

İnsan kapitalının yetişdirilməsində mühüm faktor olan intellektual potensialın gücləndirilməsi istiqamətində dövlətin sosial siyasətinin ən mühüm hədəflərindən biri istedadlı tələbələrimizə göstərilən yüksək diqqət və qayğıdır. Bu baxımdan, ölkə başçısı İlham Əliyevin müvafiq sərəncamı ilə yaradılmış Gənclər Fondunun xüsusi sosial ehtiyacı olan istedadlı tələbələrin təhsil haqlarının maliyyələşdirilməsinə başlaması mühüm əhəmiyyət daşıyır. Gələcəyə hesablanmış strateji proqram çərçivəsində bu günlərdə təhsil haqqını ödəməkdə çətinlik çəkən 425 istedadlı gəncin təhsil haqqının Gənclər Fondu tərəfindən qarşılanması ölkə başçısının sosial yönümlü siyasətinin növbəti göstəricisidir. Builki müsabiqə zamanı ali təhsil müəssisələri ilə yanaşı, orta ixtisas təhsil müəssisələrində təhsil alan tələbələr də yaradılmış imkandan yararlanıblar ki, bu da adıçəkilən layihənin əhatə dairəsinin genişlənməsi və daha çox tələbə məmnunluğuna hesablanıb. “Azərbaycan müəllimi”nə verdikləri açıqlamalarda tələbələr dövlətin bu sahədə addımlarını yüksək qiymətləndirirlər.

⇨Ardı səh.11

# Nəsimi irsi ilə bağlı müsabiqə

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində “Azərbaycan ədəbiyyatında İmadəddin Nəsimi irsi” adlı müsabiqəyə start verilib.

Müsabiqənin keçirilməsinin əsas məqsədi Azərbaycanın söz sənəti və tarixində yüz illər boyu yaşayan Nəsimi irsi barədə məktəbliləri məlumatlandırmaq, yetişməkdə olan gənc nəslin bədii və fəlsəfi fikir tarixinə olan marağını artırmaqdan ibarətdir. Həmçinin, şagirdlərdə mütaliə vərdişlərini, bədii, obrazlı və məntiqi təfəkkürü, tədqiqat bacarıqlarını inkişaf etdirmək, istedadlı, yüksək analitik düşüncə və təhlil qabiliyyətinə malik şagirdlər yetişdirmək də müsabiqənin əsas hədəflərindəndir.

Müsabiqə şagirdlərdə ədəbi biliklərin artmasına, oxuyub-anlama bacarıqlarının, dil və nitq qabiliyyətlərinin, yaradıcı təfəkkür, düşünmə, müstəqil fikir bildirmə bacarıqlarının formalaşmasına xidmət edir.

IX-XI sinif şagirdləri arasında keçirilən müsabiqə 3 mərhələdən (məktəbdaxili, rayon və şəhər) ibarətdir.

Müsabiqənin məktəbdaxili mərhələsinin nəticələrinə əsasən, hər məktəbdən 3 şagird rayon turunda iştirak etmək hüququ qazanacaq. Rayon mərhələsində hər rayon üzrə uğur qazanan 5 qalib müsabiqənin şəhər mərhələsində iştirak edəcək. Final mərhələsində isə nəticələrə uyğun olaraq 6 qalib müəyyənləşdiriləcək.

Müsabiqə qalibləri sertifikat və hədiyyələrlə mükafatlandırılacaq.

# Prezident İlham Əliyev Türkiyənin Təhsil nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

## Ali və peşə təhsili sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Türkiyə Respublikasının Təhsil naziri Ziya Selçukun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev dedi:

– Xoş gəlmisiniz. Sizi görməyimə şadam. Əminəm ki, səfəriniz uğurlu olacaq və təhsil sektorundakı əməkdaşlığımız davam edəcək.

Bildiyiniz kimi, Türkiyə-Azərbaycan əlaqələri bütün sahələrdə ən yüksək zirvədədir. Elə bir sahə yoxdur ki, biz o sahədə əməkdaşlıq etməyək. O cümlədən sizin rəhbərlik etdiyiniz sahə də həm bu gün üçün, həm də gələcək üçün çox önəmlidir ki, gələcək nəsillərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alsınlar, bilikli, savadlı olsunlar və gələcəkdə ölkələrimizin inkişafında fəal olsunlar. Sizi səmimiyyətlə salamlayıram. Türkiyə-Azərbaycan qardaşlığı, birliyi sarsılmazdır. Biz bütün sahələrdə – həm siyasi sahədə, həm də iqtisadi, nəqliyyat, enerji, mədəniyyət, təhsil sahələrində gözəl nəticələri görürük.

Bildiyiniz kimi, bir neçə gündən sonra Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü keçiriləcək. Biz bu görüşə ciddi hazırlaşırıq və əminəm ki, qəbul ediləcək qərarlar türkdilli dövlətlərin birliyini daha da möhkəmləndirəcək. Sizi bir daha salamlayıram. Xoş gəlmisiniz.

***

Türkiyənin Təhsil naziri Ziya Selçuk dedi:

– Təşəkkür edirəm. Zati-alinizin bizi qəbul etməsindən böyük məmnunluq duyuruq. Çox minnətdaram, sağ olun. Cənab Prezidentimizin salamlarını çatdırmaq istərdim.

Prezident İlham Əliyev: Sağ olun. Mənim də salamlarımı çatdırın.

Ziya Selçuk: Prezidentimiz Sizə olan dost münasibətini hər zaman ifadə edir. “Bir millət, iki dövlət” şüarının daim vurğulandığı və bu məsələnin əhəmiyyəti barədə danışıldığı da Sizə məlumdur.

Zati-alinizin Türkiyə vətəndaşları üçün viza rejiminin ləğvi barədə qərarı Türkiyədə böyük bir sevinc hissi yaradıb. Bunu, cənab Prezident, Sizə çatdırmaq istəyirəm. Mükəmməl səviyyədə olan əməkdaşlığımız hamımızı sevindirir. Həm vətəndaşlarımızın ünsiyyətinin artması, həm tələbələrin Türkiyəyə təhsil almağa gəlmələri, həm də Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi əməkdaşlığın genişlənməsi hamımızı çox məmnun edir.

***

Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla onu qardaşlıq münasibətlərinin bağladığını dedi. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanla Türkiyə arasında böyük sərvətimiz olan dostluq və qardaşlığımızı möhkəm iş birliyinə çevirməyə nail olmuşuq. Prezident İlham Əliyev bildirdi ki, dünya miqyasında Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ölkələr yoxdur.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçən il Bakıda hərbi paradın keçirildiyini, Azərbaycan və Türkiyə hərbçilərinin çiyin-çiyinə Bakının mərkəzində təntənəli keçid etdiklərini xatırladaraq, xalqlarımızın bunu böyük fəxr hissi ilə izlədiyini bildirdi.

Görüşdə ali və peşə təhsili sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

# Məcburi köçkünlər üçün salınmış yaşayış kompleksi istifadəyə verildi

## Prezident İlham Əliyev kompleksdəki məktəbdə və uşaq bağçasında yaradılan şəraitlə tanış olub



Oktyabrın 8-də Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış “Qobu Park-2” yaşayış kompleksinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və “Paşa Holding” şirkətinin nümayəndəsi, layihə rəhbəri Kamil Əliyev dövlətimizin başçısı Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleksdə yaradılan şərait barədə məlumat verdilər.

Bildirildi ki, təməli ötən ilin sentyabrında qoyulan bu kompleksdə, ümumilikdə, onmərtəbəli 13 bina ilə yanaşı, məktəb, uşaq bağçası, poliklinika, gimnastika, güləş və trenajor zalları, şahmat mərkəzi, market, iaşə obyektləri yaradılıb. Ərazidə, eyni zamanda, istirahət parkı, uşaq əyləncə meydançası, eləcə də, 3 idman meydançası inşa olunub. Bir sözlə, burada sakinlərin sosial məsələlərinin həlli üçün hərtərəfli infrastruktur qurulub.

Kompleksin ərazisində inşa olunan məktəb binası ilə tanışlıq zamanı qeyd olundu ki, təhsil ocağı 780 şagird yerlikdir. Bütün zəruri avadanlıqla təchiz edilən binada şagirdlərin yüksək səviyyədə təhsil alması üçün hərtərəfli şərait yaradılıb.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə təhsilin inkişafı istiqamətində atılan addımlardan doğma yurdlarından didərgin düşən soydaşlarımız da yüksək səviyyədə bəhrələnirlər. İndiyədək istifadəyə verilən bu cür şəhərciklərdə məcburi köçkün uşaqların təhsilini normal təmin etmək üçün müasir məktəblər yaradılıb. Bütün bunlar, ümumilikdə, ölkədə təhsilin yüksək səviyyədə olmasına xidmət edir, bu sahənin maddi-texniki bazasını möhkəmləndirir.

“Qobu Park-2” yaşayış kompleksinin ərazisində uşaq bağçası da fəaliyyət göstərəcək. Bağça ilə tanışlıq zamanı Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, 220 yerlik uşaq bağçası da lazımi inventarla təchiz olunub. Burada balacaların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün bütün imkanlar var.

Bu bağçanın timsalında da aydın görmək olur ki, gələcəyimiz olan körpələrin sağlam və bilikli böyüməsi üçün dövlət səviyyəsində olduqca əhəmiyyətli layihələr icra olunur. Ölkəmizdə müasir səviyyədə uşaq bağçaları, körpələr evlərinin yaradılmasında Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələrin də mühüm əhəmiyyəti var.

Sonda məcburi köçkünlər onlara göstərdikləri diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildirdilər.

# Tvinninq layihəsi çərçivəsində ekspertlərin səfəri

Tvinninq layihəsinin “AzMKÇ nəzərə alınmaqla kompetensiya və bacarıqlara əsaslanan nailiyyətlərin təsvir edilməsi məqsədi ilə prioritet sahələrdəki proqramların təhsil standartlarının təkmilləşdirilməsi üzrə tövsiyələrin verilməsi” adlı 1.5 nömrəli fəaliyyəti çərçivəsində altıncı missiya həyata keçirilib.

Missiya çərçivəsində Fransanın Burqundiya Universitetinin professoru Mişel Narke və Litvanın Avropa Sosial Fond Agentliyinin biologiya üzrə təhsil proqramları sahəsində ixtisaslaşmış eksperti Trine Meza Johansen ölkəmizə səfər edib.

Missiyanın məqsədi biologiya ixtisası üzrə dövlət standartının yenilənməsi və bu sahədəki ixtisasların milli təsnifatının yaxşılaşdırılması üzrə tövsiyələrin verilməsindən ibarət olub.

Missiya çərçivəsində ekspertlər Bakı Dövlət Universitetinin Biologiya fakültəsinin professor-müəllim heyəti ilə görüşüb, sözügedən standartın yenilənməsi ilə bağlı onların rəy və təkliflərini öyrənib, eləcə də fakültənin maddi-texniki bazası ilə tanış olublar.

Missiya nəticəsində ekspertlər biologiya ixtisası üzrə dövlət standartında əksini tapmış peşə kompetensiyalarını yeniləyib, burada maddi-texniki baza üzrə minimal tələbələr və məzunlar üçün potensial məşğulluq sahələrini müəyyən ediblər. Ekspertlər, həmçinin biologiya sahəsi üzrə ixtisasların təsnifatının yaxşılaşdırılması istiqamətində tövsiyələr də veriblər.

Qeyd edək ki, dövlət standartının yenilənməsi zamanı ekspertlər dövlət standartlarının Tvinninq layihəsinin ekspertləri tərəfindən kompetensiya əsaslı yanaşmaya uyğun olaraq işlənib hazırlanmış yeni formatından istifadə ediblər.

# Elektron dərslik portalı ölkənin ən çox izlənən saytları sırasında

## Cari ilin ilk 9 ayı ərzində e-derslik portalına giriş sayı 1754280, səhifələrə ümumi baxış sayı isə 14625792 olub



Təhsil Nazirliyi tərəfindən hazırlanmış elektron dərslik portalı *(www.e-derslik.edu-.az)* ölkə üzrə saytların reytinq cədvəlində son bir ay ərzində 80 pillə yüksələrək 51-ci olub. Belə ki, sentyabr ayı ərzində portala giriş sayı 332130-a, səhifələrə ümumi baxış sayı isə 2748408-ə çatıb.

Xatırladaq ki, cari ilin ilk 9 ayı ərzində e-derslik portalına giriş sayı 1754280, səhifələrə ümumi baxış sayı isə 14625792 olub. 2018-ci ilin göstəricilərinə görə isə bu rəqəmlər müvafiq olaraq 1037849 və 8163538 təşkil edib.

Hazırda məzmun və dizayn baxımından təkmilləşdirilmiş dərsliklərin elektron formatda hazırlanıb portalda yerləşdirilməsi prosesi davam etdirilir. Artıq Azərbaycan və rus bölmələri üzrə portalda mövcud olan 2-ci sinif dərsliklərinin hamısı və hər iki bölmə üzrə 3-cü sinif dərsliklərindən 7-si olmaqla, ümumilikdə 22 dərslik yeniləri ilə əvəzlənib.

Qeyd edək ki, portalda 231 elektron dərslik, 22 metodik vəsait və 2 sinifdənxaric oxu materialı olmaqla, ümumilikdə 255 elektron vəsait mövcuddur. Portalda video, qrafika, səs və digər multimedia vasitələri ilə zənginləşdirilmiş dərsliklərin sayı 27-yə çatdırılıb.

2014-cü ildən fəaliyyət göstərən *www.e-derslik.edu.az* portalının hazırlanmasında məqsəd təhsilalanları təhsil prosesində fəallaşdırmaq, onların İKT-dən səmərəli istifadə etməsinə, dərslikləri elektron formatda oxumasına imkan yaratmaqdır. Bu sistem şagirdlərin dərsliklərdən istifadəsində mobilliyi artırır, həmçinin məktəblilər istənilən vaxt və məkanda dərsliklərə müraciət edə bilirlər. İstifadəçilər onlayn formada və ya əvvəlcədən yükləməklə dərslikləri elektron versiyada oxumaq, onlayn rejimdə dərsliyin istənilən səhifəsində müvafiq lazımi elektron qeydlər aparmaq imkanı qazanırlar. Bu da, öz növbəsində, təhsilalanların öyrənmə prosesinin fərdiləşməsinə şərait yaradır.

# Həmkarlar ittifaqı fəalı olan 64 tələbəyə adlı təqaüd verilib

Oktyabrın 9-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) 2018-2019-cu tədris ilinin yay imtahan sessiyasının nəticələrinə görə, əlaçı və həmkarlar ittifaqı fəalı olan ali məktəb tələbələrinə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin (ATİAHİ) adlı təqaüdünün təqdim edilməsi ilə bağlı tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətindən danışıb. Həmkarlar ittifaqı təşkilatlarının dövlət gənclər siyasətinə verdiyi dəstəkdən söz açan Səttar Möhbalıyev bildirib ki, bununla bağlı ATİAHİ tərəfindən müxtəlif intellektual oyunlar, idman yarışları təşkil olunur, gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə işlər görülür. Həmçinin aztəminatlı ailələrdən olan tələbələrin sosial təminatının gücləndirilməsi istiqamətində addımlar atılır. Belə ki, hər il Respublika Komitəsi tərəfindən aztəminatlı ailələrdən olan 220-dən çox tələbə pulsuz yeməklə təmin olunur.

Sonra yay imtahan sessiyasının nəticələrinə görə əlaçı və həmkarlar ittifaqı fəalı olan 64 ali məktəb tələbəsinə Respublika Komitəsinin adlı təqaüdü təqdim edilib.

Qeyd edilib ki, tələbələrdə elmə, təhsilə marağın artırılması məqsədilə 1995-ci ildə ATİAHİ-nin adlı təqaüdü təsis olunub. Həmin vaxtdan bu günə qədər ali təhsil müəssisələrində qış və yay sessiyasının nəticələrinə görə uğur əldə etmiş 2331 tələbə bu təqaüddən yararlanıb.

## Təhsil naziri səfirlə görüşüb

Oktyabrın 9-da Təhsil naziri Ceyhun Bayramov Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasına yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri cənab Volfqanq Maniq ilə görüşüb.

Görüşdə Azərbaycan və Almaniya arasında təhsil sahəsində əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

## 100 yaşlı tarix fakültəsi

Bakı Dövlət Universitetində (BDU) bu ali təhsil müəssisəsinin həmyaşıdı olan Tarix fakültəsinin 100 illik yubileyinə həsr olunmuş "Azərbaycanın ictimai-siyasi həyatında Bakı Dövlət Universitetinin Tarix fakültəsinin yeri və rolu" mövzusunda Respublika elmi konfransı keçirilib.

BDU-nun rektoru Elçin Babayev fakültənin yaranma tarixi və inkişaf mərhələlərindən, onun Azərbaycanın ictimai-siyasi həyatındakı rolundan bəhs edib. Konfransı BDU-nun 100 illik yubileyi münasibətilə keçirilən silsilə tədbirlərin davamı adlandırıb.

Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, AMEA-nın Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov "Tarixi tədqiqatlarda dövlətçilik ideologiyası" mövzusunda məruzəsini təqdim edib.

Konfrans işini "Azərbaycan xalqının milli sərvəti - Bakı Dövlət Universiteti", "100 yaşlı Tarix fakültəsi", "Tarixi araşdırmalar", "Bakı Dövlət Universitetində yüksək ixtisaslı kadr hazırlığı", "BDU və Tarix fakültəsi tələbələrin gözü ilə" adlı bölmələrdə davam etdirib.

Konfransa respublikanın müxtəlif ali təhsil və elmi müəssisələrindən, o cümlədən Türkiyə Cümhuriyyəti və Ukraynadan çoxsaylı tezislər daxil olub.

## Birgə magistr proqramının ilk Məzun Günü

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilə Yunanıstanın Qərbi Makedoniya Universitetinin birgə magistr proqramının ilk Məzun Günü keçirilib və məzunlara diplomlar təqdim olunub.

Yunanıstanın Kastoriya şəhərində keçirilən Məzun Günündə UNEC-in rektoru, professor Ədalət Muradov və Qərbi Makedoniya Universitetinin rektoru Theodoros Theodoulids magistratura üzrə birgə diplom proqramının əhəmiyyətindən söz açıblar.

Bildirilib ki, birgə magistr proqramının məqsədi, beynəlxalq əmək bazarında, o cümlədən Avropa əmək bazarında yüksək ixtisaslı mütəxəssislər hazırlamaqdır. Proqramı bitirənlər Yunanıstanda, Azərbaycanda, Avropa İttifaqına üzv olan digər ölkələrdə işgüzar idarəçilik, iqtisadiyyat, nəqliyyat və logistika, neft-qaz texnologiyası ixtisasları üzrə fəlsəfə doktoru elmi adını qazanmaq imkanı əldə edə biləcəklər. Birgə proqramda iştirak edən magistrlər müqaviləyə əsasən, həm də təqaüdlə təmin olunublar.

Tədbirdə birgə diplom proqramının hər iki ölkə arasında təhsil, elm və sosial əlaqələrin gücləndirilməsində vacib əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılıb, gələcəkdə bu əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

Həmçinin UNEC-lə Qərbi Makedoniya Universiteti arasında bakalavr təhsili üzrə mübadilə və ikili diplom proqramlarının da reallaşdırılmasının mümkünlüyü qeyd edilib və bu istiqamətdə işlərə başlamağa dair qərar verilib.

Millət vəkili Fazil Mustafa, Azərbaycanın Yunanıstandakı səfirliyinin birinci katibi Eldar Əliyev, Yunanıstan parlamentinin üzvləri birgə magistr proqramının hər iki ölkə üçün xüsusi əhəmiyyət daşıdığını bildiriblər. İlk dəfə olaraq həyata keçirilən birgə proqram çərçivəsində UNEC-in Avropa İttifaqına üzv olan ölkədə mütəxəssis hazırlığı həyata keçirməsini tarixi uğur adlandırıblar.

Qeyd edək ki, UNEC Rusiya Federasiyası ərazisində təhsil xidmətləri göstərən yeganə xarici universitet olmaqla, Yunanıstanda da birgə magistr proqramı reallaşdıran ilk xarici universitetdir.

## UTECA komandası avropalı təhsil ekspertləri ilə növbəti təlimdə

UTECA EQAC komandası Bakı Biznes Universitetində təşkil olunan təlimdə iştirak edərək avropalı təhsil ekspertləri ilə görüşüb.

Azərbaycan Texnologiya Universitetinin Keyfiyyətin təminatı şöbəsinin müdiri Asiman İlyasov, Magistratura və doktorantura şöbəsinin müdiri Sadiq Əfəndiyev təmsil ediblər. İki günlük təlimdə Avropa təhsil standartları (ESG) üzrə əsas dəyərləndirmə göstəriciləri hazırlanıb və həmin standartların universitet daxilində tətbiqinin mövcud vəziyyəti barədə müzakirələr aparılıb. UTECA nümayəndələri keyfiyyətin təminatı ilə bağlı Avropa Təhsil Məkanının (EHEA) təcrübəsini öyrənmək üçün təlimdə iştirak edən avropalı təhsil ekspertləri ilə təcrübə mübadiləsi apardılar.

EQAC (Azərbaycan Ali Təhsil Müəssisələrində Keyfiyyətin Təminatı Mərkəzlərinin Qurulması) layihəsi Avropa Komissiyası tərəfindən maliyyələşən ERASMUS+ proqramı çərçivəsində həyata keçirilir. Təhsil Nazirliyi, 5 Avropa və 11 Azərbaycan universitetinin iştirak etdiyi layihə tələbə yönümlü təhsil proqramlarının yeni standartlara uyğun yazılması, tələbələrlə iş, tələbəyə dəstək, professor-müəllim heyətinin illik fəaliyyətinin reytinq qiymətləndirilməsi və stimullaşdırılması, Avropa təhsil standartlarının (ESG) mövcud vəziyyətdə universitetin struktur bölmələrində tətbiqi kimi bir sıra konsepsiyaları özündə birləşdirir.

EQAC çərçivəsində indiyə qədər müxtəlif tarixlərdə Bakı ilə yanaşı İngiltərə, Litva, İsveç və İspaniyada UTECA əməkdaşlarının aktiv iştirak etdiyi müxtəlif təlimlər təşkil olunub.

# Təhsil Nazirliyində kollegiya iclası keçirilib



Oktyabrın 7-də Təhsil Nazirliyində kollegiya iclası keçirilib. Tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, Təhsil naziri Ceyhun Bayramov, kollegiya üzvləri, nazirliyin müvafiq struktur bölmə rəhbərləri və ali təhsil müəssisələrinin rektorları iştirak ediblər.

Təhsil naziri Ceyhun Bayramov kollegiya iclasını giriş sözü ilə açaraq təhsil sahəsində aparılan islahatlar nəticəsində əldə olunan uğurlar və qarşıya qoyulan vəzifələr barədə məlumat verib.

Kollegiya iclasında Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Yaqub Piriyev 2019-2020-ci tədris ili üzrə ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun nəticələri barədə məruzə edib.

Yaqub Piriyev bildirib ki, cari ildə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə tələbə qəbulu proqnozu ötən ilə nisbətən ümumilikdə 6 faiz, dövlət sifarişi ilə qəbul planı isə ötən illə müqayisədə 66,1 faiz artıb (dövlət sifarişi 8150 yer artaraq 20474 yer olub). Tələbə qəbulunda proqnoz yerlərinin 84,6 faizi dövlət, 15,4 faizi isə qeyri-dövlət ali təhsil müəssisələrinin qəbul planında nəzərdə tutulmuşdur. Ötən il bu nisbət müvafiq olaraq 85,4 faiz və 14,6 faiz olub.

Aparat rəhbəri müavininin sözlərinə görə, 2019-2020-ci tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının ilkin nəticələrinin statistik təhlili göstərir ki, son 6 ildə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul üzrə proqnoz yerlərinin sayı 28 faiz, dövlət sifarişli yerlərin sayı isə 78,5 faiz artıb. 2014-2015-ci tədris ilində dövlət sifarişli yerlərin sayı qəbul planının 30,4 faiz təşkil etdiyi halda, cari ildə bu rəqəm 42,4 faizdir.

Cari ildə orta ixtisas təhsili müəssisələrinə tələbə qəbuluna toxunan Yaqub Piriyev əlavə edib ki, qəbul planı ötən ilə nisbətən ümumilikdə 8,2 faiz artıb. 56 orta ixtisas təhsili müəssisəsindən Təhsil Nazirliyinin tabeliyində olan 37 kollecə cari ildə tələbə qəbulu göstəricisi ötən illə müqayisədə 6,6 faiz çox olub. Ölkə üzrə dövlət hesabına qəbul planı isə ötən ilə nisbətən 4,6 faiz artıb.

İclasda Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov "Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Nazirlər Kabinetinin 3 oktyabr 2019-cu il tarixli 428 nömrəli Qərarına dair məruzə ilə çıxış edib. Rauf Orucov bildirib ki, Qərara əsasən dövlət sifarişi əsasında kadr hazırlığı üzrə hər bir təhsilalana düşən təhsil xərclərinin miqdarı 2019-cu il sentyabrın 1-dən orta hesabla 30 faiz artırılıb. Şöbə müdiri qeyd edib ki, bu məqsədlə dövlət büdcəsindən ayrılacaq əlavə vəsaitin məbləği cari ildə 14 milyon, növbəti ildə isə 42 milyon manat təşkil edir.

Rauf Orucovun sözlərinə görə, bununla da dövlət sifarişi əsasında kadr hazırlığını həyata keçirən müəssisələrin maliyyə imkanlarının yaxşılaşması, işçilərin əməkhaqlarının artırılması, dövlət sifarişi əsasında kadr hazırlığı üzrə ali təhsil müəssisələri arasında rəqabət mühitinin güclənməsi və ali təhsil müəssisələrinin inkişafı üçün imkanların artması gözlənilən nəticələr sırasındadır.

Təhsil naziri Ceyhun Bayramov kollegiya iclasında çıxış edərək məruzə olunan mövzularla bağlı fikirlərini bildirib.

Kollegiya iclasında gündəlikdəki məsələlərə dair təklif və tövsiyələr səsləndirilib, müzakirələr aparılıb.

# Təhsilin hər kəs üçün əlçatanlığı təmin olunur

## Təhsil xərclərinin maliyyələşdirilməsi üzrə müsabiqənin qalibləri ilə görüş




Oktyabrın 4-də Bakı Konqres Mərkəzində sosial müdafiəyə xüsusi ehtiyacı olan istedadlı tələbələrin təhsil xərclərinin maliyyələşdirilməsinə dair ölkə Prezidenti İlham Əliyevin göstərişinə əsasən Gənclər Fondu tərəfindən təşkil edilən müsabiqənin qalibləri ilə görüş keçirilib.

Görüşdə Təhsil naziri Ceyhun Bayramov, dövlət rəsmiləri, millət vəkilləri, ali təhsil müəssisələrinin rəhbərləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, müsabiqənin qalibi olan gənclər və onların valideynləri iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov çıxış edərək bildirib ki, keyfiyyətli təhsilin gənclər üçün əlçatanlığının artırılması və savadlı, milli-mənəvi dəyərlərə bağlı gəncliyin yetişdirilməsi, gənclərə dövlət qayğısı ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi dövlət gənclər siyasətinin əsas sütununu təşkil edir.

Tədbirdə çıxış edən Təhsil naziri Ceyhun Bayramov da dövlət başçısının gənclərə xüsusi diqqət və qayğısından danışıb. Ceyhun Bayramov insan kapitalının inkişafı konsepsiyasına uyğun olaraq gənclər üçün təkcə son bir ildə yaradılan çoxsaylı imkanlar haqqında ətraflı məlumat verib. Nazir qeyd edib ki, səriştəli mütəxəssislərin yetişdirilməsində ali təhsil sisteminin xüsusi rolu mövcuddur.

Təhsil naziri ali təhsilin daha əlçatan olması üçün davamlı tədbirlərin həyata keçirildiyini bir daha xatırladıb. Dövlət vəsaiti hesabına təhsil alan tələbələrin sayının artdığını deyən Ceyhun Bayramov qeyd edib ki, cari ildə bu göstərici 66 faiz artırılaraq 12300-dən 20500-ə çatdırılıb. Cari tədris ilində tələbələrə verilən təqaüdlərin məbləği orta hesabla 20 faiz artırılıb, bu tədbirlər 110 mindən çox tələbəni və doktorantı əhatə edib.

Həssas sosial qruplardan olan tələbələrin təhsil haqqının dövlət tərəfindən ödənilməsi, hər il yüksək nəticələrlə ali məktəblərə qəbul olunan 100-dən çox tələbəyə Prezident təqaüdünün verilməsi, gənclər üçün Prezident mükafatının təsis edilməsi "hər bir gəncin təhsil ala bilməsi" konseptinin reallaşdırılmasına şərait yaradıb.

Gənclər Fondu tərəfindən keçirilən müsabiqənin də məhz təhsilin hər kəs üçün əlçatanlılığının təmin olunmasına xidmət etdiyini deyən nazir fondun təhsil məsələlərinə xüsusi diqqət yetirdiyini sözlərinə əlavə edib. Müsabiqədə qalib olan tələbələri təbrik edən Təhsil naziri onlara gələcək həyatlarında və təhsillərində uğurlar arzulayıb.

Çıxışının sonunda nazir 5 oktyabr-Beynəlxalq Müəllimlər Günü münasibətilə bütün müəllimləri təbrik edib, onlara şərəfli, müqəddəs işlərində uğurlar diləyib.

Görüşdə çıxış edən Milli Məclisin gənclər və idman komitəsinin sədri Ülvi Quliyev də gəncləri təbrik edib, onlara yaradılan bu şəraitdən maksimum istifadə edərək, dövlətə yararlı vətəndaş, həmçinin səriştəli mütəxəssis olmalarını arzulayıb.

Müsabiqənin qalibləri çıxışlarında təhsilin inkişafına, onlara göstərilən hərtərəfli dəstəyə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Tədbirdə qalib olan gənclərin uğur hekayələrindən bəhs edən videoçarxlar nümayiş olunub. Daha sonra müsabiqənin qalibləri ilə təhsil xərclərinin ödənilməsinə dair müqavilələr imzalanıb.

Xatırladaq ki, sosial müdafiəyə xüsusi ehtiyacı olan istedadlı tələbələrin təhsil xərclərinin maliyyələşdirilməsi üzrə 2018-ci ildə keçirilmiş müsabiqə nəticəsində 237, builki müsabiqə nəticəsində isə 425 gəncin təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi qərara alınıb.

# 13-cü Azərbaycan Beynəlxalq Təhsil Sərgisi

## Dünyanın 22 ölkəsinin 150-dən çox təhsil strukturu sərgidə təmsil olunur










⇦ Əvvəli səh.1

Samirə KƏRİMOVA

Özünün möhtəşəmliyi, gözəl tərtibatı ilə göz oxşayan sərginin açılış mərasimində Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, Təhsil naziri Ceyhun Bayramov, Türkiyənin Milli Təhsil naziri Ziya Selçuk, Avropa Komissiyasında "NEAR" Baş direktorluğunun bölmə rəhbəri Vassilis Maraqos, "Caspian Event Organisers" şirkətinin region üzrə direktoru Edvard Stroun, ölkəmizin bir sıra təhsil müəssisələrinin rəhbərləri, nazirlik yanında İctimai Şuranın üzvləri, müxtəlif təhsil xidmətləri göstərən qurumların nümayəndələri iştirak ediblər.

Mərasimdə çıxış edən Təhsil naziri Ceyhun Bayramov qonaqları və sərgi iştirakçılarını salamlayaraq onları görməkdən məmnunluq duyduğunu bildirib. Ölkəmizdə hər il davamlı olaraq keçirilən Beynəlxalq Təhsil Sərgisinin əhəmiyyətini xüsusi vurğulayan nazir onun əhatə dairəsinin ildən-ilə genişlənməsinin müsbət hal olduğunu qeyd edib: "Təhsil Nazirliyi il ərzində bir çox tədbirlər həyata keçirir. Təhsil Sərgisi bu tədbirlər arasında xüsusi bir yerə və əhəmiyyətə malikdir. Sərgi zamanı minlərlə insan təhsil sahəsində baş verən dəyişikliklərlə tanış olur, həyata keçirilən layihələrlə əyani tanışlıq imkanı əldə edir. Bu sərgi təhsil müəssisələri və təhsilalanlar arasında ünsiyyətin qurulması baxımından da müstəsna əhəmiyyətə malikdir".

Ceyhun Bayramov bildirib ki, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın imzalanmasından ötən dövr ərzində təhsilin müxtəlif pillələrini əhatə edən istiqamətlər üzrə bir sıra mühüm dövlət sənədləri qəbul olunub və layihələr həyata keçirilib. Əldə edilmiş nailiyyətlər təhsil müəssisələrinin, təhsil işçilərinin, müəllimlərin səyləri və bütövlükdə cəmiyyətin verdiyi töhfə nəticəsində mümkün olub.

Sərgi haqqında ətraflı məlumat verən nazir burada ilk dəfə olaraq Avropa İttifaqının birləşmiş stendi, "Gənc Avropa səfirləri" şəbəkəsi və Şərq Tərəfdaşlığında Avropa Məktəbinin təmsil olunduğunu, həmçinin xaricdə pulsuz təhsil proqramları və beynəlxalq təhsil mübadiləsi, o cümlədən "Erasmus+" proqramının da təqdim edildiyini söyləyib: "Bir maraqlı məqam da ondan ibarətdir ki, əvvəlki sərgilərdən fərqli olaraq, bu sərgidə Təhsil Nazirliyi tərəfindən iştirakçılara daha çox təhsil sahəsində innovasiyalar və perspektivli startaplar, eləcə də təhsil sisteminin bütün səviyyələrində IT texnologiyalarının tətbiqi və vahid təhsil informasiya mühitinin yaradılması imkanları təqdim ediləcəkdir". Nazir bildirib ki, Təhsil Nazirliyinin son illərdə təhsilin inkişafı sahəsində həyata keçirdiyi islahatlar və əldə olunan nailiyyətlər də ayrı-ayrı pavilyonlarda əhatəli şəkildə öz əksini tapıb: "Əlavə olaraq Təhsil Nazirliyi və Nazirliyin tabeliyində olan bir sıra qurumlar tərəfindən həyata keçirilən layihələr və innovativ təşəbbüslər də bu gün nümayiş etdiriləcək. Ümumi təhsil pilləsi üzrə bir sıra innovativ təşəbbüslər məktəblərdə tətbiq edilməyə başlamışdır. Bu gün biz artıq bu təşəbbüslərin müsbət təsirlərini görə bilərik. Sərgidə nümayiş etdirilən "Sağlam təhsil - sağlam millət", "Məktəblinin dostu", "Rəqəmsal bacarıqlar", icma əsaslı məktəbəqədər qruplar, STEAM layihəsi, istedadlı uşaqlarla iş və müxtəlif olimpiadalar, İKT-nin tətbiqi ilə bağlı layihələr, o cümlədən elektron dərsliklər bu təşəbbüslərə nümunə ola bilər".

Türkiyənin Milli Təhsil naziri Ziya Selçukun böyük bir nümayəndə heyəti ilə sərgidə iştirakına toxunan Ceyhun Bayramov bu ölkə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətlərinin təhsil sahəsində də geniş əksini tapmalı olduğunu söyləyib. Qeyd olunub ki, bir millət olan bu iki dövlətin təhsil mütəxəssisləri arasındakı sıx əməkdaşlıq əlaqələri daha da genişləndirilməlidir. Nazir keçirilən sərginin Azərbaycan və Türkiyə arasında olan əməkdaşlığın bir qədər də dərinləşməsi və zənginləşməsinə xidmət edəcəyinə əmin olduğunu söyləyib.

Çıxışının sonunda Ceyhun Bayramov sərginin təşkilatçısı olan "Caspian Event Organisers" şirkətinə, sərginin baş sponsoru "Kapital Bank"ın rəhbərliyinə, həmçinin bu tədbirin dəstəkçilərindən olan Azərbaycanda İxracatın və İnvestisiyaların Təşviqi Fonduna, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına öz təşəkkürünü bildirib. Təhsil naziri 13-cü Azərbaycan Beynəlxalq Təhsil Sərgisinin gələcək hədəflərə nail olunması baxımından qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsinə, təhsilin və məşğulluğun inkişafı sahəsində öz dəyərli töhfəsini verəcəyinə ümidvar olduğunu bildirib, sərginin bütün iştirakçılarına, qonaqlara uğurlar arzulayıb.

Türkiyənin Milli Təhsil naziri Ziya Selçuk ölkələrimiz arasında səmimi, dost və qardaş münasibətlərinin mövcudluğundan söz açıb. Ziya Selçuk təhsil sahəsində qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsində bu səfərin böyük əhəmiyyət kəsb edəcəyinə əminliyini ifadə edib. Türkiyəli nazir daha sonra iki ölkə arasında təhsil sahəsində qarşılıqlı əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində görülən işlər haqqında ətraflı məlumat verib. Bildirib ki, hazırda ölkələr arasında təhsil sahəsində çoxsahəli və inkişaf etmiş əlaqələr mövcuddur.

Ziya Selçuk Azərbaycanda göstərilən qonaqpərvərliyə görə minnətdarlıq edərək, bu səfərin təhsil sahəsindəki əlaqələrin daha da möhkəmlənməsinə təkan verəcəyinə inamını ifadə edib.

Avropa Komissiyasında "NEAR" Baş direktorluğunun bölmə rəhbəri Vassilis Maraqos builki sərgidə Avropa İttifaqının birləşmiş stendinin debüt etdiyini söyləyib. Qeyd olunub ki, Avropa İttifaqının stendində Avstriya, Çex Respublikası, Fransa, İsveç, Latviya, Litva, Macarıstan, Niderland, Polşa və Ruminiya kimi ölkələrin səfirlik və universitetləri təmsil olunur.

"Caspian Event Organisers" şirkətinin region üzrə direktoru Edvard Stroun da ənənəvi olaraq hər il keçirilən sərginin maraqla qarşılandığını, ziyarətçilərə təhsil müəssisəsi seçmək üçün geniş imkanlar yaratdığını deyib.

Sərginin rəmzi açılış lenti kəsildikdən sonra qonaqlar və iştirakçılar burada nümayiş olunan stendlərlə tanış olublar.

### Xaricdəki ali məktəblərin təhsil xidmətləri ilə yerindəcə tanışlıq və debüt edənlər

Sərgidə Almaniya, Belarus Respublikası, Çex Respublikası, İran, Qazaxıstan, Özbəkistan, Polşa, Rusiya, Türkiyə, Ukrayna və bir sıra digər ölkələr xaricdə təhsil üzrə imkan və şərtlərini təqdim edir. Həmçinin sərgidə Avropa İttifaqının birləşmiş stendi debüt edir. Sərgi çərçivəsində stenddə "Gənc Avropa səfirləri" şəbəkəsi və Şərq Tərəfdaşlığında Avropa Məktəbi təmsil olunur. Həmçinin burada xaricdə pulsuz təhsil və beynəlxalq təhsil mübadiləsi proqramları, o cümlədən "Erasmus+" proqramı da təqdim olunur.

Türkiyə builki sərgi çərçivəsində milli stend ilə çıxış edir. Rusiyanın regional qrupları Moskva və Novosibirsk şəhərlərinin təhsil müəssisələri ilə təmsil olunur. Lodzi İqtisadi-Humanitar Akademiyası, Moskva Fasiləsiz Təhsil İnstitutu (FTİ), Lüblin Mariya Küri-Skladovskaya Universiteti, Daşkənddə yerləşən Sinqapur Menecmentin İnkişafı İnstitutu, Novosibirsk Diyarının universitetləri, eləcə də Azərbaycanın bir sıra təhsil müəssisə və strukturu sərgidə debüt edir.

### Sərginin fərqləndirici xüsusiyyəti

Məktəbəqədər hazırlıq, orta təhsil, peşə və orta ixtisas təhsili, ali təhsil, magistratura, MBA, aspirantura, doktorantura, xaricdə təhsil və tələbə mübadiləsi üzrə proqramlar, eləcə də dil kursları, yay məktəbləri, treninqlər, dərsliklər və metodiki vəsaitlər, təhsil sahəsində yeni informasiya texnologiyaları, təhsil sektoru üçün avadanlıqlar kimi sektorlar üzrə məlumat və xidmətlər. Bütün bunlarla bağlı məlumatlar sərgidə təqdim edilir.

Builki sərginin fərqləndirici xüsusiyyəti onun texnoloji istiqamətli olmasıdır. Belə ki, "Rusiyada təhsil" layihəsi təhsil sahəsində "VR" texnologiyaları sərgidə təqdim və "Laboratoriya işinin virtual reallıq formatında nümayişi (VR)" adlı təqdimat çərçivəsində məhsullar əyani şəkildə nümayiş edir. Sərgidə debüt edən "leXsolar GmbH" şirkəti bərpa olunan enerji mənbələri ilə işləyən trenajor sistemlərini nümayiş edir.

Sevindirici haldır ki, burada yerli layihəçilər tərəfindən də təhsil sahəsində bir sıra yeni texnologiyalar təqdim olunur.

### Azərbaycan 44 təhsil müəssisəsi ilə təmsil olunur

Sərgidə Azərbaycanın 44 təhsil müəssisəsi təmsil olunur. Onların arasında ADA Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı Mühəndislik Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Universiteti və digər ali təhsil müəssisələri, eləcə də Sumqayıt, Gəncə və Lənkəran regional dövlət universitetləri yer alıb. Azərbaycan İlahiyyat İnstitutu builki sərgidə debüt edir. Tədbirin daha bir debütantı "Buta" uşaq bağçasıdır. Həmçinin sərgidə "Uşaq zonası" üzrə sərginin tərəfdaşı - "Bağçam" uşaq bağçaları şəbəkəsi də iştirak edir.

Təhsil Nazirliyi bu il sərgidə həm təhsilin məzmununu, həm də müasir texnologiyaların əhatə edən stendlərlə geniş pavilyonda təmsil olunur ki, burada da təhsilin bütün pillələri tam əhatə edilib. "Rəqəmsal bacarıqlar" layihəsi, "Univerium" yataqxanası, "Escape room", "Məktəbdənkənar fəaliyyət", "Təhsil Texnologiyaları Mərkəzi", "Gənc Müəllimlər Assosiasiyası", "Bir tələbə-könüllü proqramı", "SABAH" qrupları ilə bağlı stendlər, eləcə də təhsil sisteminin bütün səviyyələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və vahid təhsil informasiya mühitinin yaradılması məqsədini daşıyan "Təhsil Sisteminin İnformasiyalaşdırma İdarəsi", habelə təhsil prosesinin bütün iştirakçılarını bir arada toplayan Təhsil Nazirliyinin "Təhsil TV" onlayn telekanalı kimi layihələrin nümayişi iştirakçılar tərəfindən böyük maraqla qarşılanmaqla yanaşı, ölkə təhsilinin inkişafında tətbiq edilən yeniliklər, innovativ layihələr haqqında kifayət qədər məlumatlanmaq baxımından da xüsusi önəm kəsb edir. Qeyd edək ki, sərgidə, həmçinin Peşə Təhsili üzrə Dövlət Agentliyi, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi də iştirak edir.

### Əlavə tədbirlər üçün "Təqdimat Zona"

Sərgi əlavə tədbirlər proqramı ilə müşahidə olunur. Beləliklə, bir sıra əlavə tədbirlərin keçirilməsi üçün Bakı Ekspo Mərkəzində xüsusi "Təqdimat Zona"sı da yaradılıb ki, bu zonanın sponsoru qismində BP şirkəti çıxış edir.

Sərginin ilk günündə "Təhsil TV" Media Mərkəzində "STEAM", "Rəqəmsal bacarıqlar" layihələri və müəllimlərin işə qəbulu üzrə müsabiqənin nəticələri ilə bağlı təqdimatlar olub. Sərgidə daha sonra "Universitetlərə səyahət" adlı layihə keçirilib. Bu layihə əsnasında sərgi iştirakçıları, hər biri 15 dəqiqə olmaqla, öz təqdimatları çərçivəsində sərginin qonaqlarını təmsil etdikləri təhsil müəssisələrinin imkanları ilə tanış edərək xidmətlər barədə ətraflı məlumat verib və valideynləri maraqlandıran sualları cavablandırıblar.

Qeyd edək ki, 10-12 oktyabr tarixlərində keçirilən sərginin ikinci günü yerli və xarici ali təhsil müəssisələrinin, habelə Azərbaycanın aparıcı şirkət nümayəndələrinin iştirakı ilə "B2B" formatlı görüşlər olacaq.

Oktyabrın 12-də isə sərgi çərçivəsində ilk dəfə olaraq Rusiya Yazıçılar İttifaqının üzvü, "Smeşariki" layihəsinin həmmüəllifi və "Fiksiki" layihəsinin bir neçə seriyasının ssenari müəllifi, tanınmış uşaq yazıçısı İ. M. Şevçuk ilə görüş və digər maraqlı tədbirlər keçiriləcək.

Üç gün davam edəcək 13-cü Azərbaycan Beynəlxalq Təhsil Sərgisinə giriş IX-XI sinif şagirdləri, abituriyentlər, tələbələr və onların valideynləri, eləcə də təhsil işçiləri üçün açıqdır.

*Oxumaq, təhsil almaq və ya təhsilini davam etdirmək, eləcə də təhsildə baş verən yeniliklərlə elə yerindəcə tanış olmaq istəyənlər bu gözəl fürsəti özləri üçün dəyərləndirə bilərlər. Fikrimizcə, elə bu sərginin də başlıca amalı budur.*

# Müəllim əməyinə verilən ən yüksək qiymət


Sevinc Məmmədova


Günel Kazımova


Sevinc Məhərrəmova


Jalə Seyfullayeva


Arzu Səlimova


Zaman Hüseynov

**Niyazi RƏHİMOV**

Dövlətimizin diqqət və qayğısını daim öz üzərlərində hiss edən təhsil işçiləri hər il olduğu kimi, bu il də 5 oktyabr – Beynəlxalq Müəllimlər Günü ərəfəsində sevinc dolu anlar yaşadı. Ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə bir sıra təhsil işçiləri "Əməkdar müəllim" fəxri adına və "Tərəqqi" medalına layiq görüldü. Son illər Təhsil Nazirliyi tərəfindən aparılan geniş-miqyaslı təhsil islahatları, həyata keçirilən layihələr, yaradılan sağlam pedaqoji mühit müəllimlərin peşəkarlıq səviyyəsinin artmasına səbəb olub. Biz də fürsətdən istifadə edib təltif olunan təhsil işçilərinin təəssüratlarını öyrəndik.

## Təhsil işçilərinə verilən dəyər onları gələcək işlərinə daha da ruhlandırır

### "Bu ad böyük bir məsuliyyətdir"

*Sevinc Məmmədova, Bərdə şəhər 8 nömrəli tam orta məktəbin coğrafiya müəllimi, "Əməkdar müəllim":* – Əmək fəaliyyətimə 1995-ci ildə Ə.Qasımov adına Bərdə rayon Qayalı kənd tam orta məktəbində başlamışam. 2009-cu ildən isə Bərdə şəhər 8 nömrəli tam orta məktəbdə coğrafiya müəllimi işləyirəm. Son illərdə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də aparılan geniş islahatları alqışlayıram. Təqdirəlayiq haldır ki, Təhsil Nazirliyinin həyata keçirdiyi bir çox müsabiqə və yarışlar canlı ünsiyyət olmadan onlayn həyata keçirilir. Düşünürəm ki, müasir müəllim tək sinif otaqlarında dərs deməklə kifayətlənməməli, öz savad və dünyagörüşünü daim artırmalı, bizə yaradılan işgüzar mühitdən istifadə etməlidir.

Mən də bu mühitdən istifadə edərək bir sıra layihələr və müsabiqələrdə fəal iştirak edirəm. 2017-ci ildə Təhsil Nazirliyinin elan etdiyi Təhsildə inkişaf və innovasiyalar üzrə I qrant müsabiqəsinə qoşulub "Təbiətimizi tanıyaq, sevək və qoruyaq" adlı layihə ilə qalib olmuşam. 2018-ci ildə isə Respublika "Pedaqoji mühazirələr"inin nəticələrinə görə II dərəcəli diplomla təltif olunmuşam. Pedaqoji fəaliyyətimdə qarşıma qoyduğum əsas məqsəd savadlı olmaqla bərabər, geniş elmi dünyagörüşünə malik vətəndaşlar yetişdirməkdir.

Əməkdar müəllim adı Azərbaycan müəlliminin əməyinə verilən ən yüksək qiymətdir. Bu ad, həmçinin böyük bir məsuliyyətdir. Sonrakı fəaliyyətimdə də bu adı şərəflə daşımağa və özümü daha da inkişaf etdirməyə çalışacağam. Bu adı almaq çox qürurverici bir hissdir. Bu ad mənim timsalımda öz müəllimlik peşəsini sevə-sevə yerinə yetirən hər bir müəllimin zəhmətinə verilən qiymətdir.

İlk dəfə məktəbimizin direktoru Qənbər Ağayevdən fəxri ad almağımla bağlı xəbəri eşidəndə keçirdiyim sevinc hissi sözlə ifadə oluna bilməz. Elə öz Facebook səhifəmdə bununla bağlı ilk paylaşmam da belə oldu. Bu sevinc və qürur hissini mənə yaşatdığına görə Prezidentimiz cənab İlham Əliyevə sonsuz təşəkkürümü bildirirəm.

### "Təbrik edirik, sizə Prezidentimiz "Əməkdar müəllim" fəxri adını verib"

*Jalə Seyfullayeva, Masallı rayonu Şərəfə kənd tam orta məktəbinin riyaziyyat müəllimi, "Əməkdar müəllim":* – 1985-ci ildə BDU-nu riyaziyyatçı, riyaziyyat müəllimi ixtisası üzrə bitirib öz doğma məktəbimizə təyinat aldım. O vaxtdan bu günə kimi Q.İsmayılov adına Şərəfə kənd tam orta məktəbində riyaziyyat müəllimi işləyirəm. Öz peşəmin vurğunuyam, bütün fəaliyyətim boyu yeniliklər axtarıram. Dərs dediyim yüzlərlə şagird ali təhsil alıb müxtəlif sahələrdə çalışırlar. Yetirmələrimlə həmişə fəxr edirəm. Bütün müəllimlər kimi, yetirmələrimin uğurları mənə yeni güc verir, məni daha yüksək şövqlə, enerji ilə işləməyə ruhlandırır. "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram" söyləyən ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı, "Bu gün dünyada savad, bilik, texnologiyalar hər şeyi həll edir" deyən Prezidentimiz İlham Əliyev müəllimlərin əməyini həmişə yüksək qiymətləndirir. Sevindirici haldır ki, mənim də əməyim həmişə yüksək qiymətləndirilib. 2016-cı ildə "Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı", 2017-ci ildə "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuşam.

Bu il oktyabrın 3-də axşamüstü mənə zəng gəldi. Dedilər ki, təbrik edirik, sizə Prezidentimiz "Əməkdar müəllim " fəxri adını verib. Bu xəbər o qədər təsirli oldu ki, 57 illik həyatım bir göz qırpımında xəyalımdan keçdi. Sonra bütün təsvirlər beynimdən sanki silindi. Mənim üçün müəllimlik peşəsində iki böyük varlıq olan rəhmətlik atam və qardaşım gözlərimin önündə dayandı. Qeyri-ixtiyari pıçıldadım: "Ruhunuz şad olsun". Axı mənim müəllim kimi yetişməyimdə onların rolu əvəzsiz idi. Artıq təqaüddə olan, mənim üzərimdə sonsuz əməyi olan müəllimlərimlə də şəxsən görüşüb, öz sevincimi onlarla bölüşdüm. Mənə bu gözəl, əvəzolunmaz hissləri yaşatdığına görə bütün varlığımla ölkə Prezidenti İlham Əliyevə öz dərin minnətdarlığımı bildirirəm. Bu, həm 100 illik yubileyi keçiriləcək məktəbimizə, həm də Masallı təhsilinə verilən ən ali, ən yüksək qiymətdir.

### "Yüksək etimadın arxasında böyük məsuliyyət durur"

*Günel Kazımova, Füzuli rayon 50 nömrəli tam orta məktəbin direktoru, "Tərəqqi" medallı:* – Deyirlər insanın əməyinə yüksək qiymət verildikdə onun yaşamaq, işləmək həvəsi daha da artır. Bu, doğrudan da belədir. Ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalına layiq görüldüyümü eşidəndə çox sevindim. Bu sevinci mənə yaşatdığına görə ölkə başçısına xüsusi minnətdarlığımı bildirirəm. Bu təltif düşünürəm ki, təkcə mənə deyil, eyni zamanda məktəbimizə verilən böyük qiymətdir. Yüksək etimadin arxasında böyük məsuliyyət durur. Biz də bu etimadı layiqincə dogrultmaq üçün əlimizdən gələni edəcəyik.

2011-ci ildən Füzuli rayon 50 nömrəli tam orta məktəbdə direktor vəzifəsində çalışıram. Rəhbərlik etdiyim məktəb Qaradağ rayonu ərazisində Müşfiqabad qəsəbəsində məcburi köçkünlər üçün tikilən massivdə yerləşir. Məktəbimizin kollektivi təhsil islahatlarında yaxından iştirak edir. Son illərdə pedaqoji kollektivimizin gərgin əməyi nəticəsində məktəbimiz xeyli uğurlara imza atıb. Təsadüfi deyil, məktəbimiz 2017 və 2019-cu illərdə Təhsil Nazirliyi tərəfindən keçirilən Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqələrin qalibi olub. Bundan başqa, 2019-cu ildə Təhsil Nazirliyi tərəfindən keçirilən digər bir layihədə- "Pedaqoji mühazirələr"də də iştirak etmişəm və I yerin qalibi olmuşam. 2018-2019-cu ildə məktəbimiz daha bir uğura imza atıb. Belə ki, təhsil ocağımız Böyük Britaniya hökuməti ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində ingilis dili resurs mərkəz kimi seçilib. İstər IX, istərsə də XI siniflər üzrə keçirilən buraxılış imtahanlarında şagirdlərimiz yüksək nəticələr əldə edib. Məzunlarımız qəbul imtahanlarında da məktəbimizin adını şərəflə daşıyır. Məqsədimiz ölkəmiz üçün layiqli vətəndaşlar yetişdirməkdir.

### "Bu ad mənim üçün çox əziz və qiymətlidir"

*Arzu Səlimova, Azərbaycan Milli Konservatoriyası tərkibində Musiqi Kollecinin kamança müəllimi, "Əməkdar müəllim":* – Hər il Beynəlxalq Müəllimlər Günü ərəfəsində təhsil işçilərinin böyük bir qrupunun ölkə başçısı tərəfindən fəxri adlarla mükafatlandırılması artıq yaxşı bir ənənə halını alıb. Bu, müəllimlərin əməyinin daim dövlətimizin diqqətində olduğunun ən bariz göstəricisidir. Bu il də xeyli təhsil işçisi mükafatlandırıldı. Mən də "Əməkdar müəllim" adına layiq görüldüm. Bu ad mənim üçün çox əziz və qiymətlidir.

1978-ci ildə Azəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumunun kamança sinfini fərqlənmə diplomu ilə bitirmişəm. Elə həmin il Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına daxil oldum və 1983-cü ildə həmin təhsil müəssisəsini "Kamança" və "Dirijorluq" ixtisasları üzrə fərqlənmə diplomu ilə bitirdim. Pedaqoji fəaliyyətə 1979-cu ildə Asəf Zeynallı adına Musiqi Texnikumunda kamança müəllimi kimi başlamışam. Musiqini və müəllim sənətini çox sevirəm. Bir sıra müsabiqə və yarışların qalibiyəm. Bundan başqa, musiqi ilə bağlı bir neçə dərs vəsaitinin də müəllifiyəm. Eyni zamanda, S.Rüstəmov adına Azərbaycan Televiziyası və Radiosu Xalq çalğı alətləri orkestrində fəaliyyət göstərirəm. Yetişdirdiyim tələbələr arasında Əməkdar artistlərdən İsmayıl Həmidov, Rauf İslamov, Toğrul Əsədullayev, Aqib Seyidov kimi ifaçılar və bir çox müsabiqə qalibləri vardır.

"Əməkdar müəllim" fəxri adını aldığımı ilk dəfə yaxınlarımdan eşitdim və çox sevindim. Bu ad təkcə mənə yox, təhsilimizə göstərilən diqqət və qayğıdır. Təhsilə və təhsil işçilərinə göstərdiyi diqqət və qayğıya görə möhtərəm Prezidentimiz İlham Əliyevə dərin təşəkkürümü bildirirəm.

### "Uğurlarımı birinci şagirdlərimlə bölüşürəm"

*Sevinc Məhərrəmova, Bakıdakı Ankara liseyinin ibtidai sinif müəllimi, "Tərəqqi" medallı:* – Hələ pedaqoji universitetdə oxuyanda qarşıma məqsəd qoydum ki, fərqli müəllim olacağam. Hər gün gəlib bir neçə saat məktəbdə keçirib evə qayıtmaqla müəllimlik mənə maraqlı gələ bilməzdi. O vaxtdan qərara aldım ki, dərsi elə qurum ki, dərslərim şagirdlər üçün maraqlı olsun. Pedaqoji fəaliyyətim dövründə özümə məxsus metodika ilə dərs deyirəm. Zənn edirəm ki, bu fərqli metodika ilə keçdiyim dərslər sevilir.

Mənim üçün xoş bir haldır ki, mənim zəhmətim dövlət tərəfindən yüksək qiymətləndirilib və "Tərəqqi" medalına layiq görülmüşəm. Bu, ikiqat məsuliyyətdir. Biz müəllimlərə diqqət göstərdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm.

Təltif olunmağımla bağlı xəbəri eşidəndə çox təsirləndim. Pedaqoji fəaliyyətim, şagirdlərim kino lenti kimi gözümün qabağından gəldi keçdi. Mən həmişə uğurlarımı birinci öz şagirdlərimlə bölüşmüşəm. İbtidai sinifdə sagirdlə müəllim arasında yaranan əlaqə bir doğmalıq daşıyır. Şagirdlərim ibtidai sinfi bitirdikdən sonra da onlarla tez-tez görüşürəm. Düşünürəm ki, mənə verilən ad tək mənim yox, mənimlə bərabər yüzlərlə şagirdimin də sevincinə səbəb olub.

### "Bu ali mükafat məni daha da əzmlə çalışmağa həvəsləndirəcək"

*Zaman Hüseynov, Astara rayonu Pensər kənd 2 nömrəli tam orta məktəb-liseyin kimya müəllimi, tərbiyə işləri üzrə direktor müavini, "Tərəqqi" medallı:* – 1995-ci ildə Bakı Dövlət Universitetinin kimya fakültəsini fərqlənmə diplomu ilə bitirmişəm. 1996-cı ildən hal-hazıra kimi Astara rayonu Z.Ə.Əhmədzadə adına Pensər kənd 2 nömrəli tam orta məktəb-liseydə kimya müəllimi və tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışıram. Pedaqoji fəaliyyətimdə müxtəlif mükafatlar, fəxri fərmanlar və diplomlarla təltif olunmuşam. Müxtəlif illərdə dərs dediyim şagirdlər qəbul imtahanında kimya və biologiya fənləri üzrə yüksək nəticələr göstərib. Respublika fənn olimpiadalarında da şagirdlərim məktəbimizi uğurla təmsil edir.

Təltif olunanlar arasında adımı görüncə çox qürurlandım və fərəh duydum. Anladım ki, çəkilən heç bir əziyyət mükafatsız qalmır. Məni bu mükafata layiq gördüyünə görə Prezidentimiz cənab İlham Əliyevə sonsuz təşəkkürlərimi bildirirəm. Aldığım bu ali mükafat məni daha da əzmlə çalışmağa, qurub-yaratmağa həvəsləndirəcək. Kollektivimizin üzvlərindən, yaxınlarımdan, tanışlarımdan çoxlu təbriklər alıram. Təbii ki, bu, məni sevindirir və qürurlandırır. Eyni zamanda, məsuliyyət hissimi də artırır. Bundan sonra da çalışacağam ki, fəxri ada layiq olum, etimadı doğruldum.

# BDU-da görkəmli şərqşünas alim Aida İmanquliyevanın 80 illik yubileyi qeyd olunub



Bakı Dövlət Universitetində (BDU) görkəmli şərqşünas alim, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın anadan olmasının 80 illik yubileyi münasibətilə tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə II Fəxri xiyabanda görkəmli alimin məzarını ziyarət edib, xatirəsini dərin ehtiramla anıb, məzarı önünə gül dəstələri qoyublar.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev professor Aida İmanquliyevanın şərqşünaslıq elminə töhfələrindən danışıb. Bildirib ki, ömrünü Şərq mədəniyyətini və məhcər ədəbiyyatını öyrənməyə həsr edən Aida xanım İmanquliyeva müasir ərəb ədəbiyyatının tədqiqində yeni səhifə açıb, öz fundamental araşdırmaları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, dünya şərqşünaslığını da zənginləşdirib və inkişaf etdirib.

Azərbaycan şərqşünaslığında ilk qadın elmlər doktoru, professor Aida İmanquliyevanın Şərq-Qərb ədəbi əlaqələrini araşdıran ilk azərbaycanlı olduğunu vurğulayan rektor alimin analitik təfəkkürü və zəngin mütaliəsini tədqiqatlarının əsas uğurunu şərtləndirən amillər kimi qeyd edib.

Rektor Elçin Babayev görkəmli alimin Azərbaycan şərqşünaslıq elmini beynəlxalq konfranslarda layiqincə təmsil etməsindən, yüksəkixtisaslı ərəbşünas kadrların hazırlanmasında, bir sıra görkəmli ərəb yazıçılarının əsərlərinin Azərbaycan dilinə tərcümə olunmasında xidmətlərindən danışaraq, uzun illər Bakı Dövlət Universitetində səmərəli pedaqoji fəaliyyət göstərdiyini, ərəb filologiyası fənnindən oxuduğu maraqlı mühazirələri ilə yetirmələrinin yaddaşlarında dərin iz buraxdığını da diqqətə çatdırıb. Qeyd olunub ki, Aida İmanquliyeva bütün bunlarla yanaşı, gözəl həyat yoldaşı, mehriban ana, qayğıkeş nənə, vəfalı dost, olduqca zərif bir qadın idi. Yüksək vəzifələr, elmi titullar, ictimai həyatda fəallıq onu bu ümdə insani keyfiyyətlərdən əsla məhrum edə bilməmişdi.

BDU-nun Şərqşünaslıq fakültəsinin dekanı Elxan Əzizov Aida İmanquliyevanın həyat və yaradıcılığı haqqında məruzə ilə çıxış edib. Bildirib ki, 1962-ci ildə Şərqşünaslıq fakültəsinin ilk ərəbşünas məzunlarından biri olan Aida İmanquliyeva 1966-cı ildə Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda namizədlik dissertasiyası müdafiə edib, həmin ildən Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda işə başlayıb, ərəb filologiyası şöbəsinin müdiri, elmi işlər üzrə direktor müavini, 1991-ci ildən ömrünün sonunadək direktor vəzifələrində çalışıb. 1989-cu ildə Tbilisi şəhərində doktorluq dissertasiyasını müdafiə edib. Aida xanım elmi işlərlə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olub, uzun müddət BDU-nun Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatından dərs aparıb. Qeyd olunub ki, Rusiyada, Ukraynada, Almaniyada, İngiltərədə, Fransada, Özbəkistanda, Gürcüstanda, bir çox ərəb ölkələrində yaxşı tanınan, əsərlərinə tez-tez istinad edilən Aida İmanquliyeva yeni və müasir ərəb ədəbiyyatının ən nüfuzlu, ən fundamental tədqiqatçılarından biri kimi şərqşünaslıq tarixinə əbədi daxil olmuş azsaylı mütəxəssislərdəndir. Onun ərəb məhcər ədəbiyyatının görkəmli nümayəndələrinin həyat və yaradıcılığına həsr etdiyi tədqiqatlar öz orijinallığı, zənginliyi, nəzəri dərinliyini, konseptuallığını daim qoruyub saxlayan və buna görə də mütəxəssislərin stolüstü kitablarına çevrilmiş əsərlərdir. Aida İmanquliyevanın bir çox xarici dillərə tərcümə edilmiş “Yeni ərəb ədəbiyyatı korifeyləri” kitabı onun çoxillik gərgin tədqiqatlarının yekunu, ərəb məhcər ədəbiyyatı haqqında yazılmış ən sanballı tədqiqat əsəridir. Kitab ərəb dilinə tərcümə edildikdən sonra ərəb alimləri arasında da geniş maraq doğurub, görkəmli mütəxəssislər tərəfindən yüksək qiymətləndirilib.

Sonra Milli Məclisin deputatı Jalə Əliyeva və magistr Nigar Bağırlı alimin şərqşünaslıq elminə töhfələrindən danışıblar. Vurğulanıb ki, Aida İmanquliyevanın zəngin elmi irsi şərqşünaslıq elmi ilə məşğul olan hər bir tədqiqatçı üçün dəyərli və etibarlı mənbədir.

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, BDU-nun Şərqşünaslıq fakültəsinin tədrisdə və ictimai fəaliyyətində fərqlənən 2 tələbəsinə “Aida İmanquliyeva adına təqaüd”ün verilməsi barədə qərar qəbul edilib.

Yubiley tədbiri Aida xanım İmanquliyevaya həsr olunmuş filmin nümayişi ilə başa çatıb.

# Türkiyə Respublikasının Milli Təhsil naziri Bakı Dövlət Peşə Təhsil Mərkəzində



Türkiyə Respublikasının Milli Təhsil naziri Ziya Selçuk Azərbaycana rəsmi səfəri çərçivəsində Koreya təhsil standartları əsasında yaradılmış Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində olub.

Türkiyənin Milli Təhsil naziri yüksək standartlara cavab verən bu təhsil müəssisəsində təhsilalanlar üçün yaradılmış şəraitlə yaxından tanış olub.

# Kollecdə Xalq artisti ilə görüş keçirilib



**Niyazi RƏHİMOV**

Oktyabrın 10-da Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecində görkəmli Azərbaycan bəstəkarı, Xalq artisti, “Şöhrət” ordenli, Prezident təqaüdçüsü Faiq Sücəddinovla görüş keçirilib. Görüşdə kollecin müəllim-tələbə kollektivi ilə yanaşı, təhsil, mədəniyyət işçiləri, KİV nümayəndələri iştirak edib.

Kollecin direktoru, əməkdar incəsənət xadimi, professor Nazim Kazımov tədbiri açıq elan edib, bəstəkarın həyat və yaradıcılığı haqqında iştirakçılara geniş məlumat verib. Faiq Sücəddinovla oxuduğu illər ərzində maraqlı xatirələrdən də danışan N.Kazımov həmin illərdə direktor olmuş professor Azər Abdullayevi də yad edib. Direktor onu da qeyd edib ki, Faiq Sücəddinov 50 il bundan öncə, 1969-cu ildə Asəf Zeynallı adına Musiqi Texnikumunu, 1981-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirib. Xalq artistinin bəstəkarlıq ixtisası üzrə Xəyyam Mirzəzadədən dərs aldığını da sözlərinə əlavə edib. Bəstəkarın fəaliyyətindən söz açan N.Kazımov bildirib ki, onun məşhur əsərlərindən piano və simfonik orkestr üçün konsert, simli kvartet, piano və kamera orkestri üçün konsert, kamera orkestri üçün skertso, xor və simfonik orkestr üçün “Atatürk” odası, müxtəlif tərkibli ansambllar üçün caz kompozisiyalarını göstərmək olar. Faiq Sücəddinov Azərbaycanda mahnı janrının təkamülündə böyük rol oynamışdır. Onun mahnıları ilk səslənmədən xalqın sevgisini qazanmışdır.

Görüşdə çıxış edən Faiq Sücəddinov müəllim və tələbələrlə çox maraqlı və səmimi söhbət aparıb, onları maraqlandıran sualları cavablandırıb. O, öz əsərlərini ifa edib. Görüş çox maraqlı və rəngarəng keçib.

Görüşdə kollecin IV kurs tələbəsi, fortepiano üzrə respublika və beynəlxalq müsabiqələr laureatı Əli Adıgözəlovun ifası bəstəkarda xoş hisslər yaradıb. O, gənc ifaçıya bir sıra tövsiyələr verib.

Sonda kollecin rəhbəri Nazim Kazımov bu yaddaqalan səmimi görüşə görə bəstəkara təşəkkür edib.

# “Kimya elminə müasir baxış”

Naxçıvan Dövlət Universitetində “Kimya elminə müasir baxış” adlı respublika elmi konfransı keçirilib.

Universitetin rektoru Saleh Məhərrəmov kimya elminin inkişaf etdiyini, son illər qazanılan uğurlar haqda ətraflı məlumat verib.

Kimya kafedrasının müdiri Tofiq Əliyev korroziya proseslərindən danışaraq qeyd edib ki, əksər metallar korroziya nəticəsində dağılaraq vaxtından əvvəl sıradan çıxır ki, bu da sonda külli miqdarda dövlət vəsaitinin itirilməsinə gətirib çıxarır. Bildirilib ki, təxmini statistik hesablamalara görə, hər il dünya miqyasında istehsal olunan metal və ərintilərin təxminən 8-12%-i korroziya nəticəsində itkiyə gedir ki, bu da milyardlarla dolların itirilməsi deməkdir.

Fizika üzrə elmlər doktoru, professor İmaməddin Əmiraslanov “Kristallar, kvazikristallar və türk sənəti” adlı çıxışında təbiətdə mövcud olan bərk maddənin amorf və kristallik adlı iki halından danışıb. Vurğulanıb ki, amorf maddələrə örnək kimi şüşə və plasmanı, ikincilərə isə xörək duzu, şəkər, almaz və sair maddələrin kristallarını göstərmək olar. Diqqətə çatdırılıb ki, kvazikristalların kəşfi 2011-ci ilin kimya üzrə Nobel mükafatına layiq görülüb. Həm də bizim üçün çox qürurverici ki, kvazikristal prinsipli olduğu təsdiqlənmiş ən qədim aperiodik ornament məhz Azərbaycanın Marağa şəhərindəki octaqonal prizma formalı Gunbad-i Kabud məqrəbəsinin divarlarını bəzəyir.

# “Bu sərgi bizə universitetimizi geniş arenada təbliğ etmək imkanı yaradır”

## 13-cü Azərbaycan Beynəlxalq Təhsil Sərgisi iştirakçılarının təəssüratları

**Niyazi RƏHİMOV**

Ukraynanın Xarkov Radioelektronika Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Murad Ömərov sərgi haqqında təəssüratlarını bizimlə bölüşüb. Sərginin yüksək səviyyədə təşkil olunduğunu deyən qonaq bu kimi sərgilərin universitetlərin yaxından tanınmasında xüsusi əhəmiyyəti olduğunu deyib: “Universitetimiz Ukraynada böyük nüfuza malik ali təhsil müəssisələrindəndir. 90 yaşlı universitetimizdə hazırda əsasən İT mütəxəssisləri hazırlayırıq. Universitetdə mövcud olan fakültələrin 70%-i İT, digər 30%-i isə elektronika sahələrini əhatə edir. Hələ Sovetlər Birliyi dövründə elektronika üzrə xüsusi kadrlar hazırlayan universitetimiz bu sahədə beynəlxalq arenada öz sözünü demiş təhsil ocaqlarındandır. Universitetimiz həm də Ukraynada İT və kiber təhlükəsizliyi üzrə baza universiteti kimi tanınır. Diqqətə çatdırmaq istəyirəm ki, Ukrayna İT mütəxəssislərinin hazırlanması istiqamətində dünyada xüsusi reytinqə malikdir. Dünyanın ən yaxşı İT mütəxəssisləri də məhz Ukraynada təhsil alan gənclərdir. Bu məsələdə Ukrayna dünya ölkələri arasında ilk beşliyə daxildir. Azərbaycan gənclərinin də universitetimizə maraq göstərmələrini arzulayıram. Düşünürəm ki, İT sahəsi bu gün dünyada ən vacib sahələrdəndir”.

### “Universitetimizdə azərbaycanlı tələbələr də oxuyur”

Macarıstan Dövlət Universitetinin təmsil edən Mixayıl Qruber sərgidəki mühitdən danışıb. O, bildirib ki, bu kimi sərgilər dünyanın təhsil mənzərəsini nümayiş etdirir. Sərgilərin həm də universitetlərarası əməkdaşlığın formalaşmasına töhvə verdiyini deyən qonaq universitetləri haqqında da geniş məlumat verib: “Azərbaycanlı tələbələr Macarıstandakı universitetlərə böyük maraq göstərirlər. Hazırda ölkəmizdə və bizim universitetdə Azərbaycanlı tələbələrə rast gəlmək olur. Bu sərgi bizə universitetimizi geniş arenada təbliğ etmək imkanı yaradır”.

### “Sərgi yüksək səviyyədə təşkil olunub”

Sərgidə iştirak edən İsveçin Azərbaycandakı səfirliyinin ticarət və mədəniyyət məsələləri üzrə məsul şəxsi Firuz Rüstəmov da fikirlərini bizimlə bölüşüb. O, sərgidə iştirak etməkdə məqsədlərinin İsveç universitetlərini Azərbaycan gənclərinə yaxından tanınmaq, İsveç hökumətinin bu universitetlərə tətbiq etdiyi təqaüd proqramları haqqında geniş məlumat verməkdir. “Bu il artıq 3-cü ildir ki, İsveç İnstitutunun təqaüd proqramları çərçivəsində azərbaycanlı tələbələr İsveçdə təhsil almaqda davam edir. İndiyə qədər 34 azərbaycanlı tələbə bu təqaüd proqramlarından istifadə edib. Biz istəyirik ki, bu tələbələrin sayı daha da artıq olsun”. İsveç səfirliyi olaraq Azərbaycanda keçirilən Beynəlxalq Təhsil Sərgisində birinci dəfə iştirak etdiklərini də deyən səfirlik nümayəndəsi sərginin yüksək səviyyədə təşkil olunduğunu da sözlərinə əlavə edib.

### “Azərbaycanda keçirilən bütün sərgilərdə iştirak etməyə çalışırıq”

İstanbul Aydın Universitetinin nümayəndəsi Melikə Taşçı da təmsil etdiyi ali təhsil müəssisəsi haqqında danışıb: “Universitet olaraq Azərbaycanda keçirilən bütün sərgilərdə iştirak etməyə çalışırıq. Artıq 4-cü dəfədir ki, bu kimi sərgilərdə iştirak etmişik. Sərgidə iştirak etməkdə məqsədimiz azərbaycanlı gənclərə universitetimizdə təhsil almaları üçün yol göstərmək, onlara qapı açmaqdır. Azərbaycanlı tələbələr Türkiyə universitetlərinə böyük maraq göstərir. Bu, bizim çox xoşumuza gəlir. Universitetimizin Azərbaycandakı ali təhsil ocaqları ilə sıx əlaqələri var”. Təmsil etdikləri universitetdə Azərbaycandan çoxlu sayda tələbə oxuduğunu da deyən Melikə Taşçı həmin tələbələrin çalışqanlığı ilə digər tələbələrdən seçildiyini də bildirib.

### “UFAZ-ın ən böyük üstünlüklərindən biri unikal laborotoriyaya malik olmasıdır”

UFAZ-ın nümayəndəsi Şəbnəm Məmmədli isə təhsil ocağının artıq 3-cü dəfədir ki, sərgidə iştirak etdiyini deyib. Bu sərgilərdən sonra universitetə gənclərin marağının daha da artdığını deyən Ş.Məmmədli universitetin yeni yaranmasına baxmayaraq artıq kifayət qədər nüfuz qazandığını diqqətə çatdırıb: “UFAZ-ın ən böyük üstünlüklərindən biri unikal laborotoriyaya malik olmasıdır. Bu laboratoriya Strasburq Universitetinin standartlarına uyğundur. Burada tələbələr çox asanlıqla öz nəzəri biliklərini təcrübi biliklərə keçirə bilirlər”. UFAZ-ın nümayəndəsi onu da qeyd edib ki, sərginin ən əhəmiyyətli cəhətlərindən biri də burada çoxlu əlaqələrin yaranmasıdır.

# BMU ilə AMEA-nın iki strukturu arasında əməkdaşlıq müqaviləsi imzalanıb

## Sənəddə bir çox istiqamətlərdə birgə əməkdaşlıq məsələləri əksini tapıb



Bakı Mühəndislik Universiteti (BMU) ilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Strateji Elmi Tədqiqatlar Mərkəzi və İdarəetmə Sistemləri İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Bu məqsədlə BMU-da keçirilən tədbirdə çıxış edən universitetin rektoru, professor Havar Məmmədov bildirib ki, müasir dünyada hər bir ölkənin dayanıqlı və davamlı inkişafı üçün cəmiyyətin bütün sahələrində beynəlxalq rəqabət prinsiplərinə çevik surətdə yiyələnməsi tələb olunmaqdadır: "Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəmizdə intellektual kapitalın inkişafı, eləcə də innovativ cəmiyyətinin formalaşması istiqamətində həyata keçirdiyi sosial-iqtisadi siyasətə uyğun olaraq universitetimizdə müvafiq işlər həyata keçirilməkdədir. Universitetdə Texnopark və İnnovasiya Mərkəzi fəaliyyət göstərir ki, burada innovasiyaların, eləcə də innovativ sahibkarlığın, startapların inkişafına dəstək veririk".

Rektor ölkəmizdə innovasiya ekosisteminin formalaşmasında, o cümlədən startapların inkişafında xüsusi rol oynayan BMU-nun bu sahədə müxtəlif şirkətlərlə əməkdaşlıq etdiyini nəzərə çatdırıb: "BMU tədris prosesi ilə yanaşı, elmi-tədqiqat işlərinin aparılması, dünyada mövcud qlobal problemlərin həlli istiqamətində tədqiqatların təşkili və tədris prosesinə inteqrasiyasına böyük önəm verməkdədir". BMU-nun AMEA-nın adıçəkilən müvafiq qurumları ilə əsası qoyulan əməkdaşlığına toxunan H.Məmmədov ümidvar olduğunu bildirib ki, əməkdaşlıq tədris prosesinə elmin inteqrasiyasına, tələbələrin elmin incəliklərinə yiyələnməsinə, yeni elmi nəticələrin alınmasına və onların kommersiyalaşdırılmasına xidmət edəcək. Eyni zamanda, birgə fəaliyyət aparılan islahatların ən aktual istiqamətlərindən biri hesab olunan innovasiya ekosisteminin gücləndirilməsinə, innovativ sahibkarlığın inkişafına ciddi töhfələr verəcək.

AMEA Strateji Elmi Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi elmlər üzrə elmlər doktoru Fətəli Abdullayev qeyd edib ki, BMU-da innovasiyalar, eləcə də innovativ sahibkarlıq və startaplar yüksək səviyyədə inkişaf edib: "BMU ilə bağladığımız əməkdaşlıq müqaviləsi bizim işimizin ümumi inkişafına xüsusi töhfə olacaq. Biz çalışacağıq ki, layihələrdə iştirak edən tələbələrə lazımi şərait yaradılsın. Eyni zamanda, biz də sizin müasir laboratoriyalarınızdan istifadə edəcəyik. İnanıram ki, əməkdaşlığımız tərəflərlə yanaşı, ölkəmizdə bu sahənin inkişafına bir töhfə olacaq".

AMEA İdarəetmə Sistemləri İnstitutunun direktoru, akademik Telman Əliyev çıxışında əməkdaşlığın uğurlu olacağını vurğulayıb. O bildirib ki, hər üç tərəfin kifayət qədər elmi və təcrübi potensialı var. Bu əməkdaşlıq sayəsində yeni innovativ elmi-tədqiqat işlərinin aparılması və yeni texnologiyaların işlənilməsi həyata keçiriləcək.

Digər çıxışlardan sonra BMU-nun rektoru, professor Havar Məmmədov, AMEA-nın Strateji Elmi Tədqiqatlar Mərkəzinin direktoru, siyasi elmlər üzrə elmlər doktoru Fətəli Abdullayev və AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun direktoru, akademik Telman Əliyev əməkdaşlıq müqaviləsini imzalayıblar.

Müqavilənin məqsədi BMU-da fəaliyyət göstərən ixtisaslar üzrə mütəxəssis hazırlığında və biliklərin yayılmasında maddi-texniki, elmi metodiki və təşkilati tədbirlərin, müxtəlif sahə və istiqamətlər üzrə fundamental və tətbiq yönümlü elmi-tədqiqat işlərinin aparılması, yeni texnologiyaların işlənilməsi, əldə olunan elmi nəticələrin tədris prosesində və müxtəlif istehsalat sahələrində tətbiq olunmasıdır.

Sənəddə bir çox istiqamətlərdə (tədris bazasının möhkəmləndirilməsi və genişləndirilməsi, birgə elmi-praktik tədbirlərin təşkil olunması, təhsillə bağlı layihələrdə birgə iştirak, elmi əsərlərin, tədris və tədris-metodik resursların hazırlanması, tələbələrin yay təcrübə proqramlarında iştirakının təmin edilməsi, fəaliyyət istiqamətlərinə uyğun mövzular çərçivəsində kursların təşkili, sənayenin aktual problemlərinin həllində birgə elmi-tədqiqat işlərinin aparılması, layihələrin həyata keçirilməsi və s.) birgə əməkdaşlıq məsələləri öz əksini tapıb.

Sonda qonaqlar BMU-nun maddi-texniki bazası ilə tanış olublar.

# ADPU-nun beynəlxalq əlaqələri genişlənir

## Ukraynanın Təhsil Menecerləri Universiteti ilə akademik əməkdaşlığa dair razılıq əldə olunub



Ukrayna dövlət ali təhsil müəssisəsi "Təhsil Menecerləri Universiteti"nin əsas təşkilatçılığı ilə 1-2 oktyabr 2019-cu il tarixlərdə adıçəkilən universitetdə "Diplomdansonrakı təhsil liderlərinin beynəlxalq forumu" keçirildi.

Forumun Təşkilat Komitəsində Azərbaycan, Belarus, Polşa və Özbəkistanın müvafiq ali məktəblərinin rektorları və prorektorları təmsil olunurdu. Forumun plenar iclasında və panel iclaslarında tanınmış mütəxəssislərin təhsil idarəçiliyi üzrə 100-ə qədər məruzəsi dinlənilib müzakirə olundu.Təhsil Menecerləri Universitetinin rektoru, dosent Nikolay Kiriçenkonun şəxsi dəvəti ilə Forumda iştirak edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin elm və innovasiyalar üzrə prorektoru, fizika-riyaziyyat elmləri doktoru, professor Asəf Zamanovun plenar iclasda "Neprerıvnoe obrazovanie v informaçionnom obşestve: realii i perspektivı" ("İnformasiya cəmiyyətində davamlı təhsil: reallıqlar və perspektivlər") mövzusunda məruzəsi dinlənilib.

Forum çərçivəsində Təhsil Menecerləri Universiteti ilə Azərbaycan Dövlət Pedaqoji Universiteti arasında akademik əməkdaşlığa dair Memorandum imzalanıb. Memorandumda universitetlərin mövcud resursları və intellektual potensialları əsasında professional təhsil sahəsində birgə elmi-tədqiqat və elmi-metodik iş aparılması; bakalavrların, magistrlərin və doktorantların hazırlanması üzrə iş təcrübəsinin mübadiləsi, təhsil işçilərinin ixtisasının artırılması və yenidənhazırlanması üzrə proqram mübadiləsi və onların qiymətləndirilməsi, distant təlim kurslarının birgə təşkili, mühazirə və seminarların keçirilməsi üçün professor-müəllim heyətinin mübadiləsi, innovativ layihələrin hazırlanması məqsədilə pedaqoji və rəhbər işçi qruplarının mübadiləsi, diplomdansonrakı təhsilin inkişaf etdirilməsi, beynəlxalq təhsil layihələrində birgə iştirak, regional və beynəlxalq elmi simpozium, konfrans, seminar və treninqlərin birgə təşkili, dövri nəşr məhsullarının mübadiləsi, yeni "Təhsil Menecerləri" dövri-elmi jurnalının birgə hazırlayıb nəşr etdirilməsi və s. nəzərdə tutulub.

Forumda iştirak edən digər ali məktəblərin rəhbərləri ilə elm və təhsil sahəsində gələcək əməkdaşlıq məsələləri də müzakirə edildi.

# Qalib/Qalib



Sənan NƏCƏFOV

Müasir dünyada həyatın problem dalğalarına sinə gərmək, ayaq üstə qalmaq asan başa gəlmir, həyat yetərli qədər sərtdir. Amma sərtliyi, çətinliyi, ağrı-acısı ilə yanaşı, xeyirxahlığı və mərhəməti ilə də əhatələnmişik. İnternetdə xeyirxah əməli, yaxınlarına, dostlarına deyil, hətta tanımadıqları insanlara görə özünü təhlükəyə atan, əməli saatlarla ayaqüstə alqışlanası insanların əks olunduğu yetərli qədər videolar var. Bəli, belə insanların hərəkətləri dünyanın bu üzü ilə dərk edilməsi üçün gözəl imkandır.

İndi gəlin başqa bir rakursdan baxaq, biznesdə nailiyyət/iflas, idmanda uğur/uğursuzluq, həyatda rəqabət/əməkdaşlıq yönündən. Yəni, yolu keçməkdə çətinlik çəkən bir ahıl insana kömək də var, biznesdə, idmanda rəqiblə əldə rəqib kimi davranmaq da.

Rəqabət elə bir platformada dayanır ki, orada şəxsi üstünlük, fərqlilik, müstəsnalıq hissi, eqo və öz dəyərini bilmə bacarığı rahatlıqla yer alıb. Bəllidir ki, rəqabət əməkdaşlığa antoqonistdir. Bax, bu məqamda müdriklik rəqabətlə əməkdaşlıq arasında qızıl ortanı tapmaq bacarığıdır. Mütəxəssislərin qənaətinə görə, şəxsiyyətlərarası münasibətlərdə 6 müxtəliflik mövcuddur.

"Mən qalib gəldim, sən də qalib gəldin", "Mən qalib gəldim, sən məğlub oldun", "Mən məğlub oldum, sən qalib gəldin", "Mən məğlub oldum, amma sən də məğlub oldun", "Mən qalib gəldim, başqalarının mövqeyi məni qəti maraqlandırmır", "Hər iki tərəf nəinki öz marağı haqda düşünür, kimin-

Daha maraqlı bir məqam. Futbol azarkeşləri bilirlər ki, Şotlandiya futbol çempionatında 100 ilin əbədi rəqibləri "Seltik" və "Qlazqo Reyncers" qarşılaşması dünyanın ilk onluğunda olan derbilər siyahısında idi. Bu iki komandanın bir-birinə qarşı mübarizəsi, onların Avropanın digər, müxtəlif turnirlərində də özünü büruzə verib, bir-birinə rəqabətə görə daha çox güc sərf ediblər. Yəni, digər klublara qarşı hər zaman ciddi və çətin rəqib olublar. Amma "Qlazqo Reyncers" klubunun maliyyə çətinlikləri üzündən dağılması və aşağı liqaya keçməsi, "Seltik" klubunu da zəiflətdi. Rəqabətsizlik mühiti klubu adiləşdirdi.

Nəhayət, sonuncu misal. Dünyaca məşhur tenor Plasido Dominqo madridli, digər fenomen Xose Karreras isə kataloniyalıdırlar. Dünyanın 3 nəhəng tenorundan ikisi, iki ispan istedad uzun illər düşmən olub. Hətta təşkil olunan konsertlərdə biri iştirak edirmişsə, digəri həmin səhnəyə çıxmaqdan

**Rəqabət "Mən qalib gəldim, sən məğlub oldun" rejimində işləyir. Mənim qələbəm sənin məğlubiyyətindən xəbər verir. Əməkdaşlıq isə "mən də qalib gəldim, sən də" düsturu ilə mümkündür. Marketoloq Stiven Kovi yazır: "Qalib/Qalib"- insanlar arasında bütün işgüzar əlaqələrdə hər iki tərəfin mənfəət əldə etməsi üçün ürək və düşüncənin xüsusi köklənməsidir (ayarlama).**

sə qalib gəlməyəcəyinə şübhələr olduğu halda, ümumiyyətlə, qoşulmamağı qərar verir".

Rəqabət "Mən qalib gəldim, sən məğlub oldun" rejimində işləyir. Mənim qələbəm sənin məğlubiyyətindən xəbər verir. Əməkdaşlıq isə "mən də qalib gəldim, sən də" düsturu ilə mümkündür. Marketoloq Stiven Kovi yazır: "Qalib/Qalib"- insanlar arasında bütün işgüzar əlaqələrdə hər iki tərəfin mənfəət əldə etməsi üçün ürək və düşüncənin xüsusi köklənməsidir (ayarlama).

Təəssüf ki, şəxsiyyətlərarası münasibətdə daha müdrik "Mən qalib, sən qalib. Mənim qələbəm, sənin qələbəndir" düşüncəsi "Mənim qələbəm, sənin məğlubiyyətin", "Mən qalib oldum, sən məğlub", "Mən məğlub oldum, sən də məğlub oldun" rejiminə uduzur. Çünki düşüncələrdə "Eyib etməz, qoy mənim inəyimi aparsınlar, əvəzində sənin 2 inəyin məhv olsun" zəlisi gəzir. Və bu insanların beynində "Qələbə üçün bütün vasitələr keçərlidir", "Yalnız qaliblər tarix yazırlar", "Qaliblər mühakimə olunmurlar" hakimdir. Bu xarakter adətən qəddar uğursuzluğa məhkumdur.

İndi bəzi misallarla fikirlərimizi arqumentləşdirək. Tomas Edison və Tesla, Bill Qeyts və Stiv Cobs, Plasido Dominqo və Xose Karreras və başqaları böyük futbol derbilərində olduğu kimi, barışmaz rəqib, bir-birinə aman verməyən biznes vahidləri kimi xatırlanırlar. Halbuki, bu insanların böyük əksəriyyəti məhz rəqabətdən xeyir götürərək bir-birini daha böyük nailiyyətlərə yönəldiblər. Biz bu "rəqib"ləri belə tanımırıq. Əslində, belə deyilmiş.

Məlumdur ki, 2012-ci ildə Apple dünyanın ən böyük şirkəti elan edilib. Stiv Cobs həmin dövrdə dünyanın digər böyük şirkətləri olan "Coca cola", "Nike"-la rəqabət aparmırdı. Onun bir rəqibi var idi, əzəli və əbədi rəqibi - Microsoft-un qurucusu Bill Qeyts. Həm Stiv Cobs, həm də Bill Qeyts eyni yaşda idilər, bizneslərinə də eyni vaxtda və eyni şəraitdə başlayıblar. Bu illər ərzində sağlam rəqabətdə olublar. Bu rəqabət isə dünyaya "Windows" əməliyyatlar sistemini, Apple, iPhone, iPad-ı bəxş edib.

"Məhsul yaratmaq və yeni şeylər öyrənməklə bağlı bütün fantaziyalarımızı həyata keçirdik. Bu isə rəqabətin sayəsində oldu"- Bill Qeyts deyirdi. Və maraqlı məqam.

1997-ci ildə Apple maliyyə cəhətdən çökürdü. Onu xilas edən bir şirkət oldu. Səhmlərinə 150 mln. dollar yatıran şirkət. Kim olsa yaxşıdır? Bir nömrəli rəqibi - "Microsoft" şirkəti! Görəsən, Qeyts Apple niyə çökdürmədi? Məsələnin incə məqamı burdadır: Qeyts əmin idi ki, Cobs kimi rəqibə böyük ehtiyac var. Rəqabətsiz isə inkişaf yoxdur.

imtina edirmiş. Rəqabət müharibə həddində imiş. Nəhayət, 1987-ci ildə Karrerasın səhhətində ciddi problem yaşanır və ona leykemiya diaqnozu qoyulur. Xəstəliyə qarşı mübarizəyə başlayan müğənninin illər keçdikdən sonra həm səhhəti, həm də maddi imkanı zəifləyir və o, yavaş-yavaş "düşmən"ə təslim olmağa başlayır. Maddi imkanının xeyli aşağı olduğu bir dönəmdə Madriddə xərçəng xəstələrinə dəstək fondu yaradıldığını eşidir və fonda müraciət edir. Məhz "Hermoza" Fondu dahi sənətkarın həyatını xilas edir, Karreras yenidən səhnəyə qayıdır. Yüksək qonorarlar, musiqi yarışmalarına dəvət, TV-lərdə çıxış. Karreras Fondu yaddan çıxarmır və düşünür ki, onun xilaskarı olmuş fonda nədəsə yardımçı olsun. Köməkçilərindən Fondun təsisçiləri və ünvanı haqda məlumat almaq istədiyində, sözün əsl mənasında, şoka düşür. Məlum olur ki, Fondun təsisçisi onun əzəli və əbədi rəqibi Plasido Dominqodur. O da məlum olur ki, bu fond məhz Karrerasın xilas edilməsi üçün təsis olunub. Plasido uzun müddət bunu sirr kimi saxlamağı tapşırıb. Çünki Karrerasın hisslərinə toxunmaq istəməyib. Əmin idi ki, Karreras maddi yardım üçün heç vaxt düşməninə müraciət etməz. Və Madriddə təşkil olunan konsertlərin birində səhnədə çıxış edən Karreras Plasidonu görür, çıxışını saxlayır, ona yaxınlaşaraq diz çökür. Təbii ki, centlmenliyi ilə seçilən Plasido buna imkan vermir və uzun müddət qucaqlaşırlar. Jurnalistlərin "Hermeza" Fondunu yaradılmasında məqsədin nə idi?" sualına Plasido Dominqo möhtəşəm cavab verib: "Biz belə səsi itirə bilməzdik".

Stiv Kovi yazır: "Xaraktercə "Qalib/-Məğlub rejimində olanlar rastlaşdıqda, daha doğrusu, iki qətiyyətli, tərs, eqoist natura iş gördükdə yekunda "məğlub/məğlub rejimi qaçılmazdır. Hər iksi məğlub olacaq. Bəzi insanlar düşmən obrazında o qədər konsentrə olurlar ki, rəqibin uduzdurulmasından başqa heç nə düşünmürlər. Hətta bu məğlubiyyətin öz məğlubiyyətlərinə səbəb olacağını bilsələr də.

Qeyd etdiyim kimi, bu insanlar məğlub olmağı deyil, qalib gəlməyi bacarırlar. Çünki rəqabət əməkdaşlıq, sevgi və qarşılıqlı hörmət üzərində qurulub.

Və bir də... Sahən nə olursa-olsun, yarış. Düşün ki, sənin azından "bir rəqib"in var. Gücün, düşüncən varsa, həmin rəqibin nailiyyətlərin heyranlığa, bir az da həsədlə izləyəsi deyilsən ki? İmkan olarsa əl tut, rəqib deyil, əməkdaş olmağa çalış. Çünki "Qalib/Qalib" köklənməsi həyatı əməkdaşlıq arenası edir.

# 2019-cu ilin inqilabi kəşfləri



## Nobel mükafatı laureatlarının adları açıqlandı



Əvvəli səh.1

Oruc MUSTAFAYEV

Nobel komitəsi qeyd edib ki, alimlərin kəşfi bizim dünya barədə təsəvvürlərimizi həmişəlik dəyişib. Nobel saytına verdiyi ilk müsahibədə C.Pibls bu kəşfin bir çox alimlərin səyləri ilə ərsəyə gəldiyini deyib. O, həmçinin elm karyera barədə düşünən gənclərə məsləhət verib: “Mükafata görə yox, elmə olan məhəbbətdən elm yolunu tutmaq lazımdır. Əgər elm sizi heyran edirsə, deməli, elmlə məşğul olmağa dəyər”, - deyə C.Pıbls bildirib.

***

Oktyabrın 9-da **kimya** üzrə 2019-cu ilin Nobel mükafatı laureatlarının adları elan olunub. İsveç Kral Elmlər Akademiyasının qərarına əsasən, bu il Nobel mükafatına “litium-ion batareyalarının inkişafı” üzrə amerikalı Con B.Qudinaf və onun iki həmkarı - Maykl Stenli Uittingem (Britaniya-Amerika), Akira Yoşino layiq görülüb. “Litium-ion akkumulyatorları bizim həyatımızda inqilab edib və mobil telefonlardan tutmuş noutbuklara və elektromobillərə qədər hər yerdə istifadə olunur. Bu ilin laureatları bizi mədən yanacağından azad olan cəmiyyətin yaradılmasına yaxınlaşdırıblar və bəşəriyyətə çox böyük fayda veriblər”, - deyə İsveç Kral Elmlər Akademiyasının üzvləri bildiriblər. Bu batareyalar alternativ energetika sahəsində geniş tətbiq olunur, onlar günəş və külək enerjisinin artıq həcmini yığmağa imkan verir ki, bu da son nəticədə bəşəriyyətin yanacaq mənbələrindən asılılığını azaltmağa kömək edir. Litium-ion batareyaları yüksək texnologiyaların - mobil telefonlar, noutbuklar, kardiostimulyatorlar və elektromobillərin inkişafında mühüm rol oynayıb. Onlar əvvəlki batareyalardan daha yüngül və daha kompaktdır, portativ elektronikada istifadə olunur. Onlardan qadjetlərdə istifadə olunur, belə batareyalar bütün mobil telefonlarda mövcuddur. Buna baxmayaraq, bu vaxta qədər alimlər heç vaxt belə faydalı ixtiraya görə Nobel mükafatı almayıblar.

***

Oktyabrın 10-da 2019-cu il Nobel **ədəbiyyat** mükafatı laureatının adı açıqlanıb.

Oktyabrn 10-da Nobel Mükafatı Komitəsi 2018-ci və 2019-cu illər üçün ədəbiyyat sahəsində Nobel mükafatı laureatlarının adlarını açıqlayıb. İsveç Kral Akademiyasının qərarına əsasən, Polşa şairəsi Olqa Tokarçuk 2018, Avstriya yazıçısı-ssenarist Peter Handke isə 2019-cu il üzrə Nobel mükafatına layiq görülüblər. Akademiyanın daimi katibi Mats Malm qalibləri elan edərkən qeyd edib ki, O.Tokarçuk “ensiklopedik ehtirasla sərhədlərin bir həyat forması kimi keçməsini təmsil edən povest təsəvvürü yaratdığına”, Handke isə “ Linqvistik məharəti ilə ətraf mühit və insan təcrübəsinin xüsusiyyətlərini tədqiq edən nüfuzlu əsərləri üçün” mükafata təqdim olunublar. Xatırladaq ki, keçən il ədəbiyyat üzrə Nobel mükafatı təsis edilməyib.

Qeyd edək ki, oktyabrın 11-də Nobel Sülh mükafatı laureatının, oktyabrın 14-də isə iqtisadiyyat üzrə namizədin adı elan olunacaq. Laureatların mükafatlandırılması mərasimi isə ənənəyə uyğun olaraq 2019-cu il dekabrın 10-da İsveç sahibkarı və ixtiraçı, Nobel mükafatının təsisçisi Alfred Nobelin anım günündə keçiriləcək.

## Fiziologiya və tibb üzrə



**Villiam Kaelin** *(George Kaelin)* 23 noyabr 1957-ci ildə ABŞ-ın Nyu-York şəhərində anadan olub. Dyuk Universitetini bitirib və orada tibb üzrə doktorluq dərəcəsi alıb, Cons Hopkins Hospitalında terapevtik hazırlıq keçib. 1998-ci ildən Hovard Hyuz Tibb İnstitutunun tədqiqatçısıdır. Harvard Dana-Farber Xərçəng İnstitutunun professorudur. ABŞ Milli Elmlər və Tibb akademiyalarının, “American Society for Clinical Investigation”nun, Amerika Xərçəng Araşdırma Assosiasiyasının, “Molecular və Cellular Biology” jurnalının redaksiya heyətinin üzvüdür. Hazırda Harvard və Con Hopkins universitetlərində çalışır. 2010-cu ildə beynəlxalq Qardner, 2016-cı ildə isə fundamental tibbi araşdırmalarına görə Albert Lasker və digər elmi mükafatlara layiq görülüb.



**Piter Ratkliff** *(Peter John Ratcliffe)* 14 may 1954-cü ildə İngiltərənin Lankaşir şəhərində anadan olub. Britaniyalı tibb alimi və molekulyar bioloq, oksigenin qavranılması və xüsusilə hipoksiya üzrə mütəxəssisdir. 1978-ci ildə Oksford Universitetini bitirib. Bir müddət Londondakı “postgraduate hospitals” şirkətində çalışdıqdan sonra Oksford Universitetində nefrologiya, daha sonra molekulyar biologiya üzrə yenidən təhsil alıb. 1990-cı ildə 20 ildən artıq müddət ərzində rəhbərlik etdiyi hipoksiya biologiyası laboratoriyasını yaradıb. 1987-ci ildə Kembric Universitetində tibb doktoru elmi dərəcəsini alıb. Oksford Target Discovery İnstitutunun direktoru (TDI) və Xərçəng İnstitutunun üzvü, həmçinin Frensis Krik İnstitutunun kliniki tədqiqatlar üzrə direktorudur. Hazırda Oksford Universitetində çalışır. London Kral Cəmiyyətinin və Böyük Britaniyanın Tibb Elmləri Akademiyasının üzvü , cəngavər-bakalavr (2014) titulunun sahibidir. Beynəlxalq Qardner (2010), fundamental tibbi tədqiqatlar sahəsində Albert Lasker mükafatlarına layiq görülüb.



**Qreqq L.Semenza** *(Gregg Leonard Semenza)* 1 iyul 1956-cı il tarixində Nyu-York şəhəri Kuins rayonunda anadan olub, tibb alimi, pediatr və genetikdir. Ən çox “HİF1A” proteini kəşf edən alim kimi tanınır. 1978-ci ildə Harvard Universitetinin bakalavr səviyyəsini bitirib. Tibb üzrə fəlsəfə doktoru (PhD) elmi dərəcəsini 1984-cü ildə Pensilvaniya Universitetində alıb. Sonra pediatriya ilə məşğul olub və Dyuk Universitetinin tibb mərkəzində internatura keçib. 1986-cı ildən Con Hopkins Universitetində tibbi genetika üzrə postdoktorantura səviyyəsində təkmilləşib.

1990-cı ildən Con Hopkins Universitetində çalışır, bu ali məktəbin professoru, ABŞ Milli Elmlər və Tibb akademiyalarının üzvüdür. “Journal of Molecular Medicine” jurnalının redaktoru, “Molecular and Cellular Biology”, “Cancer Research”, “Oncogene” kimi jurnalların redaksiya heyətlərinin üzvü, 400-dən artıq elmi məqalənin müəllifidir.

Beynəlxalq Qardner (2010), fundamental tibbi tədqiqatlar sahəsində Albert Lasker mükafatlarına (2016) layiq görülüb.

## Fizika üzrə



**Ceyms Pibls** *(James Peebles)* 25 aprel 1935-ci il tarixində Kanadanın Vinnipeq şəhərində anadan olub. Nəzəri kosmologiya sahəsində çalışan Kanada və Amerika fizikidir. Kanadanın Manitoba Universitetini bitirib. Prinston Universitetində astronomiya üzrə fəlsəfə doktoru diplomunu, sonra professor vəzifəsini də alıb. Prinston Universitetinin Albert Eynşteyn adına fəxri professoru (Albert Einstein Professor of Science Emeritus) adına layiq görülüb. 84 yaşlı alim hazırda Prinston Universitetində çalışır. Amerika İncəsənət və Elmlər Akademiyasının, Amerika Fizika Cəmiyyətinin, London Kral Cəmiyyətinin, Kanada Kral Cəmiyyətinin, ABŞ Milli Elmlər Akademiyasının, Amerika Fəlsəfə Cəmiyyətinin, Amerika Astronomiya Cəmiyyətinin, Amerika Elmin İnkişafına Yardım Assosiasiyasının üzvüdür. Kral Astronomiya Cəmiyyətinin qızıl medalına, kosmologiya sahəsində Qruber, Cenevrə Universitetinin Tomalla, astronomiya üzrə Şao, Kraford mükafatlarına, Dirak medalına layiq görülüb.



**Mişel Meyir** *(Michel G.E.Mayor)* 12 yanvar 1942-ci ildə İsveçrənin Lozanna şəhərində anadan olub. İsveçrə astrofiziki, Genevrə Universitetinin astronomiya kafedrasının fəxri professorudur. Lozanna Universitetində fizika (1966) və Cenevrə Rəsədxanasında astronomiya üzrə elmlər doktoru (1971) elmi dərəcələrini alıb. Onun dissertasiyası “Günəş ətrafındakı Ulduzların kinematik xüsusiyyətləri haqqında esse: qalaktik spiral quruluşu ilə mümkün əlaqə” adlı bir məqalə idi. 1971-ci ildə Kembric Universitetinin Astronomiya İnstitutunun elmi işçisi olub. Sonradan o, Çilinin şimalında və Havay Universiteti Astronomiya İnstitutunda Avropa Cənubi Rəsədxanasında (ESO) akademik semestrlər keçirib.

Dünyanın nüfuzlu 8 universitetinin fəxri doktorudur. 2015 -ci ildə Kral Astronomiya Cəmiyyətinin qızıl medalına, 2017-ci ildə fizika üzrə Volf mükafatına layiq görülüb.



**Didier Queloz** *(Didier Queloz)* 23 fevral 1966-cı ildə İsveçrədə anadan olub. 53 yaşlı alim astronomiya sahəsində ixtisaslaşıb. Cenevrə Universitetini bitirib. Hazırda Kembric və Cenevrə universitetlərində çalışır. O, astronomiyada ekzoplanetar inqilabın əsasında durur. 1995-ci ildə Cenevrə Universitetinin aspirantı kimi elmi rəhbəri Mişel Meyir ilə birlikdə Günəş sistemindən kənarda ilk ekzoplaneti kəşf edib. 2011-ci ildə Günəş sisteminin hüdudlarından kənarda planetlərin ilk müşahidəsinə gətirib çıxaran yeni astronomik alətlər və təcrübi metodların hazırlanmasına görə (Mişel Meyir ilə həmmüəllif) elmi tədqiqatların əsas mükafatı olan BBVA Fondunun mükafatını alıb. 2017-ci ildə fizika üzrə Volf mükafatına layiq görülüb.

## Kimya üzrə



**Con B.Qudinaf** *(John Bannister Goodenough)* 25 iyul 1922-ci ildə Almaniyada (Veymar Respublikası, Yena şəhəri) anadan olub. 97 yaşlı amerikalı alim fizika və materialşünaslıq sahəsində mütəxəssisdir. O, bu vaxta qədər Nobel mükafatına layiq görülmüş ən qocaman alimdir. Hazırda Texas Ostin Universitetində çalışır. Litüm-ion akkumulyatorunda katod kimi kobaltit- litiumdan istifadəni təklif edib. 1943-cü ildə Yel Universitetinin bakalavr səviyyəsini fərqlənmə diplomu ilə bitirib. 1951 və 1952 -ci illərdə müvafiq olaraq magistr və fəlsəfə doktoru elmi dərəcələri alıb. Elmi karyerasına Massaçusets Texnologiya İnstitutunun Linkoln laboratoriyasında başlayıb. Daha sonra isə professor olaraq Oksford Universitetində çalışmağa qərar verib. Bu universitetin qeyri-üzvi laboratoriyasına rəhbərlik edib, 1976-1986-cı illər ərzində litium-ion akkumulyatorunu icad edib. Bir çox nüfuzlu mükafatların laureatıdır. ABŞ Milli Elmlər Akademiyasının, Fransa Elmlər Akademiyasının (xarici), London Kral Cəmiyyətinin üzvüdür. 1975-ci ildə “Əsrin mükafatı”na, 2001-ci ildə Yaponiya, 2009-cu ildə Enriko Fermi, 2014-cü ildə Charles Stark Draper mükafatlarına, ABŞ Milli elm, Benjamin Franklin, Kopli medallarına layiq görülüb.



**Akira Yoşino** *(Yoshino Akira)* 30 yanvar 1948-ci ildə Yaponiyanın Osaka şəhərində anadan olub. 71 yaşlı yapon kimyaçı alim litium-ion akkumulyatorlarının yaradıcılarından biridir. 1970-ci ildə Kiot Universitetinin bakalavr, 1972-ci ildə isə mühəndislik üzrə magistr səviyyələrini bitirib. 2005-ci ildə Osako Universitetində fəlsəfə doktoru (PhD) elmi dərəcəsi alıb. 1985-ci ildə litium-ion akkumulyatorlarının prototipini hazırlayıb və bu işə görə patent alıb. 1994-2003-cü illərdə “Battery Corp” şirkətində çalışıb. 1972-1999-cu illərdə və 2003-cü ildən “Asahi Kaseyi” şirkətində işləyir. Meydze Universitetinin professorudur. 2018-ci ildə Yaponiya hökumətinin, ayrı-ayrı illərdə isə nüfuzlu beynəlxalq elmi cəmiyyətlərin mükafatlarına layiq görülüb.



**M.Stenli Uittingem** *(M.Stanley Whittingham)* 1941-ci ildə İngiltərədə anadan olub. Britaniya əsilli Amerika kimyaçısı, litium-ion batareyalarının yaradıcılarından biridir. Oksford Universitetində bakalavr, magistratura və aspirantura, 1972-ci ilə qədər isə Stenford Universitetinin postdoktoranturasında təhsil alıb. 1972-ci ildən 1984-cü ilədək “Exxon Research & Engineering”, “Schlumberger” şirkətlərində işləyib. Hazırda Nyu-Yorkdakı Bingemton Universitetinin professorudur.

## Ədəbiyyat üzrə



**Olqa Tokarçuk** *(Olga Tokarczuk)* 29 yanvar 1962-ci il tarixində Polşanın Sulexuv şəhərində müəllim ailəsində anadan olub. O, müasir Polşa ədəbiyyatının ən gözəçarpan fiqurlarından biridir. Valideynləri Ukraynadandır. Varşava Universitetinin psixologiya fakültəsini bitirib. Bir müddət psixoterapevt işləyib. “Siyasi tənqid” jurnalı reaksiya heyətinin üzvü, beynəlxalq Bukerovski mükafatı laureatıdır. Ədəbiyyata şeirlər toplusu ilə gəlib. 1993-cü ildə onun birinci romanı- “Kitab insanlarının yolu” nəşr olunub. “Qaçışçılar” romanı ona ölkədə ən nüfuzlu ədəbi mükafat olan “Nike”ni qazandırıb. O.Tokarçuk həmçinin qısa nəsrin ustasıdır. Tənqidçilər onu “1990-cı illərin gənc nəsrinin” nümayəndələrinə aid edirlər. Əsərləri bir çox əcnəbi dillərə tərcümə edilib. Beynəlxalq Bukerovski mükafatı laureatıdır.



**Peter Handke** *(Peter Handke)* 6 dekabr 1942-ci ildə Avstriyanın cənubunda yerləşən Kernten bölgəsindəki Griffen kəndində anadan olub.

Qrats Universitetinin hüquqşünaslıq fakültəsində təhsil alıb. Roman və pyeslərinə görə məşhurluq qazanıb. Onun məşhur əsərləri arasında “Evə yavaş qayıdış”, “Berlin üzərində səma” daha çox populyarlıq qazanıb.

# Ekoloji təhsil və tərbiyə



## Yeni nəsildə vətəndaş şüurunun formalaşdırılmasının əsas istiqamətlərindən biri kimi

⇦ Əvvəli səh.1

Rüstəm QARAXANLI

İnsan Yer kürəsinin ayrılmaz hissəsidir. Əgər biz həyatı qorumaq istəyiriksə, ekologiyanı mühafizə etməkdən başlamalıyıq. Bu gün yaxınlaşan ekoloji faciədən çox danışılır, ancaq maraqlanan və təlaşlanan demək olar ki, yoxdur. Bu o deməkdir ki, biz təhlükəni dərk edirik, ancaq ekoloji təhsilimiz olmadığına görə bu, dərketmə hərəkətə keçməyimiz üçün yetərli deyil. İnsanları ilk növbədə nə ilgiləndirir? Ərzaq qiymətləri və artan vergilər. Ancaq bu ərzağı bizə bəxş edən təbiətə qayğı barədə fikirləşən yoxdur. Belə çıxır ki, bu gün biz ekoloji təhsil və tərbiyə barədə düşünmürüksə, gələcəyimizi unutmuş oluruq. Fizika üzrə Nobel mükafatı laureatı Nils Borun sözləri çox ibrətamizdir: "Bəşəriyyət atom bombası, saysız müharibələr və epidemiyalardan məhv olmayacaq. O, özünü öz tullantıları və zibillərinin altında dəfn edəcək".

### Məktəbdə günəş elektrostansiyası

Qəzetimizin ötən sayında oxucuları ekoloji təhsil kontekstində dünyanın müxtəlif ölkələrində orta məktəblərdə həyata keçirilən bir neçə layihə ilə tanış etmişdik. Təbiətin qorunması və məktəblilərin ekoloji dünyagörüşünün inkişafına yönəlmiş bu layihələr adi məktəblərdə reallaşdırılır. Ancaq elə təhsil ocaqları da var ki, yerləşdikləri binanın inşasında istifadə olunan tikinti materiallarından tutmuş istifadə olunan enerji mənbələrinədək hər şeydə ekologiyaya zərər vurmamaq fəlsəfəsi əsas götürülüb. Onlardan bir neçəsi ilə tanış olaq.

**"Liwa İnternational School", Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ).** Bu məktəb BƏƏ-də ilk ekoloji təhsil mərkəzi hesab olunur. Məktəb həyata keçirdiyi layihələrə görə "World Future Energy Summit" tərəfindən yüksək qiymət alıb. Bu layihələrin hamısı il ərzində məktəb tərəfindən həyata keçirilir. Məsələn, hər gün təqribən 4 ton istifadəyə yararlı olmayan su təmizlənmə prosesindən keçir və sonra məktəbin əkin sahəsində istifadə olunur. Bu su ilə 35 min bitki suvarılır. BƏƏ-nin yerləşdiyi coğrafi bölgədə havanın hərarətini nəzərə alsaq, bu suyun əhəmiyyətini izah etmək çətin deyil.

Məktəbdə quraşdırılmış günəş panelləri hesabına hər gün saatda 78 kilovat elektrik enerjisi istehsal olunur. Bu, məktəbin ehtiyaclarından çoxdur. Həmin elektrik enerjisi təhsil ocağının binası ilə yanaşı, suvarma prosesində və gecə vaxtı ərazinin işıqlandırılmasına sərf olunur.

**"Trivandrum", Hindistan.** Bu məktəb ekoloji təhsil üçün kampusdur. "Trivandrum" beynəxalq statuslu məktəbdir. Əsas diqqət ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması və təbii resurslardan qənaətlə istifadə istiqamətində maarifləndirməyə yönəldilir. Məktəb Hindistanda yağış suyundan istifadəyə keçən ilk müəssisələrdən biridir. Təhsil ocağında istehlak olunan suyun 50%-i yağışdan əldə olunur. Fəaliyyətdə olan orqanik ferma məktəbi kənd təsərrüfatı məhsulları ilə təmin edir. Bu məhsullar istisnasız olaraq biogübrələrin köməyilə yetişdirilir. Nahar konservantsız məhsullardan hazırlanır, odur ki, tullantılardan bioqaz qurğusunda yararlanırlar. Və bütün bunların hamısı uşaqlara keçilən praktiki ekoloji dərslərin tərkib hissəsidir.



Məktəbdə plastikdən istifadə olunmur. Plastiki uşaqların özlərinin ixtira etdikləri kağız paketlər əvəzləyir. Bu paketləri təkrar emal etmək olur. "Trivandrum"da "yaşıl ənənə" də mövcuddur. Hər bir məzun təhsilini bitirdikdən sonra məktəbə məxsus ərazidə iki ağac əkməlidir.



**"Panyaden" bambuk məktəbi, Tailand.** "Panyaden" məktəbi əvvəllər meyvə bağının mövcud olduğu yerdə tikilib. Məktəbin bütün otaqları bambuk, daş və palçıq kərpicindən inşa olunub. Təbii tikinti materialları təhsil ocağında sərin havanı təmin edir, məktəbdə kondisioner yoxdur. Məktəb otaqlarının çöl divarları istifadə olunmuş içki və paltaryuyan maşınının şüşə hissəsindən hörülüb. Hörmə prosesində samandan da yararlanıblar. Pəncərə çərçivələri yenidən emal olunmuş möhkəm ağac növlərindən hazırlanıb. Məktəbin akt zalı və yeməkxanası sözün əsl mənasında açıq səma altında fəaliyyət göstərirlər. Dam bambuk yarpaq və budaqları ilə örtülür.

Bu məktəbdə də axıntı suları filtrdən keçirilir və əkin sahələrində istifadə olunur. Yemək qalıqları gübrə, bioqaz isə mətbəxdə istifadə üçün enerjidir. Məktəbdə, eyni zamanda, 375 uşaq təhsil alır. Onlar tropik bitkilər, Tailandın şimalı üçün xas olan mətbəxin özəllikləri barədə məlumat alır, pestisidlərsiz düyü və tərəvəz əkməyi öyrənirlər.

### Dünyanın ən yaşıl məktəbi

**Ekoloji məktəb "Sing Yin", Honkonq.** Burada uşaqlar ekologiya barədə baza bilikləri əldə etməklə yanaşı, ətraf mühiti qorumaq məqsədilə praktiki məşğələlər də keçirlər. Dil dərslərində ekologiya mövzusunda inşalar yazılır, riyaziyyatda ətraf mühitin qorunmasına sərf olunan xərclər hesablanır, bədən tərbiyəsi dərsindən sonra isə futbol meydançası təmizlənir. Məktəbin binası bərpa olunan enerji mənbələri - fotohalvanik panellərlə təmin olunub. Otaqlarda işığa qənaət edən qurğular quraşdırılıb, kondisioner və hava qızdırıcılarının istifadəsi maksimum məhdudlaşdırılıb.

Məktəbdə çalışırlar ki, kağızdan az istifadə etsinlər. Bu səbəbdən bütün sənədləşmə işləri elektron formatdadır. Kağızdan qənaətlə istifadə olunur, surətçıxarma işləri azaldılıb, əl-üz üçün kağız dəsmallar alınmır. Məktəbdə tez-tez geyinilmiş paltarların, işlədilmiş kompüter, istifadə olunmuş plastik və alüminium qabların yığımı aksiyası keçirilir. ABŞ-ın ekoloji tikinti şurası "Sinq Yin"i planetin ən "yaşıl" məktəblərindən biri elan edib.

**Dünyada ekoloji məktəblərin sayı getdikcə artır və güman ki, bu, gələcəyin məktəb quruculuğunda başlıca trendə çevriləcək. Yəni, reputasiya tək keçilən dərslər və məzunların işlə təminatı deyil, həm də təhsil ocağı və "sakinləri"nin ekoloji tələblərə nə qədər riayət etmələri ilə də ölçüləcək. Xatırlayırsınızsa, Z nəslinin nümayəndələrinin işə qəbul olunarkən şirkətin və ya müəssisənin ekoloji siyasəti ilə maraqlanmaları barədə yazmışdıq. Görünür, ekoloji təhsil təsirsiz deyil...**

**"Dunbarton", Kanada.** Daha bir "yaşıl" təhsil ocağı bu ada 2015-ci ildə layiq görülmüş Kanadanın "Dunbarton" məktəbidir. Ontarionun bu məktəbi son 5 ildə həm dərs proqramını, həm də binanı modernləşdirməklə ən "yaşıl" ekoloji məktəb adını alıb. "Dunbarton"da uşaqlar ekoloji prosesin tək içtirakçısı deyil, həm də ekolayihələrin rəhbərləridirlər. 1960-cı ildə tikilmiş məktəbi "yaşıllaşdırıblar" - orqanik tullantılar yenidən emal olunur, binanın pəncərə və divarlarına günəş işığından elektrik enerjisi alan panellər quraşdırılıb. Bu yolla həm bina işıqla təmin olunur, həm də su qızdırılır.

**"Secmol", Hindistan.** Bu məktəb dəniz səviyyəsindən 3,4 km hündürlükdə, Hind çayının sahilində tikilib. Tikinti zamanı yerli daşdan istifadə olunub, aborigen sakinlərin arxitektura ənənələrinə əməl edilib. Məktəbin tikintisi böyük xərclər tələb etməyib, "Secmol"da ətraf mühitlə harmoniyada yaşamağın yollarını, hətta ən adi əşyaları belə ikinci dəfə istifadə etməyin üsullarını yaxşı bilirlər.

Otaqların soyuq havada isti olması problemini yerli texnologiya - divarların palçıqla örtülməsi və qara rənglə rənglənməsi hesabına çözürlər. Bunu necə edirlər demək çətindir, ancaq divarların samanla, istifadə edilmiş kağız və plastiklə də isidilməsi texnologiyasını məhz bu məktəbdə sınaqdan çıxarırlar.

Suyu yeraltı quyulardan çıxarırlar. İçməyə yararlı olmayan su əkin sahələrinə yönəldilir. Məktəbin gündəlik həyatında uşaqlar da yaxından iştirak edirlər: kimisi alternativ enerji mənbələrinə nəzarət edir, kimisi günəş plitələrində yemək bişirir, kimisi isə dərsə qulaq asır. Yeri gəlmişkən, dərslər partalar olmayan siniflərdə keçilir.

**"Watkinson", ABŞ.** Məktəb 3500 kv.m-lik ərazidə inşa olunub. Onu elə tikiblər ki, günəş işıqlandırması nəticəsində büdcəyə 25% qənaət edilir. Yəni, söhbət tək günəşdən alınan işıqdan getmir. Sadəcə olaraq, bina elə quruluşdadır ki, günün əksər hissəsində siniflərə günəş şüaları düşür.

Məktəbin elektrik enerjisi təminatı günəş panellərindəndir. Otaqlarda qənaət məqsədilə lüminisent lampalardan, həyətin işıqlandırılmasında isə fotoelementli fənərlərdən istifadə edilir. Binanın təmizlənməsində istifadə olunan təmizlik ləvazimatlarının 90%-i ekoloji cəhətdən təhlükəsizdir.

Kampus ərazisində tullantıların toplanması və sortlaşdırılması mərkəzi var. Məsələn, məktəbin qəzeti təkrar emal olunmuş kağızdan çap edilir. Hesablanıb ki, bir məktəb qəzetinin bu yolla çapı ildə ən azı 60 ağacı kəsilməkdən qoruyur. Məktəbin bostanındakı əkin işlərində yerli tullantılardan hazırlanmış biogübrələrdən geniş yararlanırlar. Yeməkxanada istifadə olunan bütün meyvə-tərəvəz məktəblilərin özlərinin məhsuludur.

Belə məktəblərin siyahısı yuxarıdakılarla məhdudlaşmır. Dünyada ekoloji məktəblərin sayı getdikcə artır və güman ki, bu, gələcəyin məktəb quruculuğunda başlıca trendə çevriləcək. Yəni, reputasiya tək keçilən dərslər və məzunların işlə təminatı deyil, həm də təhsil ocağı və "sakinləri"nin ekoloji tələblərə nə qədər riayət etmələri ilə də ölçüləcək. Xatırlayırsınızsa, Z nəslinin nümayəndələrinin işə qəbul olunarkən şirkətin və ya müəssisənin ekoloji siyasəti ilə maraqlanmaları barədə yazmışdıq. Görünür, ekoloji təhsil təsirsiz deyil...

---

## "Sağlam məktəbli" layihəsi çərçivəsində Binəqədi və Tovuz məktəbliləri görüşüb

Qida Təhlükəsizliyi Agentliyinin əhalinin qida təhlükəsizliyi ilə əlaqədar maarifləndirilmə sahəsində "Sağlam məktəbli" layihəsi çərçivəsində növbəti görüş Bakının Binəqədi rayonundakı 283 nömrəli orta məktəb və Tovuz şəhəri A.S.Puşkin adına tam orta məktəbin şagirdləri ilə keçirilib.

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə şagirdlərə agentliyin fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat veriləndən sonra onlara qida təhlükəsizliyi ilə bağlı hazırlanmış sosial videoçarxlar təqdim edilib.



Məktəblilərə enerji içkilərinin insan orqanizminə zərərləri, konservləşdirilmiş məhsulların düzgün saxlanılma qaydaları, qida məhsulları alarkən diqqət yetirilməli məsələlər və məktəblinin sağlam qidalanması barədə ətraflı məlumat verilib.

Görüşdə məktəblilərə istehlakçı kimi qida təhlükəsizliyi ilə əlaqədar hansısa problem olduqda və ya sağlam qidalanma sahəsində onları maraqlandıran suallar yarandıqda agentliyin "1003" Çağrı Mərkəzinə müraciət etmək tövsiyə olunub.

Görüş zamanı məktəbliləri maraqlandıran suallar cavablandırılıb, onlara sağlam qidalanma ilə əlaqədar maarifləndirici materiallar paylanılıb.

Qeyd edək ki, "Sağlam məktəbli" layihəsinin keçirilməsində əsas məqsəd məktəblilər arasında sağlam qidalanmanın təşviqi, qida təhlükəsizliyi anlayışının təbliğ edilməsi və şagirdlərə qida təhlükəsizliyi vərdişlərinin aşılanmasıdır.




## Layihə çərçivəsində pilot siniflər açılacaq

Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqədə “Dinlə və Öyrən” layihəsi ilə Xırdalan 3 nömrəli tam orta məktəb qalib olub. Layihə Abşeron rayonunda 16 məktəb olmaqla 64 müəllim və 1500 şagirdi əhatə edəcək. İlk mərhələdə pedaqoji heyətin təlimləri nəzərdə tutulub.

Təlimlər Beynəlxalq sertifikatlaşdırılmış xarici təcrübəyə malik 2 təlimçi Elnarə Həsənova və Proqramın Qiymətləndirmə üzrə mütəxəssisi Rəsmiyyə Bədirova tərəfindən müxtəlif tarixlərdə həyata keçiriləcək.

Təlimlər başa çatdıqdan sonra hər məktəbdə Azərbaycan və rus bölmələri olmaqla yeni tədris metodlarına əsaslanan “Dinlə və Öyrən” pilot sinifləri açılacaq. Pilot siniflər yeni təlim texnologiyalarına əsaslanaraq şagirdlərin dinləmə qabiliyyətlərini inkişaf etdirməklə yanaşı, gələcəkdə dövlət imtahanlarına hazırlıq üçün zəmin yaradacaq.

## Psixoloq tələbələrlə görüşüb

Gəncə Dövlət Universitetində (GDU) psixoloq Zahid Tağıyevlə tələbələrin görüşü təşkil olunub.

GDU-nun Tələbə Gənclər Təşkilatı universitet tələbələrinin dünyagörüşünün, intellektual səviyyəsinin, mənəvi dünyasının zənginləşdirilməsi, elmi axtarışlara sövq edilməsi, vətənpərvərlik hisslərinin gücləndirilməsi, mütaliə, sosial məsuliyyət vərdişlərinin aşılanması, o cümlədən fərdi özünüifadə bacarıqlarının inkişaf etdirilməsi üçün ardıcıl seminarlar, tədbirlər təşkil edir ki, bu görüş də həmin sıradandır.

Psixoloq Zahid Tağıyev qeyd edib ki, gənclərin daxili dünyalarını tanımalarına dəstək olmaq lazımdır. Onların özləri və ətraf mühitlə əlaqələrinə təsir edən başlıca amilləri şərh etmək, şəxsin daxili dünyasında apardığı səssiz söhbətlərin onun istək və motivasiyalarına necə təsir bağışladığını göstərmək başlıca tələbdir.

Psixoloq gənclərin mənəvi cəhətdən özlərini daha yaxşı tanımaları, daxili potensiallarını üzə çıxarmaları, həmçinin problemi həlletmə bacarıqlarından da bəhs edib.

Mövzu ətrafında sual-cavablarla maraqlı müzakirə aparılıb.

# “Öyrənməyi, düşünməyi şagirdlərimizə dərindən öyrətməliyik”

Rəşad Qədirov 1988-ci ildə Şəki rayonunun Sarıca kəndində anadan olub. 2006-2010-cu illərdə Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialının Fizika-riyaziyyat fakültəsində təhsil alıb. 2017-ci ildə Müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edərək Gəncə şəhər N.Rəfibəyli adına 43 nömrəli tam orta məktəbdə riyaziyyat müəllimi olaraq pedaqoji fəaliyyətə başlayıb. 2017-2019-cu illərdə Gəncə şəhəri üzrə təhsil meneceri vəzifəsində çalışıb. Təhsildə inkişaf və innovasiyalar üzrə II qrant müsabiqəsində “Fənn müsabiqələrinə hazırlıq qrupunun yaradılması” layihəsi ilə qalib olub. Gənc müəllim 2019-cu tədris ilindən etibarən Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin Gəncə şəhərindəki filialına kordinator təyin edilib.

*Rəşad Qədirov:*
“Bölgələrdə uşaq və gənclərin potensial imkanlarının aşkarlanması diqqətdə saxlanılır”



*- Rəşad müəllim, qalib olduğunuz qrant layihə çərçivəsində hansı işlər görülüb və bu işlər şagirdlərin fənn müsabiqələrindəki nəticələrinə necə təsir edib?*

- Məlumdur ki, fənn müsabiqələrinin keçirilməsində əsas məqsəd istedadlı uşaqların aşkar olunması, şagirdlər arasında sağlam rəqabət mühitinin yaradılması, aşağı sinif şagirdlərinin müxtəlif fənlərə olan marağının artırılması, onlarla məqsədyönlü işlərin aparılması və beynəlxalq olimpiadalara hazırlıq mərkəzlərinə namizəd şagirdlərin müəyyən edilməsindən ibarətdir. Buna uyğun olaraq Gəncə şəhər ümumtəhsil məktəblərində “Fənn müsabiqələrinə hazırlıq qrupunun yaradılması” layihəsi böyük maraqla qarşılanıb. Layihə çərçivəsində iştirak edən şagirdlər həmin tədris ilində yüksək nəticələr göstəriblər. Belə ki, şagirdlər fənn müsabiqələrinin respublika mərhələsində 2 qızıl, 1 gümüş və 3 bürünc medal əldə ediblər. Mənim fikrimcə bu uğur layihənin ən böyük uğurudur.

*- Riyaziyyat fənninin üstünlüyü sizə görə nədən ibarətdir?*

- Riyaziyyat hər kəsə düzgün və dəqiq fikirləşməyi öyrədir. Az və əsas danışmaq kimi bir xüsusiyyət formalaşdırır. Hər hansı bir şəxs saatlarla danışıb, insanlar üçün o qədər də vacib olmayan məlumatlar verə bilər, ancaq riyaziyyatçı hər zaman əsas məlumatları qısa müddətə çatdırmağı bacarır. Bundan başqa, riyaziyyatçı araşdırma etməyi sevən biridir. Yəni, qarşılaşdığı hər hansı bir sualı və ya naməlum olan bir mövzunu tam dəqiqliyi ilə öyrənmədən o mövzunun üzərindən keçməz. Öyrənməyi, düşünməyi, sorğulamağı və araşdırmağı biz şagirdlərimizə dərindən öyrətməliyik. Onlar bilməlidirlər ki, heç də bütün mövzular hazır formada öyrənməyimiz üçün bizə təqdim edilməməlidir. Biz araşdırıb, öyrənib təkmilləşməliyik. Çünki riyaziyyat elə bir fəndir ki, o təxmin etməyi sevmir, dəqiqliklə həyata keçirilməyi sevir.

*- Məlumdur ki, respublikamızın müxtəlif şəhər və rayonlarında lisey siniflər fəaliyyətə başlayıb. Siz də Gəncə şəhərində fəaliyyət göstərən lisey siniflərinə kurator təyin edilmisiniz. Bu sahədə hansı işlər görülür və şagirdlərin yeni siniflərə marağı necədir?*

- Yeni yaradılan lisey siniflərinə şagird qəbulu iki mərhələdə aparılıb. İlkin mərhələdə fənn müsabiqəsi qalibləri birbaşa lisey siniflərdə oxumaq şansı qazanıblar. İkinci mərhələdə isə 6, 7, 8 və 9-cu siniflərin şagirdləri imtahanlarda iştirak edərək göstərdikləri nəticəyə uyğun lisey siniflərində təhsil almaq hüququ əldə ediblər. Bölgələrdə istedadlı uşaq və gənclərin potensial imkanlarının aşkarlanması, inkişaf etdirilməsi və onların səmərəli təhsil almaları üçün lazımi şəraitin yaradılması məqsədilə təşkil olunan lisey siniflərində tədris yüksək səviyyədə həyata keçirilir. Burada çalışan müəllimlər Müəllimlərin işə qəbulu və ya Diaqnostik Qiymətləndirmə balı, həmçinin tədrisdəki bacarığı nəzərə alınaraq seçiliblər. Artıq tədrisin ikinci həftəsindəyik, şagirdlərimiz dərsə böyük maraq göstərirlər. Ümid edirik ki, bu tədris ilində Respublika fənn müsabiqələrində Gəncə məktəbliləri yüksək nəticələr əldə edəcəklər.

*- Müəllim üçün ən böyük stimul nədir?*

- Birmənalı olaraq ən böyük stimul şagirdlərin nailiyyətidir. Məktəbdən və istənilən təhsil müəssisəsindən gözlənilən onun uğurlu nəticəsidir. Biz müəllimlər ilk öncə xalqımız və dövlətimiz üçün yüksək dünyagörüşlü, bilikli , bacarıqlı şəxsiyyətlər yetişdirməliyik. Əgər bir sinifdə 20 şagird təhsil alırsa, onların hamısı ali təhsilli olacaq deyə bir şərt yoxdur. Ancaq onların hər biri vətənini sevən şəxsiyyət kimi yetişməlidirlər.

*- Gənclərə, tələbələrə, gələcəkdə müəllim olmaq istəyən hər kəsə nə demək istərdiniz?*

- Mən ümumtəhsil məktəbini bitirdiyim vaxt qarşıma bir məqsəd qoydum ki, müəllim olmalıyam. Çünki öyrətməyi çox sevirdim. Öz müəllimlərimdən gördüyüm diqqət və dəstəyi mən də şagirdlərimə göstərmək istəyirdim. Çox sevinirəm ki, artıq məqsədimə nail olmuşam.

**Raminə MƏMMƏDOVA,**
*Gəncə Şəhər Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## “Bir kənddən bir şəhərə”

Təhsil Nazirliyinin elan etdiyi Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqəsinin qalibi olan “Bir kənddən bir şəhərə” layihəsi uğurla həyata keçirilir.

Layihənin yekunlaşan ilk ayında 5 müxtəlif görüş təşkil olunub. İlk olaraq 4 təlim həyata keçirilib. Təlimlərdə “Şagird-müəllim münasibətlərinin formalaşması”, “Məktəbimdə görmək istəyirəm”, “10 il sonra özümü görürəm” adlı görüşlər keçirilib. Müəllim və şagirdlər üçün nəzərdə tutulan görüşlər peşəkar təlimçilər tərəfindən həyata keçirilir. Göygöl rayon Pənahlı, Dozular və Hacıməlik kənd 1 nömrəli tam orta məktəblərində keçirilən görüşlərdə rayonun müxtəlif məktəblərindən 20 müəllim cəlb edilib. Layihənin növbəti 2 ayında isə görüşlər Gəncə şəhər ümumtəhsil məktəblərində keçiriləcək. Görüşlər Gəncə şəhər M.Müşfiq adına 14, M.Hadi adına 10 və A.Nekrasov adına 19 nömrəli tam orta məktəblərdə keçiriləcək.

Qeyd edək ki, layihənin keçirilməsində məqsəd qabaqcıl məktəblərin iş təcrübəsini öyrənmək və tətbiq etmək, məktəblərin və müəllimlərin təcrübə mübadiləsini təşkil etmək, qabaqcıl iş təcrübəsinə malik müəllimlərin ustad dərslərini təşkil etmək, layihəyə cəlb edilmiş məktəblərin istedadlı şagirdlərini aşkara çıxarmaq və onların istedadları çərçivəsində fəaliyyətlərini nizamlamaq, məktəblərdə sağlam rəqabət mühitinin formalaşmasına nail olmaq, pedaqoji kollektivlərdə birgə əməkdaşlığa marağı gücləndirməkdir.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## İsmayıllıda gənc müəllimlərlə görüş keçirilib

İsmayıllıdakı Heydər Əliyev Mərkəzində rayonun ümumtəhsil məktəblərinə yeni təyin olunan gənc müəllimlərlə görüş keçirilib.

Redaksiyamıza daxil olan məlumata görə, tədbiri rayon icra hakimiyyəti başçısının müavini Sevil Əhmədova açaraq ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan danışıb, gənc müəllimlərə fəaliyyətlərində uğurlar arzulayıb.

Rayon təhsil şöbəsinin müdiri Rasim Orucov İsmayıllı təhsilinin uğurlarından bəhs edib, bu sahədə gənc müəllimlərin də əməyinin az olmadığını bildirib.

Rayon icra hakimiyyətinin əməkdaşı Namiq Kərimov yeni təyin olunan gəncləri könüllülük fəaliyyətinə qoşulmağa çağırıb və rayonda könüllülük fəaliyyətinin geniş şəkildə təşviq olunması barədə məlumatlar verib.

Sonda 4 nəfərə könüllülük fəaliyyətlərini başa vurmaları barədə sertifikatlar təqdim olunub.

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# 425 tələbə sevindi

⇦ Əvvəli səh.1

Oruc MUSTAFAYEV

## Gənclərə dövlət dəstəyinin növbəti nümunəsi


Ağgül Əhmədova


Esmira Nəsirova


Sədaqət Əliyeva


Elvin Şükürov


Elşad İstamov


Ayxan Yavərli


Rəcəb Mahmudov


Ceyhun Əsgərov


Şıxvəl Mirzəyev

**Ağgül Əhmədova,**
*Azərbaycan Dövlət Aqrar Universitetinin tələbəsi*

Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) aqrotexnologiya fakültəsinin “Dizayn” ixtisası üzrə III kurs tələbəsidir. “Zəka” Gənclərin İntellektual İnkişaf və Yaradıcılıq Mərkəzində DEBAT klubların təşkili, Könüllülər üçün təlim layihələrində könüllülər üzrə koordinator olub. Hazırda ADAU-da Tələbə Gənclər Təşkilatı fakültə sədridir. Gənclər Fondunun maliyyə dəstəyi ilə “ Şəhidlər ölməz, Vətən bölünməz” layihəsi əsasında “Vüqarlı Dağlar” və “Mübarizin Yolu İlə” 2 sənədli filmin layihə rəhbəri, koordinatoru, həmçinin 2-ci ssenari müəllifi olub. Bir neçə yerli və beynəlxalq sərgilərin təşkilatçısı və iştirakçısıdır.

- Sevindirici haldır ki, bu gün ölkəmizdə təhsil sistemi dünyanın qabaqcıl təhsil sisteminə inteqrasiya edir. Təhsil sahəsində əldə olunan uğurlar, xüsusən də cənab Prezidentin qayğısı sayəsində universitetlərimizin infrastrukturu yenilənib. Təhsil aldığım ADAU-nun dünya standartlarına cavab verən 7 mərtəbəli 1034 nəfərlik tələbə yataqxanası inşa olunub və 3-cü binanın inşasına icazə verilib. ADAU-nun nəzdində Qubada kollecin, Gəncədə liseyin açılmasına icazə verilib. Bütün bu inkişafın nəticəsi olaraq bu il rekord sayda - 1311 nəfər bakalavr, 160 nəfər magistr səviyyələrinə tələbə qəbul olunub. Prezident İlham Əliyevin müvafiq fərmanına əsasən, Gənclər Fondunun maliyyə dəstəyi ilə istedadlı gənclərin təhsil xərclərinin maliyyələşdirilməsi dövlətimizin bir daha təhsilə və gənclərə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Gənclərə, onların maarifləndirilməsinə və inkişafına göstərdiyi yüksək etimad və diqqət üçün ölkə başçısına dərin və sonsuz təşəkkürümü bildirirəm.

**Esmira Nəsirova,**
*Azərbaycan Tibb Universitetinin tələbəsi*

- Gənclər Fondunun müsabiqəsində qalib olduğumu eşidərkən çox sevindim və sevincimin hədd-hüdudu yox idi. Bu sevincimi tez bir zamanda ailəmlə və dostlarımla paylaşdım və hər kəs çox sevindi. Ürəklə deyə bilərəm ki, ölkəmizdə əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gənclər Fondu tərəfindən elan olunan müsabiqə də gənclər siyasətinin və dövlətin gənclərə göstərdiyi sosial müdafiənin bariz nümunələrindən biridir. Belə bir proqramın olmasını ATU Tələbə Gənclər Təşkilatı vasitəsilə öyrəndim. Sənədlərin toplanması və elektron qeydiyyatın aparılması prosesində təşkilat mənə tam olaraq dəstək oldu. Ümid edirəm ki, növbəti illərdə bu proqramdan daha çox tələbəmiz faydalanar. Proqramın icrası üçün ölkə başçısına və Gənclər Fonduna təşəkkür edirəm!

**Sədaqət Əliyeva,**
*Azərbaycan Dillər Universitetinin tələbəsi*

- Gənclər Fondunun keçirdiyi müsabiqədə qalib olan tələbələrdən biriyəm. Qiymətlərimin yaxşı olması və atamın I qrup əlil, Qarabağ veteranı olması məni bu müsabiqədən qeydiyyatdan keçməyə stimullaşdırdı. Sözün düzü, qalib olacağımı düşünmürdüm, lakin bütün duyğularımı ifadə edən məktub yazmışdım deyə, müəyyən ümidim var idi.

Qalib olduğumu qardaşım tərəfindən öyrəndim və o an sözlərlə ifadə edə bilməyəcəyim duyğular yaşadım. Əmin olmaq üçün özüm də bir daha adımın siyahıda olmasını yoxladım. Oktyabrın 4-də Bakı Konqres Mərkəzində tələbələrlə müqavilənin imzalanmasına qədər hələ də inanmamışdım qalib olduğuma. Yalnız müqaviləni imzaladıqdan sonra anladım ki, mən qalibəm. Gənclərə göstərdikləri dəyər üçün başda dövlət başçımız İlham Əliyev olmaqla Gənclər Fonduna, Təhsil Nazirliyinə və ATGT-yə dərin təşəkkürlərimi bildirirəm.

**Elvin Şükürov,**
*ADPU-nun Quba filialının tələbəsi*

13 iyul 1999-cu il tarixində anadan olub. 2017-ci ildə Şabran şəhər Məmmədağa Nəzirov adına 4 nömrəli tam orta məktəbi bitirib. Elə həmin ildə Quba filialının tarix və coğrafiya müəllimliyi ixtisasına qəbul olunub, hazırda 3-cü kursda təhsil alır.

- Gənclər Fondunun istedadlı tələbələr üçün elan etdiyi müsabiqədən xəbərdar olduqda şansımı sınamaq qərarına gəldim. Əslində, daha əvvəldən bu qurumla tanış idim, fəal gənclərdən biri olaraq Gənclər Fondunun bəzi layihələrində könüllü olmuşam. Nəticədə bu qrant müsabiqəsində qalib oldum və təhsil haqqım bu il üçün Gənclər Fondu tərəfindən ödənildi. Bu, təbii ki, bir tələbə üçün həm böyük dəstək, həm böyük motivasiya, həm də gələcəyə böyük ümid deməkdir. Artıq mən də ətrafımda, sosial şəbəkələrdə istedadlı, diqqətə ehtiyac duyan gəncləri fondun bu layihəsindən xəbərdar edir və qürurla onlara artıq savadın və ictimai fəaliyyətin bir gəncə nə qədər faydalı olmasının praktiki sübutunu göstərirəm. Bundan sonra daha böyük həvəslə işlərimə davam edəcəyəm, hazırda Gənclər Fondunun fərdi layihələr müsabiqəsində də iştirak edirəm, əgər layihəm qəbul olunarsa, bu, artıq yeni bir pəncərənin açılması deməkdir. Son illərdə Azərbaycanın təhsil siyasəti istedadlı gənclərin bütün problemlərinin həllinə yönəldilib. Artıq gənclər bu layihələrlə təhsil haqqından, yataqxana xərcindən və s. azad olma şansı qazanır. Hesab edirəm ki, əgər təhsil millətin gələcəyidirsə, deməli, ən böyük qayğı da təhsilə göstərilməlidir.

**Elşad İstamov,**
*Qazax Dövlət Sosial İqtisad Kollecinin tələbəsi*

1993-cü il 15 may tarixində Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olub. Ağalıkənd kənd orta məktəbini 2011-ci ildə bitirib. 2016-cı ildə Qazax Dövlət Sosial İqtisad Kollecinin “Baytarlıq” fakültəsinə qəbul olub.

- Mən Gənclər Fondunun istedadlı tələbələr üçün elan etdiyi müsabiqənin qaliblərindən biri kimi, ilk növbədə, gənclərə göstərdiyi daimi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlığımı bildirirəm. Eyni zamanda, Təhsil Nazirliyinə, Gənclər Fonduna təşəkkürlərimizi çatdırmaq istəyirəm. Çox şadam ki, Azərbaycan dövləti mənim kimi maddi durumu zəif olan tələbələr və gənclər üçün belə bir layihə həyata keçirir. Bir Azərbaycan gənci və tələbə olaraq öz adımdan bu layihəni yaradan və bu layihədə əməyi olan hər kəsə minnətdarlığımı və təşəkkürlərimi bildirirəm.

**Ayxan Yavərli,**
*Milli Aviasiya Akademiyasının tələbəsi*

2000-ci ilin fevral ayında Şəkidə anadan olub. 2007-2017-ci illərdə Şəki şəhər 5 nömrəli orta məktəbdə təhsil alıb. 2017-ci ildə həmin məktəbi fərqlənmə ilə bitirərək ali məktəblərə keçirilən qəbul imtahanında 650 bal toplayıb.

- Uşaqlıqdan məqsədim nə olursa-olsun “hüquqşünaslıq” ixtisası üzrə ali təhsil almaq və hüquqşünas olmaq idi. Bu sahədə mənə əngəl olan iki məsələ vardı, birincisi, təhsil haqqı, ikincisi isə harada ən mükəmməl ali təhsil əldə edəcəyimlə bağlı idi. Hüquqşünaslıq ixtisası olan bütün ali məktəbləri araşdırdıqdan sonra qərarımı verdim, şəffaf və keyfiyyətli təhsil ocağı olan Milli Aviasiya Akademiyasına ödənişli əsaslarla qəbul oldum. 2 il ərzində ödənişdən əziyyət çəksəm də, bir gün istedadlı tələbələrin təhsil haqlarının qarşılanacağına inanırdım. Bu əminliyi yaradan isə dövlətimizin gənclər siyasəti sahəsində atdığı addımlar idi. Xüsusilə istedadlı tələbələrə göstərilən qayğı təqdirəlayiqdir. Sosial müdafiəyə ehtiyacı olan istedadlı tələbələr üçün Gənclər Fondu tərəfindən təhsil haqlarının qarşılanması məqsədilə layihə elan olundu. II kursda bu layihəyə müraciət etdim. Lakin müsabiqə qalibi ola bilmədim. Təəssüflənsəm də, ümidimi itirmədim. Səylərimi daha da artırdım, II kursu 98.1 bal ortalama və 98 bal davamiyyətlə bitirdim. 2019- cu ilin yayında sözügedən layihə yenidən elan olundu. Mən də müraciət etdim, nəticələrin uğurlu olacağına əmin idim. Nəticələr elan olunduqda adımı siyahıda gördüm, xəbəri öncə ailə üzvlərimlə bölüşdüm. Sevincimizin hədd-hüdudu yox idi. Əlbəttə, qalib olmağım sadəcə dövlətimizin istedadlı gənclərə göstərdiyi qayğının bariz nümunəsidir. Mən də qalib olaraq dövlətimizin təhsil sahəsində yaratdığı geniş imkanlardan yararlanaraq öz ixtisasımı davam etdirmək imkanı əldə etdim. Nəticədən asılı olmayaraq hər zaman dövlətimizin gənclərimizin yanında olduğunu bildirmək istəyirəm.

Təhsil biz gənclərin gələcəyidir. Sonda isə demək istəyirəm ki, şəffaf keçirilən bu müsaiqbədən qalib ayrıldığım üçün əvvəlcə dövlət başçımıza, daha sonra isə Gənclər Fonduna dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

**Rəcəb Mahmudov,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi*

2000-ci il mart ayının 2-də Zaqatala rayonu Suvagil kəndində anadan olub. 2017-ci ildə Suvagil kənd 1 nömrəli orta məktəbi bitirib. Elə həmin ildə 384 balla Azərbaycan Dövlət İqtisad Universitetinin “Menecment” ixtisasına qəbul olub, III kurs tələbəsidir.

- İlk növbədə, bu şəraiti bizə yaradan, gənclərə həmişə dəstək olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təşəkkürlərimi çatdırır və dərin minnətdarlığımı bildirirəm. Daha sonra dim gənclər üçün möhtəşəm layihələr hazırlayan və həmişə istedadlı tələbələrin yanında olan Gənclər Fondunun bütün idarə heyətinə təşəkkür edirəm. Müsabiqənin qalibi olan bütün tələbələri təbrik edir, onlara təhsil həyatında uğurlar arzu edirəm.

**Ceyhun Əsgərov,**
*Sumqayıt Dövlət Universitetinin tələbəsi*

1999-cu il 23 iyul tarixində Salyan rayonunun Qaraçala qəsəbəsində anadan olub. Hazırda Sumqayıt Dövlət Universitetinin tarix və coğrafiya fakültəsinin tarix ixtisasında təhsil alır.

- Bu il sosial müdafiəyə ehtiyacı olan istedadlı gənclərin təhsil xərclərinin qarşılanması üçün Gənclər Fondu tərəfindən müsabiqə elan edildi. 1151 gənc elektron ərizə ilə şəffaf olaraq fonda müraciət etdi və onlardan 425 nəfər müsabiqənin qalibi oldu. Qalib olan gənclər yüksək təhsil göstəriciləri, ictimai fəallığı ilə digərlərindən seçilən və sosial müdafiəyə ehtiyacı olanlar idi. Gənclər Fondunun həyata keçirdiyi təhsil xərclərinin maliyyələşdirilməsi ilə bağlı müsabiqədə mən də iştirak etdim və qalib oldum. Mənə və mənim kimi daha neçə-neçə tələbələrə göstərilən bu diqqət və qayğıya görə cənab Prezidentimiz İlham Əliyevə minnətdarlığımı bildirirəm.

**Şıxvəl Mirzəyev,**
*Naxçıvan Dövlət Universitetinin tələbəsi*

9 iyun 2019-cu il tarixində Zaqatala rayonunda anadan olub. 2016-cı ildə Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhər Heydər Əliyev adına məktəbdən məzun olub. Elə həmin il Naxçıvan Dövlət Universitetinə daxil olub.

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Gənclər Fondunun yaradılması respublikamızda istedadlı gənclərin öz təhsillərini davam etdirməsi, istedad və bacarıqlarını nümayiş etdirə bilməsi üçün atılan ən böyük addımlardan biri kimi qiymətləndirirəm. Gənclər Fondunun gənclərə yaratdığı güzəştlərdən yararlananlardan biri də mənəm. Fondun elan etdiyi istedadlı gənclərin təhsil haqqından azad olunması layihəsinə qoşularaq qalib oldum. Bu qalibiyyət mən və ailəm tərəfindən yüksək sevinclə qarşılandı. Öz adımdan, ailəm və ən əsası, layihədə qalib olan gənclər adından Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm. Eləcə də Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov başda olmaqla muxtar respublika rəhbərliyinə biz gənclərə göstərdikləri diqqət və qayğıya görə təşəkkür edirik. Mən Azərbaycanın istedadlı gənclərindən biri kimi, təhsilimə göstərilən diqqəti, etimadı Vətənə, dövlətə və xalqıma layiqli bir şəxs kimi xidmət etməklə doğrultmağa çalışacağam.

# Məqsəd uğurlara istiqamətlənərsə...

## Masallı təhsil işçiləri hədəfləri əməli işə çevirirlər

Şakir CƏFƏROV

Təhsil sahəsinin inkişaf etdirilməsi, ölkəmiz üçün savadlı kadrların və layiqli vətəndaşların yetişdirilməsi təhsilimizin qarşısında duran əsas vəzifələrdəndir. Ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsilə diqqət və qayğısı ildən-ilə artaraq bu sahənin inkişafını sürətləndirib. Bu qayğının nəticəsi olaraq hər il məktəb infrastrukturu yenilənir, yeni məktəb binaları tikilərək müəllim və şagirdlərin istifadəsinə verilir.

Bütün bölgələrdə olduğu kimi, yeni tədris ilində Masallıda da üç yeni məktəb binası istifadəyə verilib. Göyəçöl kəndində 264 yerlik tam orta, Şıxlar kəndində 56, Bala Təklə kəndində isə 96 yerlik modul tipli məktəblər müasir standartlara cavab verməklə şagird və müəllimlər üçün geniş imkanlar açır. Dövlət başçısı tərəfindən təhsilə göstərilən bu diqqət və qayğı müəllimləri sevindirir, eyni zamanda onların məsuliyyətini daha da artırır. Masallı rayon təhsil işçiləri də bu diqqətdən ruhlanaraq məktəblilərə daha yüksək keyfiyyətli təhsil verməyə çalışırlar. Yeni dərs ilinə yeni hədəflərlə başlayan Masallı təhsil işçiləri üçün 2018/2019-cu tədris ili bir sıra uğurlarla yadda qalıb.

Belə ki, 2018-2019-cu tədris ili üçün ümumtəhsil məktəb müəllimlərinin iştirakı ilə Pedaqoji mühazirələr keçirilərək Masallı RTŞ-nin təşkilat komitəsi tərəfindən dinlənilib. Nəticə olaraq, Bədələn kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi Məhbubə Şahbazova Tərifnamə, şəhər 3 nömrəli tam orta məktəbin coğrafiya müəllimi Füzuli Nuriyev III, Mololon kənd tam orta məktəbinin direktoru Ağəmməd Şəmədov isə I yerlərə layiq görülüblər.

Təhsil sistemində mühüm önəm daşıyan məsələlərdən biri də istedadlı şagirdlərin aşkar edilməsi, onlara diqqət və qayğının artırılmasıdır. Bu məqsədlə RTŞ-də istedadlı şagirdlərin məlumat bankı yaradılıb.

2018-2019-cu tədris ilində Respublika Fənn Olimpiadalarının final mərhələsində S.Xəlilov adına Qızılağac kənd 1 nömrəli tam orta məktəbin X sinif şagirdi Toğrul Səfərli coğrafiya fənni üzrə I, Sığdaş kənd tam orta məktəbinin XI sinif şagirdi Şəhla Sadıxova isə Azərbaycan dili və ədəbiyyat fənni üzrə III yerlərə layiq görülüblər. Həmçinin, Şəhla Sadıxova XI sinif buraxılış imtahanlarında yüksək nəticə göstərdiyinə görə qızıl medalla da təltif olunub.

30 mart 2019-cu il tarixdə Lənkəran Dövlət Universitetinin təşkilatçılığı ilə fizika, riyaziyyat, kimya, biologiya və informatka fənləri üzrə keçirilən fənn olimpiadalarında Bambaşı kənd tam orta məktəbinin XI sinif şagirdi Fərid Rufullayev II, Şərəfə kənd tam orta məktəbinin XI sinif şagirdi Surə Seyfullayeva II, Qızılağac kənd 1 nömrəli tam orta məktəbin X sinif şagirdi Toğrul Səfərli yüksək bilik nümayiş etdirərək I yerlərə layiq görülüblər.

Respublika Uşaq Yaradıcılıq Festivalının 8-10 iyun tarixlərində keçirilən final mərhələsində Dəmirçi kənd ümumi orta məktəbin IX sinif şagirdlərindən ibarət komandası dram müsabiqəsi üzrə ikinci olub.

Azərbaycan Dillər Universitetinin dəstəyi ilə fevralın 7-də keçirilən Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş inşa yazı müsabiqəsində Ərkivan qəsəbə C.Cabbarlı adına 1 nömrəli tam orta məktəbin VIII sinif şagirdi Jalə Məmmədli II yeri tutub.

"Ədəbiyyat biliciləri" respublika müsabiqəsinin rayon turu ümumtəhsil məktəblərini tam əhatə edib, müsabiqədə ən istedadlı şagirdlərin iştirakı təmin olunub. Müsabiqənin respublika mərhələsinə 3 şagird vəsiqə qazanıb.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsinin rayon mərhələsi uğurla keçirilib, rayon mərhələsinin qalibi Yolağac kənd tam orta məktəbinin XI sinif şagirdi İlkanə Sovziyeva olub. O, müsabiqənin respublika mərhələsində II yerə layiq görülüb, diplomla mükafatlandırılıb.

2018-2019-cu tədris ilinin XI siniflər üzrə buraxılış imtahanlarında şəhər 4 nömrəli Digah tam orta məktəbinin şagirdi Şəhriyar Səmədov 300 mümkün balı toplayaraq Respublikada 2 şagirddən biri olub.

AFFA-nın təşkil etdiyi VII sinif şagirdləri arasında "Coca-Cola" məktəbli kubokunun respublika final mərhələsində şəhər 4 nömrəli Digah tam orta məktəbinin komandası I yerə layiq görülərək Respublika çempionu adını qazanıb.



24-26 aprel 2019-cu il tarixdə Təzə Alvadı kənd 2 nömrəli tam orta məktəbin VIII sinif şagirdi Nərmin Babayeva Bakı şəhərində "Sərhədçi" İdman Kompleksində keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş idmanın cudo növü üzrə azyaşlılar arasında respublika birinciliyində II yerdə qərarlaşıb.

Respublika XI Rus dili olimpiadasında Şatıroba kənd tam orta məktəbinin VIII sinif şagirdi Səbinə Cəfərova I, Yeddioymaq 1 nömrəli tam orta məktəbin VIII sinif şagirdi Dilbər Quliyeva II, şəhər 4 nömrəli tam orta məktəbin VIII sinif şagirdi Firuzə Nazarlı isə III yerlərə layiq görülüblər.

Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqəsində Ümumi təhsil kateqoriyası üzrə Banbaşı kənd tam orta məktəbi, fərdi kateqoriyalar üzrə Çayqıraq kənd ümumi orta məktəbin informatika müəllimi Rabil Abdinov, Mollahəsənli kənd tam orta məktəbinin ingilis dili müəllimi Cavad Cəfərov, şəhər 1 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi Araz Şahverdiyev və Bədələn kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi Məhbubə Şahbazova qalib olublar.

Mahmudavar kənd tam orta məktəbinin şagirdi Aytac Qafarova IX siniflər üzrə buraxılış imtahanlarının II mərhələsində 90 suala cavab verərək 100%-lik nəticə göstərib.

Masallı təhsili IX-XI sinif buraxılış imtahan nəticələrinə görə reytinq cədvəlində 8 pillə irəliləyib.

2018/2019-cu tədris ilində rayon təhsil şöbələrinin hesabatlarının nəticələrinə görə Təhsil Nazirliyinin müvafiq əmrlərində təsbit edilmiş hədəflərin yerinə yetirilməsi bir sıra şəhər və rayonlarda, eləcə də Masallıda daha qənaətbəxş olub.

Masallı təhsil işçiləri bu tədris ilində də təhsilin inkişafı üçün səylərini əsirgəməyəcəklər.

# Azərbaycan dili dərslərində layihələr üzrə işin təşkili



## Məqsəd şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirməkdir

**Elnur ƏLİYEV,**
*Salyan rayonu, Yenikənd kənd tam orta məktəbinin müəllimi*

Layihələrin hazırlanması müxtəlif mövzuların müstəqil şəkildə tədqiq edilməsidir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Layihələr şagirdlərin tədqiqat vərdişlərinin, biliklərə müstəqil yiyələnmə bacarıqlarının formalaşmasında mühüm rol oynayır, onlara müstəqil şəkildə öz fəaliyyət proqramlarını qurmağa, habelə öz vaxtını və işini qrafik üzrə planlaşdırmağa kömək edir. Bu üsul, həmçinin şagirdlərin bir-biri ilə, eləcə də məktəbdən kənarda müxtəlif adamlarla qarşılıqlı əlaqəsi üçün şərait yaradır, hadisələrin hər hansı bir aspektini daha dərindən anlamağa imkan verir, əlavə ədəbiyyatdan istifadə etməyə istiqamətləndirir.

Layihələr hazırlayarkən müəllim mövzu və ya problemləri müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir. Mövzu, yaxud problem, həmçinin sinif tərəfindən "əqli hücum" üsulu ilə seçilə bilər.

Mövzu və ya problem konkret olmalıdır. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin başlama və başa çatma müddətini, istifadə olunacaq əyani vasitələri (ədəbiyyatlar, mənbələr, təsviri vasitələr və s.), bunları əldə etmək yollarını, iş formalarını (fərdi, yoxsa qrup şəklində) müəyyən edirlər.

İş prosesində müəllim suallara cavab verə, yaxud yol göstərə bilər. İşin icrasına isə şagirdlər özləri cavabdehdirlər.

Tədqiqatın nəticəsi hesabat, xəritə, illüstrasiya, fotoşəkillər, cədvəllər, qrafiklər formasında ifadə oluna bilər.

Azərbaycan dili dərslərində müvafiq mövzu üzrə evdə işləmək üçün şagirdlərə layihə tapşırıqlarının verilməsi tövsiyə olunur. Bu layihələr yazılı (tədqiqat əsəri) və ya şifahi (məruzə) şəklində təqdim oluna bilər. Birinci halda bu tapşırıq "3.1.2. Mövzu ilə bağlı topladığı materiallar əsasında mətn hazırlayır", ikinci halda "1.2.4. Hər hansı fakt və hadisə ilə bağlı fikir bildirir" standartına xidmət edir.

Məruzə layihə hazırlamağın növlərindən biri kimi araşdırma və danışma bacarığını inkişaf etdirən üsuldur.

Hər bölmənin sonunda şagirdlərə həmin bölmənin mövzusu ilə bağlı məruzə hazırlamağı tapşırmaq olar. Müəllim bölmənin mövzusunu problemlərə bölüb hər problemlə bağlı bir məruzə hazırlamağı tapşıra bilər. Məruzənin hazırlanmasında müəllim və valideyn köməyi vacibdir. Məruzə qruplar tərəfindən, yaxud fərdi şəkildə hazırlana bilər.

Şagirdlərin məktəbdən sonra qrup şəklində işləmələri onlarda əməkdaşlıq, kollektiv layihə üzərində iş, vəzifə bölgüsü və digər sosial bacarıqların formalaşması üçün çox əhəmiyyətlidir. Kollektiv ev layihələri, həmçinin müxtəlif nitq bacarıqlarının inkişafında, əsas məzmun standartlarının reallaşdırılmasında böyük rol oynayır.

Layihə təlim üsuludur və adətən, uzunmüddətli olur. Bu üsul hər hansı bir mövzunun şagird tərəfindən müstəqil araşdırılmasına imkan verir. Təlim nəticəsinə xidmət edən mövzu müəllim tərəfindən müəyyən olunur.

Layihənin verilməsində əsas məqsəd şagirdlərin öz nailiyyət və fəaliyyətlərinə özlərinin müstəqil şəkildə cavabdehlik daşımasına imkan yaratmaqdır.

Qiymətləndirmə əvvəlcədən müəyyənləşdirilmiş meyarlar üzrə aparılmalıdır.

Yuxarı siniflərdə şagirdlərə iki layihə təqdim olunur:

1) Kompleks lüğət hazırlamaq;
2) Qəzet hazırlamaq.

Şagirdlərin arzu və istəklərinə, xüsusən də bacarıqlarına əsasən sinfi qruplara bölüb, hər qrupa bir layihəni tapşırmaq daha məqsədəuyğundur.

Hər bölmədə təqdim edilən sözlərin leksik və qrammatik mənalarının, vurğularının düzgün tələffüzünün müəyyənləşdirilməsi son səhifədə nümunə kimi təqdim olunan kompleks lüğətin yaranmasına səbəb olacaq.

Yuxarı siniflərdə şagirdlərə qəzet maketi hazırlamaq üçün layihə işi sxem şəklində təqdim edilmişdir. Layihənin məqsədi, forması, şagirdlərin görəcəyi işlər dərsliklərdə verilmişdir. Bu layihə rus bölməsi üçün hazırlanmış Azərbaycan dili tədris vəsaitlərində də vardır. Yaxşı olar ki, (əgər müəllimlər uyğun bilərlərsə) bu layihə hər iki bölmənin iştirakı ilə (əgər məktəbdə hər iki bölmə mövcuddursa) hazırlansın və məktəbin mətbu orqanı hesab edilsin.

Şagirdlər informatika dərslərində Microsoft Office proqramlarından istifadə qaydalarına yiyələndikləri üçün layihəni hazırlamaq onlara çətinlik törətməyəcək.

Əgər məktəbin İKT ilə təminatı yoxdursa, şərait buna imkan vermirsə, müəllim bunu adi vatman kağızlarından istifadə etməklə də həyata keçirə bilər. Bu layihə üzərində şagirdləri çalışdırmaqla müəllim onlarda qruplarda komanda şəklində işləmək, toplamaq, sistemləşdirmək, yazıları düzəltmək, ədəbi dilin normalarına uyğun yazı yazmaq, sual tərtib etmək, şəkil çəkmək, onu başqalarına rəy üçün təqdim etmək, fərqli fikirlərə, tənqidə dözümlülük kimi bacarıqlar formalaşdıra biləcəkdir.

Yuxarı sinif dərsliklərində bir neçə yerdə qəzet və ya jurnal materialı üzərində iş aparmaq üçün tapşırıqlar verilmişdir. Bu tapşırıqları icra edən şagird istər-istəməz Azərbaycan mətbuatı ilə tanış olacaq, mütaliə edəcək, müsbət və mənfi tərəfləri müəyyən edəcək, münasibət bildirəcək, əgər lazımdırsa, yazıya düzəliş edəcək və fikrini əsaslandıracaq. Bu tipli tapşırıqları mərhələli şəkildə icra edən şagird, təbii ki, mükəmməl yazı vərdişlərinə yiyələnəcəkdir.

Müəllim şagirdlər tərəfindən qəzetdə yerləşdiriləcək mətnlərin daha çox məktəblə, təhsillə, şagirdlərin peşə seçimi ilə bağlı olmasına çalışmalıdır. Toplanılan materiallar təkcə Azərbaycan dili dərslərində öyrəndikləri ilə yekunlaşmamalıdır. Digər fənlərin tədrisi zamanı öyrəndikləri maraqlı fakt və hadisələrin maketdə öz əksini tapması fənlərarası əlaqələrin yaranması üçün imkan yaradar.

İl ərzində yazılan məqalələr, şərhlər, müsahibələr və s. şagirdlər tərəfindən qəzetin müvafiq səhifəsində yerləşdirilir.

Layihələrin hazırlanmasında məqsəd şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirməkdir.

# "Müəllim üçün tələbənin uğurları çox vacibdir"

Dövlət Proqramı məzunları

Oruc MUSTAFAYEV

Hər bir ölkənin inkişafı onun dünyada rəqabət qabiliyyətliliyini müəyyən edən insan potensialının hərtərəfli hazırlığından, intellektual səviyyəsindən asılıdır. Bu mənada ölkə Prezidenti İlham Əliyev tərəfindən qəbul olunmuş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" mühüm əhəmiyyət kəsb edir. Məhz bu proqram ölkəmizdə yenilikçi, müasir düşüncəli, yüksək hazırlıqlı milli mütəxəssislərin yetişməsində mühüm rol oynamışdır. Proqramın ilk məzunları artıq cəmiyyət həyatının müxtəlif sahələrində çalışmaqla Azərbaycanın inkişafında öz töhfələrini verməkdədir. "Dövlət Proqramı məzunları" rubrikasında növbəti müsahibimiz hazırda Energetika Nazirliyi tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyində baş mütəxəssis vəzifəsində çalışan Tomris Bayramovadır. Onunla iş yerində görüşüb söhbətləşirik.



**Tanıtım:** 1987-ci ildə Bakı şəhərində anadan olub. Orta təhsilini Bakıdakı 15 nömrəli tam orta məktəbdə alıb. Orta təhsilinin sonuncu ilində (2003-2004-cü illərdə) ABŞ-ın İndiana ştatının South Central Jr/Sr High School məktəbində oxuyub. 2005-2009-cu illərdə Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "İnformasiya işlənməsi və idarəetmənin avtomatlaşdırılması sistemləri" ixtisası üzrə bakalavr, 2012-2014-cü illərdə isə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində ABŞ-ın İndiana Universitetində "Ətraf mühit siyasəti və təbii resursların idarə olunması" ixtisası üzrə magistratura təhsili alıb. Həmçinin Norveçdə ixtisası üzrə 6 həftəlik proqram keçib. Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətində (GİZ) ekspert, təlimçi kimi işləyib.

## *Tomris Bayramova:* "Xaricdəki təhsil də insanı real həyata daha yaxşı hazırlayır"

**- Xaricdə təhsilə necə qərar verdiniz...**

- Xaricdə təhsil ən böyük arzum idi. Kinolarda gördüyümüz kimi, bir amerikalı tələbənin həyatını yaşamaq mənə maraqlı gəlirdi. Təbii ki, komfort zonasından çıxmaq, özgə ölkədə, tam fərqli bir təhsil sistemində təhsil almaq qərarı cəsarət tələb edir. Bundan əlavə, mütləq şəkildə özümə güvənməli idim, əks halda, uğursuzluğa düçar olardım.

ABŞ-ın ətraf mühit siyasəti üzrə bir nömrəli proqramında təhsil almaq bir çoxları üçün əlçatmaz bir məqsəddir. Mən də bütün istək və cəsarətimi toplayaraq, sənədlərimi hazırladım və müraciət etdim. Ən çətin, lakin daha dəyərli biliklər verən proqramda oxumaqla öz gələcək karyerama bir uğur biletini qazandım.

**- Bir məzun olaraq Dövlət Proqramının əhəmiyyətini necə qiymətləndirirsiniz?**

- Xaricdə təhsil üzrə DP-nin köməyi ilə mənim kimi ABŞ-da təhsili ancaq xəyal edə biləcək yüzlərlə gəncə öz arzularını həyata keçirmək imkanı yaradıldı. Proqramın ilk məzunları Azərbaycana qayıdandan, ölkədə savadlı, dünyagörüşlü cavan kadrların sayı artdı, bu isə, təbii ki, iqtisadiyyatın inkişafında öz rolunu oynayır. Proqramın real nəticələrini biz növbəti 10-15 il ərzində görəcəyik, bu zaman xaricdə təhsil almış gənclər həm dövlət, həm də özəl sektorunda ən yüksək pillələrdə işləyəcəklər.

**- Ölkəmizdə istedadlı gənclərə göstərilən dövlət qayğısı barədə nə deyə bilərsiniz?**

- Dövlətimiz tərəfindən gənclərə aid bir çox layihələr həyata keçirilir, həm idman, həm turizm sahələrində, həmçinin də gənclərin məşğulluğunu yüksəltmək üçün çoxlu iş aparılır. Dövlətlərarası proqramlar və Gənclər Fondunun köməyi ilə tələbələrimiz Azərbaycanda və xaricdə təhsil almaq üçün dəstəklənir. Təbii ki, bu, çox sevindirici və alqışlanası tədbirlərdir.

**- Hansı universitetdə təhsil aldınız? İxtisasınız barədə bir qədər ətraflı məlumat verərdiniz...**

- İndiana Universitetinin "İctimai və ətraf mühit məsələləri" fakültəsinin " Ətraf mühit siyasəti və təbii sərvətlərin idarə olunması" proqramında oxumuşam. Ətraf mühit siyasəti və təbii sərvətlərin idarə olunması, dünyanın hazırkı vəziyyətini nəzərə alsaq, ən mühüm məsələlərdən biridir. BMT-nin Davamlı İnkişaf Məqsədlərinin 17-dən 6-sı birbaşa, qalanları isə dolayı yolla ətraf mühitlə bağlıdır. Hər bir inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkə xoşbəxt cəmiyyət yaratmaq üçün bütün bu məqsədlərə eyni səviyyədə diqqət ayırmalıdır. Zənnimcə, bizim ölkə də bu sahədə kifayət qədər aktivdir, misal üçün elə xaricdə təhsil üzrə Dövlət Proqramı ilə təhsil almaq məqsədilə təqaüdə müraciət etdiyim ildə də ətraf mühit prioritet sahələr arasında idi. Bu da əvvəlcə qeyd etdiklərimin əyani sübutudur.

**- Azərbaycana qayıtdıqdan sonra harada işlədiniz? Hazırkı fəaliyyətiniz barədə danışa bilərsinizmi?**

- Öncə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin Biomüxtəlifliyin Cənubi Qafqazda İnteqrasiyalı idarəolunması layihəsində işlədim. Hazırda Azərbaycan Respublikası Energetika Nazirliyi tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Strateji Planlaşdırma və İnnovasiyalar şöbəsində baş mütəxəssis vəzifəsində çalışıram. İşim daha çox donor təşkilatlar, xarici ekspertlərlə əməkdaşlığın qurulmasından ibarətdir. Apardığım layihələr çərçivəsində Agentliyin əməkdaşlarının bilik və bacarıqlarının artırılması, enerji tənzimlənməsi sahəsində qanunvericilik bazasının gücləndirilməsi kimi işlər görülür.

Bundan əlavə, ADA Universitetində də dərs deyirəm. Buradakı işim ətraf mühit elmi üzrə bakalavr səviyyəsində təhsil alan tələbələrə dərs verməkdən ibarətdir. Hər semestr 2-3 qrup götürürəm, bu da 100-150 tələbə deməkdir. Təbii ki, gənclərlə işləmək çox xoş və qürurverici bir təcrübədir.

**Xaricdə təhsilin ən böyük üstünlüyü, tədrisin yeni üsullarını öyrənmək, yeni dostlar tapmaq, fərqli mədəniyyətlə tanış olmaq imkanıdır. Təhsilin bir neçə pilləsini xaricdə görə bildiyim üçün bir çox şeyi müqayisə edə bilmişəm. Xaricdə gənclər çox tez bir zamanda müstəqil olmağı öyrənirlər, sanki xaricdəki təhsil də insanı real həyata daha yaxşı hazırlayır.**

**- ABŞ-da öyrəndiklərinizdən yararlana bilirsinizmi?**

- ABŞ-da öyrəndiklərimdən nəinki yararlanıram, həmçinin digərlərini də öyrədə bilirəm. Hər iki işdə biliklərimlə bölüşməyə çalışıram. ABŞ-da aldığım təhsil mənə çox böyük spektrli biliklər verib, buraya həm ümumi və ətraf mühit iqtisadiyyatı, xərc-fayda analizi, coğrafi informasiya sistemləri, ətraf mühit siyasəti və hüququ daxildir.

**- İndiana Universitetində təhsil mühiti necə idi? Müəllim-tələbə münasibəti barədə nə deyə bilərsiniz?**

- ABŞ-dakı təhsil mühitini başqa ölkələrlə müqayisə etmək olmaz. ABŞ təhsili dünyada məşhurdur və ali təhsil ocaqları hər zaman ilk onluqda, ilk yüzlükdə çoxluq təşkil edir. ABŞ-da xüsusilə də magistratura təhsilində müəllim-tələbə mühiti tam fərqlidir. Burada tələbə və müəllimlər hər zaman bir yerdə çalışır, əməkdaşlıq edir. Müəllim üçün tələbənin uğurları çox vacibdir, hətta öz CV-lərində dövlət proqramı, təqaüdlə oxuyan tələbələrin adlarını əlavə edənlər var, çünki təqaüd sahibinə təhsil vermək ABŞ-da çox prestijli hesab olunur. ABŞ-da dərsliklər həddindən artıq bahadır, hər semestr 300-400 dollar təkcə kitablara xərcləyə bilərsən. Nəinki dərsliklər, təhsil özü də həddindən artıq çox bahadır və Dövlət Proqramının 9 il boyu yüzlərlə tələbələrə belə keyfiyyətli təhsil alması üçün yaratdığı imkan, əslində hər hansı kəmiyyətlə dəyərləndirilə bilməz. Universitetdəki həmkarlarımın bir çoxusu da bu proqramdan yararlanıb, bu isə o deməkdir ki, proqram məzunları Vətənə qayıdaraq biliklərini gənclərimizə çatdırmağı bacarır. Hazırda dövlətimiz ölkələrarası əməkdaşlıq çərçivəsində də onlarla tələbəni hər il Avropa və Asiya ölkələrinə göndərir. Bir çox keçmiş tələbələrimin də hazırda bu proqramlardan yararlanmasına görə həm sevinirəm, həm də qürur duyuram.

**- Gənclərimizə nə kimi tövsiyələriniz olardı?**

- Xaricdə təhsilin ən böyük üstünlüyü, tədrisin yeni üsullarını öyrənmək, yeni dostlar tapmaq, fərqli mədəniyyətlə tanış olmaq imkanıdır. Təhsilin bir neçə pilləsini xaricdə görə bildiyim üçün bir çox şeyi müqayisə edə bilmişəm. Xaricdə gənclər çox tez bir zamanda müstəqil olmağı öyrənirlər, sanki xaricdəki təhsil də insanı real həyata daha yaxşı hazırlayır. Məktəbi bitirən kimi məktəblilər ailələrindən uzaq şəhərə, başqa ştata və yaxud başqa ölkəyə köçürlər. Valideynlər də bunu çox normal qəbul edir. İstərdim ki, bizim gənclərimiz də tez müstəqil olsunlar, sərbəst qərar verə bilsinlər.

**- Gənclərimizin xaricdə təhsil almaq səylərini necə qiymətləndirirsiniz?**

- Öz tələbələrimdən müşahidə edirəm ki, xaricə gedib təhsillərini orada davam etdirməyə çox can atırlar. Hazırda imkanlar da çoxdur, 20 il bundan əvvəl bu cür arzular əlçatmaz görünürdü. Əsas tələbələrdə istək olsun, dünyanın hansı yerində olursa-olsun, təhsil almağa çalışsınlar, kitab oxusunlar, elmlə "dost" olsunlar. Təhsil aldığım dövrdə hər zaman işləmişəm, birbaşa ixtisasım üzrə olmasa da, hər zaman sərbəst, müstəqil həyat sürmək üçün əməyimi və vaxtımı əsirgəməmişəm.. İnsan nəyisə bütün ürəyi ilə istəyirsə, mütləq əldə edəcək, bütün aləm ona bu işdə dəstək göstərəcək.

**- Gələcək hədəfləriniz...**

- Gələcək hədəfim sevdiyim işlə məşğul olmağı davam etdirməkdir. Ətraf mühitin mühafizəsi həyatımın ən böyük ehtirasıdır. Eyni zamanda, enerji sahəsində də müxtəlif islahatlarda, kiçik də olsa, öz rolumu oynamaq məni sevindirir. Lakin təbii ki, bununla kifayətlənmək istəməzdim. Bir gün təhsilimi doktorantura pilləsində davam etdirmək istərdim. Hazırda özüm də dərs dediyim üçün bunun bir daha zəruri olduğunu görürəm.

Digər tərəfdən, ətraf mühit və enerji sahələrində innovasiyaların çox olduğunu nəzərə aldıqca, ola bilsin ki, bir gün tələbələrimlə birgə hər hansı bir start-up layihə vasitəsilə qlobal problemlərdən birinin həlli üçün səy göstərmək istərdim.

# Məktəblilər zərərli vərdişlərə qarşı maarifləndirilirlər

Paytaxt məktəblərində narkomaniya və digər zərərli vərdişlərlə mübarizəyə həsr olunan maarifləndirici tədbirlər keçirilir.

Belə ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində "Narkomaniya bəşəriyyətin bəlasıdır", "Narkomaniyaya yox deyək!", "Narkomaniyaya qarşı mübarizə və zərərli vərdişlərdən qorunma yolları", "Narkotiklərə yox!" və bu kimi digər mövzularda maarifləndirici tədbir, "dəyirmi masa", konfrans, seminar, mühazirə, müsabiqə və sərgilər təşkil olunur.

Tədbirlərdə rayon polis idarələrinin əməkdaşları, şagirdlər, müəllimlər və valideynlər iştirak edirlər.

Tədbirlərin keçirilməsində əsas məqsəd şagirdləri narkomaniya və digər zərərli vərdişlərin fəsadları barədə məlumatlandırmaq, narkomanlığın cəmiyyətdə yaratdığı sosial bəlalar və insanların sağlamlığına vurduğu ziyanlarla bağlı məktəblilər arasında təbliğat aparmaq, onları belə neqativ əməllərdən çəkindirmək, şagirdlərin təhsilə, elmə, idmana olan marağını artırmaqdan ibarətdir.

Maarifləndirici tədbirlərdə gənclərə zərərli vərdişlərdən uzaq olmaq və həmin sosial bəlaya qarşı mübarizə aparmaq üçün tövsiyələr verilir.

Tədbirlərdə çıxış edənlər narkomaniyanın cəmiyyətə və ümumilikdə, bəşəriyyətə çox böyük ziyan vurması, mümkün olan bütün vasitələrdən istifadə edərək, onun qarşısının alınması barədə geniş məlumatlar verirlər.

Həmçinin, müvafiq məsələlərə dair fikir və təkliflər irəli sürülür, şagirdləri maraqlandıran suallar cavablandırılır.

Tədbirlərdə narkomaniya və digər zərərli vərdişlərin fəsadlarına dair ədəbi-bədii kompozisiyalar təqdim edilir, sənədli filmlər və videoçarxlar nümayiş olunur.



# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL LearnEnglish

## How British people say ‘No’

By Ian Betteridge

### Activity 1

Before you read, check the words (a-d) in a dictionary or online. Then put them into sentences 1–4.

| | | | |
|---|---|---|---|
| **a.** clues | **b.** fluent | **c.** offer | **d.** respond |

1. You are .......... in a language if you can communicate easily and well using it.
2. If you answer someone, then you .......... to them.
3. If someone makes an .........., then they are asking if you want something.
4. .......... are pieces of information that you could use to understand something.

British people often feel embarrassed about responding to offers with the word ‘no’. It feels rude, especially when speaking to strangers. This can be very confusing for people from other countries, especially if they are not fluent English speakers.

One of the first things you learn when you start studying English is how to answer if somebody offers you something. ‘Yes, please’ and ‘No, thank you’ are probably the best-known phrases in the language. Yet British people often say, ‘I’m all right, thanks’ when you offer them something. When they say this, they mean that they have already got everything that they need and don’t need anything else – i.e. it is a way to say no without being rude. However, British people often say ‘all right’ when they want to say yes to an offer. The same word can be used in different ways to say both yes and no, and sometimes differences in pronunciation are the only clues to understanding.

Manjit is an assistant in a shop selling souvenirs and tours to tourists. ‘It’s very difficult to understand what British customers want,’ he says. ‘I ask them if they want to buy something and they tell me that they are all right. Often when I ask if they want to go on a tour, they say, “Maybe later,” but really they don’t want it and may never come back to the shop.’

‘Even when they want to say yes, it’s confusing,’ says Manjit. ‘They say, “Sure” or “Why not?” instead. Why can’t British people just say what they mean? It’s so confusing!’

### Activity 2.1

Read 1–5 below. Are they true, false or not given?

1. British people feel it is polite to respond to an offer by saying ‘no’.
2. Only fluent English speakers can hear differences in pronunciation.
3. The phrase ‘all right’ can be used in different ways to mean both yes and no.
4. Tourists only visit Manjit’s shop once.
5. Manjit would understand better if his British customers spoke more clearly.

### Activity 2.2

Look at 1–5 below. Are they used to mean ‘**yes**’ or ‘**no**’? Choose a. or b.

**a.** Yes
**b.** No

1. Sure.
2. All right.
3. Maybe later.
4. Why not?
5. I’m all right, thanks.




### Activity 3

Read 1–4 below then change them into reported speech. Choose a, b, or c.

**1.** ‘It’s difficult to understand what this customer wants.’
**a.** He said that it was difficult to understood what the customer wants.
**b.** He said that it is difficult to understand what this customer wanted.
**c.** He said that it was difficult to understand what that customer wanted.

**2.** ‘Do you want to buy this souvenir?’
**a.** I ask him if he wants to buy this souvenir.
**b.** I asked him if he wanted to buy this souvenir.
**c.** I asked him if he wanted to bought this souvenir.

**3.** ‘Maybe I will come back tomorrow.’
**a.** She said that maybe she will come back the next day.
**b.** She say that maybe she would came back the next day.
**c.** She said that maybe she would come back the next day.

**4.** ‘Why can’t those customers say what they mean?’
**a.** She asked why those customers couldn’t say what they meant.
**b.** She asked why those customers can’t said what they mean.
**c.** She asks why that customers can’t said what they meant.

### Activity 4

Are there any unusual phrases in your language that might confuse somebody from a different place?

### Answers

**Activity 1**
1. b; 2. d; 3. c; 4. a
**Activity 2.1**
1. False (F); 2. Not given (NG); 3. True (T); 4. NG; 5. T
**Activity 2.2**
1. a; 2. a; 3. b; 4. a; 5. b
**Activity 3**
1. c; 2. b; 3. c; 4. a

**To find more English language activities visit www.britishcouncil.org/learnenglish**

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Naxçıvan Dövlət Universiteti

aşağıdakı kafedralar üzrə müsabiqə

## ELAN EDİR:

**Fakültə üzrə dekan vəzifəsini tutmaq üçün**

1. Sosial idarəetmə və hüquq fakültəsi

**Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün**

1. Təsviri incəsənət
2. Təməl tibb fənləri

**Kafedralarda boş olan vəzifələri tutmaq üçün**

| | | |
|---|---|---|
| 1. İngilis dili və tərcümə | - baş müəllim | - 1 yer, |
| 2. İngilis dili və metodika | - müəllim | - 1 yer, |
| 3. Beynəlxalq münasibətlər | - müəllim | - 1 yer (0.5 şt), |
| | - müəllim | - 1 yer, |
| | - dosent | - 1 yer (0.5  şt), |
| 4. Azərbaycan dili və ədəbiyyatı | - baş müəllim | - 1 yer, |
| | - dosent | - 1 yer (0.5 şt), |
| 5. Jurnalistika və kitabxanaçılıq | - baş müəllim | - 1 yer (0.5 şt), |
| | - baş müəllim | - 1 yer, |
| | - dosent | - 1 yer (0.5 şt), |
| | - dosent | - 1 yer, |
| 6. Ümumi tarix | - dosent | - 2 yer, |
| 7. Azərbaycan tarixi | - müəllim | - 1 yer, |
| | - baş müəllim | - 1 yer, |
| | - dosent | - 1 yer, |
| 8. Botanika | - müəllim | - 1 yer, |
| | - professor | - 1 yer (0.5 şt), |
| 9. Kimya | - müəllim | - 1 yer (0.5 şt), |
| 10. Coğrafiya | - müəllim | - 1 yer (0.5 şt), |
| | - baş müəllim | - 3 yer, |
| | - dosent | - 1 yer (0.5 şt), |
| 11. Zoologiya | - professor | - 1 yer (0.5 şt), |
| 12. Hüquq fənləri | - müəllim | - 1 yer (0.5 şt), |
| | - müəllim | - 2 yer, |
| | - baş müəllim | - 2 yer, |
| 13. Fəlsəfə və sosial iş | - müəllim | - 1 yer, |
| | - baş müəllim | - 2 yer, |
| 14. Musiqi təlimi | - müəllim | - 2 yer, |
| | - baş müəllim | - 2 yer, |
| | - dosent | - 1 yer (0.5 şt), |
| 15. Xalq çalğı alətləri | - müəllim | - 1 yer, |
| | - baş müəllim | - 1 yer, |
| 16. Təsviri incəsənət | - baş müəllim | - 1 yer, |
| 17. Orkest alətləri və dirijorluq | - müəllim | - 2 yer, |
| | - dosent | - 1 yer (0.5 şt), |
| 18. Teatr və mədəniyyətşünaslıq | - baş müəllim | - 1 yer (0.5 şt), |
| 19. Fortepiano | - baş müəllim | - 1 yer, |
| 20. Çağırışaqədərki hazırlıq və mülki müdafiə | - dosent | - 1 yer, |
| 21. Bədən tərbiyəsi və idman | - dosent | - 1 yer (0.5 şt), |
| | - dosent | - 2 yer, |
| 22. Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi | - dosent | - 1 yer (0.5 şt), |
| 23. Pedaqogika və psixologiya | - baş müəllim | - 1 yer, |
| 24. İqtisadiyyat | - baş müəllim | - 1 yer, |
| 25. Mühasibat uçotu və maliyyə | - baş müəllim | - 1 yer, |
| 26. Dünya iqtisadiyyatı | - baş müəllim | - 1 yer, |
| 27. Ümumi və nəzəri fizika | - baş müəllim | - 1 yer, |
| 28. İnformatika | - müəllim | - 2 yer, |
| 29. Ümumi riyaziyyat | - müəllim | - 1 yer (0.5 şt), |
| | - dosent | - 1 yer, |
| 30. Təməl tibb fənləri | - müəllim | - 1 yer, |
| 31. Meliorasiya və STTM | - müəllim | - 1 yer (0.5 şt), |
| | - müəllim | - 2 yer, |
| 32. Rabitə və nəqliyyat mühəndisliyi | - baş müəllim | - 2 yer, |
| | - dosent | - 2 yer (0.5 şt), |
| 33. Ümumi təbabət və gigiyena | - baş müəllim | - 2 yer, |
| 34. Memarlıq | - baş müəllim | - 1 yer, |
| 35. Energetika mühəndisliyi | - dosent | - 1 yer. |

*Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.*

**Ünvan:**
Naxçıvan şəhəri, Universitet şəhərciyi.
**Telefon:**
(036)545-23-66/10-01

**REKTORLUQ**


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktorun müavini**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6427, **Sifariş** 3439

**Məsul növbətçi:** Ş.Cəfərov


## "Kod saatı"nın növbəti mərhələsi

Mingəçevir şəhər 15 nömrəli Humanitar Liseydə "Rəqəmsal bacarıqlar" layihəsi çərçivəsində proqramlaşdırma dünyasında genişmiqyaslı tədbir olan "Kod saatı"nın növbəti mərhələsi keçirilib.

Təhsil Nazirliyinin və "Alqoritmika" beynəlxalq təhsil şirkətinin təşkilati dəstəyi ilə keçirilən tədbirdə 520 məktəbli iştirak edib.

Tədbir zamanı şagirdlərə və onların valideynlərinə "Rəqəmsal bacarıqlar" layihəsi haqqında ətraflı məlumat verilib. Şagirdlər "Scratch"-uşaq və yeniyetmələr üçün xüsusi yaradılmış vizual proqramlaşdırma mühitində məsələləri həll etmək imkanı əldə ediblər. Qeyd edək ki, "Kod saatı" təşəbbüsü 2013-cü ildə Hadi və Əli Partovi qardaşları tərəfindən tətbiqinə başlanılan və insanlara proqramlaşdırmanı öyrətmək məqsədi daşıyan qlobal təşəbbüsdür.

Layihənin ideya müəllifləri bütün sahələrdə hesablama tapşırıqlarını yerinə yetirmək qabiliyyətinə malik mütəxəssislərə çox böyük ehtiyac olduğunu deyərək, insanlara proqram kodunu yazmağı öyrənmək üçün bir saat vaxt ayırmağı təklif ediblər. Bir çox ölkələr bu təşəbbüsə qoşulub. Hazırda "Kod saatı" dünyanın 180-dən çox ölkəsində yüz milyonlarla tələbə və şagirdi əhatə edir.

"Kod saatı" təşəbbüsünün əsas məqsədi proqramçı peşəsini məktəblilər arasında populyarlaşdırmaq, şagirdlərin və onların valideynlərinin diqqətini yüksək informasiya texnologiyaları ilə bağlı peşələrə cəlb etmək, həmçinin proqramlaşdırmanın çətinliyi haqqında mifləri dağıtmaqdır.

# Etibarsız sayılır

**Bakı Dövlət Universiteti** tərəfindən 1999-cu ildə Qonaqova Göyərçin Rəhim qızına verilmiş A-048322 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes və Kooperasiya Kolleci** tərəfindən 2015-ci ildə Abdullayeva Nazıbəyim Vahid qızına verilmiş AA-051495 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci (keçmiş Bakı Sənaye-Pedaqoji Texnikumu)** tərəfindən 2009-cu ildə Məmmədova (Eyvazova) Günay Ələddin qızına verilmiş BB-II-098563 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Siyəzən şəhər** M.Müşfiq adına 2 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Muradov Atabala Səxavət oğluna verilmiş A-274497 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 181 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Əliyev İlkin İlqar oğluna verilmiş E-142840 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyasını** 2013-cü ildə bitirmiş Məmmədli Akif Mehdi oğluna 2014-cü ildə verilmiş BB-I-023038 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Suçma kənd tam orta məktəbini 2018-ci ildə bitirmiş Mirzəyeva Gülay Taleh qızına verilmiş E-176656 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 153 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Hüseynov Bəhruz Nail oğluna verilmiş B-369420 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 205 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Cəbiyeva Afət Bəxtiyar qızına verilmiş B-593726 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2011-ci ildə Qaralova Aydan Mövlud qızına verilmiş AA-008393 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 1 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Ağamirzəyeva (Əliyeva) Mərcanə Mikayıl qızına verilmiş A-104852 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 167 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Quluzadə Sabir Məlik oğluna verilmiş A-517692 nömrəli attestat tapıldığı üçün etibarlı sayılır.

**Lənkəran rayon** İstisu qəsəbə tam orta məktəbini 2002-ci ildə bitirmiş Əliyev Rahim Aydın oğluna verilmiş A-594305 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Kələk kənd tam orta məktəbini 1995-ci ildə bitirmiş Quliyeva (Muxtarova) Səriyyə Zahid qızına verilmiş A-118530 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləcəri stansiyası Azərbaycan Dəmir Yol əyani-qiyabi** orta məktəbi 1994-cü ildə bitirmiş Rzayev Zaur Sabir oğluna verilmiş A-230563 nömrəli attestat və qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Dövlət Humanitar Kolleci** tərəfindən 2006-cı ildə Hüseynova Günay Qasım qızına verilmiş BB-II-043319 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı rayonu** Viləş kənd tam orta məktəbini 1989-cu ildə bitirmiş Məmmədova Əfqanə Əlisa qızına verilmiş A-556830 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayonu** Sığırlı kənd tam orta məktəbini 1989-cu ildə bitirmiş Fərəcov Bəhruz Rəşid oğluna verilmiş 605501 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2001-ci ildə Məmmədov Anar Ruslan oğluna verilmiş A-089391 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**12 nömrəli Peşə Məktəbi** tərəfindən Osmanov Vüqar İslam oğluna 1994-cü ildə verilmiş З-0966751 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 5 nömrəli tam orta məktəbi 1995-ci ildə ümumi orta təhsil səviyyəsi üzrə bitirmiş Daureş Zemfira Məhəmməd qızına verilmiş Ə-288 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** Texniki Humanitar və Təbiət fənləri Təmayüllü İnternat tipli Liseyin IX sinfini 2015-ci ildə bitirmiş Xudaverdiyev Sahib Gülverdi oğluna verilmiş 562310 nömrəli şəhadətnamə və 2017-ci ildə verilmiş E-044577 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayonu** Qaratorpaq kənd tam orta məktəbini 2017-ci ildə bitirmiş Qaffarov Aqil Ruslan oğluna verilmiş E-069064 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayonu** Piral kənd tam orta məktəbini 1997-ci ildə bitirmiş Yarəliyev Gündüz Beyrut oğluna verilmiş 020935 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2003-cü ildə Rüstəmova İlahə Sürəddin qızına verilmiş A-130119 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universitetini** 2006-cı ildə bitirmiş Rüstəmov Rüstəm İskəndər oğluna 2007-ci ildə verilmiş B-057896 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Dövlət Humanitar Kolleci** tərəfindən 2007-ci ildə Rüstəmova (Xəlilova) Sara Əzizağa qızına verilmiş BB-II-057139 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universiteti** tərəfindən 2009-cu ildə Bağırova Şəbnəm Hacağa qızına verilmiş B-156125 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Mircəlalkənd kənd tam orta məktəbinin IX sinfini 2005-ci ildə bitirmiş Babayeva (Seyfiyeva) Asudə Aydın qızına verilmiş 129901 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2011-ci ildə Məmmədli Fərid Hüseyn oğluna verilmiş B-217372 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Babək rayonu** Babək qəsəbə tam orta məktəbini 2011-ci ildə bitirmiş Həsənov Əziz Yasin oğluna verilmiş A-001678 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 25 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Həmzəyev Fərid İlqar oğluna verilmiş B-483748 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Y.Əsgərov adına Koltəhnəli kənd tam orta məktəbini 2002-ci ildə bitirmiş Abdullayeva Mehriban İman qızına verilmiş A-591129 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Ə.Ələkbərov adına Abbaslı kənd 1 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Orucov Ruslan Qəhrəman oğluna verilmiş A-072545 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Aşağı Seyfəli kənd tam orta məktəbini 2001-ci ildə bitirmiş Əliyeva Günel Vilayət qızına verilmiş A-540353 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Ə.Ələkbərov adına Abbaslı kənd 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əliyeva Təranə Yasin qızına verilmiş B-075259 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** E.Həsənov adına Çinarlı qəsəbə tam orta məktəbini 2004-cü ildə bitirmiş Zeynalov Vüsal Nəcəf oğluna verilmiş B-075845 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** B.Rüstəmov adına Dəllər Cəyir kənd tam orta məktəbini 1999-cu ildə bitirmiş Həsənova Təranə Sayad qızına verilmiş A-260147 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qax şəhər** 5 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Musayev Azər Əli oğluna verilmiş A-532180 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayonu** Köhnə Alvadı kənd tam orta məktəbini 2009-cu ildə bitirmiş Süleymanov Firuz Mübariz oğluna verilmiş B-625585 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2014-cü ildə Aydəmirova (Məmmədova) Mələkxanım Rauf qızına verilmiş A-036190 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 3 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Süleymanov Roman Adışirin oğluna verilmiş 745523 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Yerli Sənaye Texnoloji Texnikumu** tərəfindən 1984-cü ildə Mirzəyeva Tünzalə Zilim qızına verilmiş 015447 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2014-cü ildə Məmmədova Şəfa Eldar qızına verilmiş A-039386 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 16 nömrəli tam orta məktəbi 1983-cü ildə bitirmiş Mirzəyev İlham Əlikram oğluna verilmiş A-849514 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İncəsənət Universiteti** tərəfindən 2000-ci ildə Ağayeva Gövhər Əli qızına verilmiş AB-I-076992 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2009-cu ildə Hidayətov Nurlan Əlifərman oğluna verilmiş BB-I-011612 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Məhəməliyeva Xədicə Rəşid qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 146 bömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş İsmayılova Leylan Eldar qızına verulniş A-762600 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Yeni Həyat kənd tam orta məktəbini 2010-cu ildə bitirmiş Qurbanov Elnur Səfər oğluna verilmiş B-736125 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayonu** Buludlu kənd tam orta məktəbini 1997-ci ildə bitirmiş Məmmədova Gülnarə Maarif qızına verilmiş A-200918 nömrəli orta təhsil haqqnda attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayonu** Xaçmaz kənd 1 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Saadov Tural Saad oğluna verilmiş A-545820 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qafur Məmmədov adına Bakı Dənizçilik Məktəbi** tərəfindən 1977-ci ildə Qafarov Eldəniz Faiqoviçə verilmiş Э-I-011727 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2005-ci ildə Quliyev Faiq Nizami oğluna verilmiş BB-I-000959 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 32 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Abdullayev Həmid Kamil oğluna verilmiş A-667031 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin rəhbərliyi və kollektivi 293 nömrəli tam orta məktəbin direktoru

**VAQİF BABA OĞLU TARVERDİLİNİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

"İdrak" Liseyinin rəhbərliyi və kollektivi liseyin ingilis dili müəllimi Xatirə Şıxıyevaya anası

**ÇƏRKƏZ MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"İdrak" Liseyinin rəhbərliyi və kollektivi liseyin riyaziyyat-məntiq müəllimi Leyla Məhərrəmovaya əzizi

**ŞAİQ ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qalib layihə



Bakının Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində qaçqın və məcburi köçkünlər üçün tikilmiş yeni yaşayış massivində yerləşən Füzuli rayonu 50 nömrəli tam orta məktəbin uğurları ilbəil artmaqdadır. Təhsil müəssisəsində təhsilin keyfiyyətinin yaxşılaşdırılması, şagirdlərin nailiyyətlərinin artırılması istiqamətində mühüm işlər aparılır. Çalışırıq ki, hər zaman təhsil sahəsində uğurlarımız ilə tanınaq. Bunun üçün isə müəllimlərimiz öz işinə daha yaradıcı yanaşır, şagirdlərin yüksək təlim almaları üçün daim öz üzərlərində çalışırlar. Rəhbərlik etdiyim təhsil müəssisəsi hər zaman beynəlxalq təcrübələrə önəm verir, Təhsil Nazirliyinin həyata keçiridiyi layihələrdə, müsabiqələrdə fəallıq göstərir. Belə ki, 11 yanvar 2018-ci ildə Təhsil Nazirliyi, Böyük Britaniya hökuməti və "British Council" təşkilatının dəstəyi ilə məktəbimizdə İngilis dili Resurs Mərkəzi açılıb. Onu da qeyd edim ki, təhsil müəssisəsində açılan mərkəz təşkilatın sayca 12-ci ingilis dili mərkəzidir. İngilis dili Resurs Mərkəzinin açılışında Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Böyük Britaniyanın Azərbaycandakı səfiri Karol Krofts, "British Council" təşkilatının Azərbaycan üzrə direktoru Samr Şah və digər şəxslər iştirak ediblər.

# "Sabaha uzanan əllər - Robotexnika Mühəndisliyi Akademiyası"

**Günel KAZIMOVA,**
*Füzuli rayonu 50 nömrəli tam orta məktəbin direktoru*

## Şagirdlər biliklərin real həyatda necə tətbiq ediləcəyini praktik olaraq öyrənəcəklər

Məktəbimizdə fəaliyyət göstərən mərkəzin əsas məqsədi müəllim və şagirdlərin ingilis dili bacarıqlarının, xüsusilə danışıq qabiliyyətlərinin inkişaf etdirilməsidir. Mərkəzimiz ingilis dilinin öyrənilməsi üçün zəngin kitab resursları, audio və video materiallar, jurnallar, elektron resurslar və bütün lazımi texniki avadanlıqlarla təmin olunub. Burada çalışan müəllimlər 4 ay müddətində təlimlərdə iştirak edib və xüsusi metodlara yiyələniblər.

Bundan başqa, 2018-2019-cu dərs ilində keçirilən pedaqoji mühazirələrdə təhsil müəssisəsinin rəhbəri kimi "Ümumi təhsilin idarə olunmasının təkmilləşdirilməsi" mövzusunda təqdimat edərək I yerə layiq görülmüşəm.

Növbəti uğurlu işimiz 2018-2019-cu tədris ilində Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqəsinin qalibi olmağımızdır. Onu da qeyd edim ki, bizim məktəb həmin müsabiqənin 2017-ci ildə də qalibi olub.

Bu dəfə müsabiqəyə aktual bir mövzu-"Sabaha uzanan əllər-Robotexnika Mühəndisliyi Akademiyası" adlı layihə ilə qatıldıq və yenidən qalib olduq. Valideynlər realllğı qiymətləndirərək görürlər ki, dünyanın nəbzi texnika sıçrayışı ilə vurur və övladlarını daha çox bu sahəyə istiqamətləndirirlər. Bu yeni tendensiya axınında cəmiyyətə texniki elmlərə yiyələnmiş mütəxəssislərə humanitar biliklərə yiyələnmiş gənclərdən daha çox ehtiyacın olacağı proqnozlaşdırılır. Odur ki, dünya təhsili də texniki elmlərə xüsusi önəm verir.

Mühəndislik təhsilinə diqqətin artırılması, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, müasir və innovativ biliklərə sahib mühəndislərin hazırlanmasında universitetlərin rolunun yüksəldilməsi müəcud zamanın əsas tələblərindəndir. Bu amillə paralel olaraq addımlaması vacib olan mühəndislik təhsilinin əsas hissəsini də uşaq mühəndisliyi tutur. Azərbaycanda bütün sahələrdə olduğu kimi, mühəndislik sahəsində də uğurlu işlər həyata keçirilməkdədir. Ölkəmizdə təməli atılmış, fəaliyyətini uğurla davam etdirən və qısa zamanda Təhsil Nazirliyinin rəğbətini qazanaraq bir çox məktəblərin ən vacib daxili dərnək və məktəbdən sonra praktiki çalışma proqramına çevrilən layihələrdən biri də Robot texnologiyalarının tədrisdə tətbiqidir.

Bu gün respublikada robotexnika dərsləri daha çox şəhər məktəblərində həyata keçirilir. Bir çox istedadlı şagirdlərimiz belə layihələrdən kənarda qalmış olur. Biz bu layihəni hazırlayarkən Bakıdan uzaqda yerləşən məcburi köçkün məktəblərinin, xüsusi ilə Füzuli rayonu məktəb şagirdlərinin bu sahədə bilik və bacarıqlarının artırılmasını düşünürdük.

Həyata keçirdiyimiz layihənin əsas məqsədi:

* *Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsilin inkişafı və müasirləşməsi strategiyasına müvafiq olaraq, şagirdlər üçün müasir tələblərə cavab verən tədris mühitinin yaradılması;*
* *Rəqəmsal məktəb mühitinin formalaşdırılması;*
* *Şagirdlərimizin Elm, Texnologiya, Mühəndislik, Riyaziyyat və Yaradıcılıqla bağlı bu yaş dövrü maraq duyğusunun təşviqi və ilkin bacarıqların ortaya çıxarılmasına yardım etmək;*
* *Pedaqoji kadrların hazırlanması sisteminin təhsilin informasiyalaşdırılması konsepsiyasının nəzərə alınması ilə yenidən qurulması.*

Layihəmiz avqustun 20-dən başlayıb və bu ilin dekabrın 20-dək davam edəcəkdir.

### Layihə çərçivəsində görüləcək işlər

Layihə çərçivəsində artıq bir neçə işlər görülmüş və digər işlərmizi də fəaliyyət planına uyğun həyata keçirməkdəyik. Belə ki, ictimaiyyəti məlumatlandırmaq üçün "dəyirmi masa" və layihənin geniş təqdimatı təşkil olunub. Növbəti işimiz bu layihənin davamlılığını təmin etmək məqsədilə "Mars Academy" şirkəti və "Demokratik Gənclər" İctimai Birliyinin peşəkar mütəxəssisləri tərəfindən 10 müəllim üçün təlim keçirilməsi nəzərdə tutulur. Seçilmiş müəllimlərə eyni zamanda auditoriya ilə işləmək və digər bacarıqlar mövzusunda da xüsusi təlimlər keçiriləcək.

Müəllimlər STEAM təhsil metodu haqqında ilkin anlayışlarla tanış olmuş, mexanika və elektrik mühəndisliyi, telekommunikasiya, nəzarət və kompüter texnikalarını əhatə edən dizayn proseslərinin mexatronika sistemlərinə daxil edilməsi ilə bağlı məlumatlandırılıblar. Bundan başqa, Lego Mindstorm EV3 Robotları vasitəsi ilə sadə robot quraraq ilkin sadə əmrləri yerinə yetirmək üçün proqramlaşdırma və Robotexnika dərsləri mövzusunda xüsusi biliglər verilmişdir.

### Şagirdlər üçün təlimlər

Növbəti addım şagirdlər üçün təlimlərin keçirilməsi ilə bağlı olacaq. Layihə boyunca 7-10 (gənc mühəndis) və 11-14 (master mühəndis) yaş qrupları üzrə interaktiv təlimlər həyata keçiriləcək. Onu da qeyd edim ki, Elm, Texnologiyalar, Mühəndislik və Riyaziyyatın sirlərini öyrədən proqramlarımız daha əyləncəli olmaları ilə fərqlənir. Hər modul 6 dərsdən ibarət olaraq, 3 həftə ərzində keçiriləcəkdir.

Layihə çərçivəsində "Robotexnika Mühəndisliyi Akademiyası" yaradılacaqdır. Bu akademya üçün bir otaq ayrılacaq və bütün avadanlıqlar yerləşdiriləcək. Təlimlər, dərslər burada olacaq. Adıçəkilən akademiya Füzuli rayonu 50 nömrəli tam orta məktəbdə fəaliyyət göstərəcək.Təlimlər isə "Mars Academy" şirkəti tərəfindən həyata keçiriləcədir.

### Bu layihədən gözləntilərimiz

Şagirdlərimiz dəqiqlik, analitik və kritik düşünmə, problem həll etmə, qərar vermə, komanda ilə işləmək və s. kimi bacarıqlar əldə edəcəklər. Gələcəkdə hansı peşəni seçmələrindən asılı olmayaraq mükəmməl təhsil və karyera üçün artıq ilk uğurlu addımlarını atacaqlar. Onlar əldə olunan biliklərin real həyatda necə tətbiq ediləcəyini praktiki olaraq görəcək və öyrənəcəklər. Şagirdlər həmçinin beynəlxalq olimpiadalar və layihələrdə iştirak imkanı əldə edəcəklər.

Müəllimlər isə bu qaydada dərsləri quraraq, beynəlxalq, yerli müsabiqələrə qoşularaq özlərini daha da inkişaf etdirəcəkdir.

Təbii ki, bunlar bütövlükdə məktəbdə təhsilin keyfiyyətində əsaslı dönüş yaradacaqdır.

### Bizim proqramlar uşaqlara:

* *layihə olimpiadalarına hazırlaşmaqda kömək edir;*
* *problem həll etmə qabiliyyətini öyrədir;*
* *düşünmə qabiliyyətini inkişaf etdirir;*
* *elmə və texnologiyalara həvəs yaradır;*
* *qrup halında işləmə qabiliyyətini artırır;*
* *elmi-texnoloji biliklərin real məsələlərə tətbiqini öyrədir;*
* *uşaqlarda öz bacarıqlarına güvəni artırır.*

# Alimlər həkim və kompüteri müqayisə ediblər



**Samirə KƏRİMOVA**

Süni intellektlə bağlı tədqiqatların ilk sistematik icmalına istinadən, süni intellekt diaqnostika və diaqnostik vizualizasiya nəticələrinin interpretasiyası sahəsində dəqiqlik üzrə həkimlərdən heç də geri qalmır. Ekspertlər bunu nəzərə alaraq söyləyirlər ki, kompüterlər gələcəkdə həkimləri birmənalı şəkildə sıxışdıracaq.

**www.meddaily.ru** saytının məlumatına görə, mütəxəssislər diaqnostika sahəsində süni intellektdən istifadənin potensialının hələ sonadək öyrənilmədiyini də etiraf edirlər. İndiyədək süni intellekt və həkimlərin imkanlarının birbaşa müqayisəli tədqiqatları cəmi bir neçə dəfə aparılıb. Doğrudur, 69 tematik tədqiqatın analizinə əsaslanaraq demək olar ki, süni intellekt real həkimlərin göstəriciləri ilə müqayisə edilə bilən dəqiqliklə ən müxtəlif xəstəlikləri müəyyənləşdirə bilir.

Onu da qeyd etmək lazımdır ki, bu yaxınlarda tamamilə süni intellekt tərəfindən yaradılmış ilk vaksin təqdim olunub. Tezliklə kliniki sınaqları keçiriləcək qrip əleyhinə yüksək effektivliyə malik vaksini liqandların axtarışı alqoritmi kimi tanınan proqram yaradıb. Bütün bunlar ekspertlərin proqnozlarının reallığa çevriləcəyinə inanmağa əsas verir. Lakin buna baxmayaraq hələ süni intellektin həkimləri əvəz etməsindən söhbət gedə bilməz.

# Mobil qurğulardan şəkillərin çapı üçün kompakt printer

"Fujifilm" şirkəti mobil qurğulardan şəkillərin çapı üçün nəzərdə tutulmuş "Instax Mini Link" kompakt printerini təqdim edib.

**www.infocity.az** saytının məlumatında bildirilir ki, printer "Fujifilm Instant Color Film" kartriclərindən istifadə edir. Daşıyıcıların ölçüsü 86-54, çap sahəsinin ölçüsü isə 62-46 millimetr təşkil edir.

Kompakt printer "Mini Link App" əlavəsi vasitəsilə mobil qurğunun kamerasını idarə etməyə imkan verir. Məsələn, printeri əyərək təsviri yaxınlaşdırmaq olar. Printer vasitəsilə distant çəkilişi həyata keçirmək mümkündür. Daxilinə quraşdırılmış akkumulyator 100-ə qədər şəkil çap etməyə imkan verir. Batareyanın enerji ilə yüklənməsi Micro-USB portu vasitəsilə həyata keçirilir. Bir şəklin çıxarılmasına təxminən 12 saniyə vaxt tələb olunur. Qurğu smartfona Bluetooth simsiz rabitəsi vasitəsilə qoşulur.

Ağ, çəhrayı və tünd göy rənglərdə satışa çıxarılan printerin qiyməti 100 ABŞ dolları təşkil edir.